

Azər-Türk Bank ASC

Dayanıqlı İnkişaf Hesabatı

2023 - 2025

Mündəricat

1. Hesabat Haqqında 4
2. İdarə Heyətinin Sədrinin Müraciəti 5
3. ATB haqqında 7
3.1 Missiya, Strateji Baxış və Dəyərlərimiz 9
3.2 ATB-nin Biznes Modeli və Əsas Xidmət Sahələrimiz 11
3.3 İnnovasiya və Rəqəmsal Transformasiya 19
3.3.1 Dayanıqlı Maliyyə 27
3.4 Müştəri əlaqələrinin idarə edilməsi 28
3.5 Yerli İqtisadiyyat və Bank Sektoru 30
4. Dayanıqlı İnkişafa Yanaşmamız 32
4.1 Əhəmiyyətli Mövzular 34
4.2 Maraqlı Tərəflərin Cəlb Olunması 36
5. Korporativ İdarəetməyə Yanaşmamız 38
5.1 Azərbaycan Bank Sektorunda Risk Mühiti 45
5.2 Etik Davranış və Uyğunluq 56
6. İnsan Resurslarının İdarə Olunması 60
7. ATB-nin Korporativ Sosial Məsuliyyəti 68
8. Ətraf Mühitin Qorunması 72
9. Təchizat Zəncirinin İdarə Olunması 79
GRI Məzmun İndeksi 80

İxtisarlar

ABA	Azərbaycan Banklar Assosiasiyası
ACAMS	The Association of Certified Anti-Money Laundering Specialists (Çirkli Pulların Yuyulmasına Qarşı Sertifikatlaşdırılmış Mütəxəssislər Assosiasiyası)
ADM	Automated Deposit Machine (Avtomatlaşdırılmış Depozit Maşını)
AFAD	Türkiyə Daxili İşlər Nazirliyi Təbii Fəlakət və Fövqəladə Hallar İdarəsi
AKİA	Aqrar Kredit və İnkişaf Agentliyi
AR	Azərbaycan Respublikası
ARMB	Azərbaycan Respublikasının Mərkəzi Bankı
ATB	Azər-Türk Bank
ATM	Automated Teller Machine (Bankomat)
BMT	Birləşmiş Millətlər Təşkilatı
BPİED	Biznes Proseslərin İdarə Edilməsi Departamenti
CDD	Customer Due Diligence
DAD	Daxili Audit Departamenti
DND	Daxili Nəzarət Departamenti
DLP	Data Loss Prevention (Məlumat İtkisinin Qarşısının Alınması)
DİM	Dayanıqlı İnkişaf Məqsədləri
ESG	Environmental, Social, and Governance (Ətraf Mühit, Sosial və İdarəetmə)
ESM	Etik və Sosial Məsələlər
FATF	Financial Action Task Force (Maliyyə Tədbirləri üzrə İşçi Qrupu)
FŞ	Fiziki Şəxslər
GPI	Global Payments Innovation (Qlobal Ödənişlər İnnovasiyası)
GRI	Global Reporting Initiative (Qlobal Hesabatlılıq Təşəbbüsü)
HŞ	Hüquqi Şəxslər
İEYQ	İstixana Effekti Yaradan Qazlar
ILO	International Labour Organization (Beynəlxalq Əmək Təşkilatı)
JCB	Japan Credit Bureau (Yaponiya Kredit Bürosu)
KBD	Korporativ Bankçılıq Departamenti
KOB	Kiçik və Orta Biznes
KSM	Korporativ Sosial Məsuliyyət
KYC	Know Your Customer (Müştərini Tanı)
MİDA	Mənzil İnşaatı Dövlət Agentliyi
MŞ	Müşahidə Şurası
MƏİEM	Müştəri Əlaqələrinin İdarə Edilməsi Mərkəzi
OFAC	Office of Foreign Assets Control (Xarici Aktivlərə Nəzarət Ofisi)
ÖMP	Özünüməşğulluq Proqramı
PBD	Pərakəndə Bankçılıq Departamenti
PEP	Politically Exposed Persons (Siyasi Nüfuzlu Şəxslər)
POS	Point of Sale (Satış Nöqtəsi Terminalı)
RİK	Risklərin İdarəetmə Komitəsi
RMD	Risk Menecmenti Departamenti
ROA	Return on Assets (Aktivlərin gəlirliliyi)
ROE	Return on Equity (Kapitalın gəlirliliyi)
SOC	Security Operations Center (Təhlükəsizlik Əməliyyatları Mərkəzi)
XM	Xəzinədarlıq Mərkəzi
ÜDM	Ümumi Daxili Məhsul
İQ	İstixana Qazı
İH	İdarə Heyəti
İKZF	İpoteka və Kredit Zəmanət Fondu
İRD	İnsan Resursları Departamenti
İT	İnformasiya Texnologiyaları
İTM	İnformasiya Təhlükəsizliyi Mərkəzi
ƏFG	Əsas Fəaliyyət Göstəriciləri
ƏL/TMM	Əmlakın Leqallaşdırılması və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Mübarizə
SOCAR	Azərbaycan Respublikası Dövlət Neft Şirkəti
FB	Faiz bəndi
MXM	Müştəri Xidmətləri Mərkəzi
FİM	Filiallarla İş Mərkəzi
YSB	Yerli Struktur Bölmələri
MMKD	Maliyyə Monitorinqi və Komplayens Departamenti
İTD	İnformasiya Təhlükəsizliyi Departamenti
AM	Anderraytinq Mərkəzi
HD	Hüquq Departamenti
MD	Maliyyə Departamenti
ÇPY	Çirkli Pulların Yuyulması

1. Hesabat Haqqında

Hesabatın məqsədi

Azər-Türk Bankın (bundan sonra "ATB" və ya "Bank") 2023-2025-ci illəri əhatə edən Dayanıqlı İnkişaf Hesabatı ATB-nin ətraf mühit, sosial məsuliyyət və korporativ idarəetmə (ESG)[1] sahələrində atdığı addımlar və bu istiqamətdəki öhdəlikləri barədə maraqlı tərəflərə şəffaf məlumat təqdim etmək məqsədi daşıyır. Hesabat Bankın dayanıqlılıq üzrə fəaliyyətinin əsas istiqamətlərini, əldə edilmiş nəticələri və qarşıya qoyduğu strateji hədəfləri əhatə edir. Burada həmçinin ESG prinsiplərinin Bankın əməliyyatlarına və qərar qəbuletmə proseslərinə inteqrasiyası üzrə görülən işlər təqdim olunur.

Bu Dayanıqlı İnkişaf Hesabatı ATB üçün əhəmiyyətli sayılan bütün mövzuları əhatə edir, maraqlı tərəflərin gözləntilərini nəzərə alır və zəruri qaydalara və normativ çərçivələrə uyğunlaşır.

Beynəlxalq səviyyədə tanınan hesabatlılıq standartlarına uyğunluq

Bu Hesabat dayanıqlılıq hesabatlılığı sahəsində geniş tətbiq olunan Qlobal Hesabatlılıq Təşəbbüsü (GRI) Standartlarına istinad olaraq hazırlanmışdır. Həmçinin, Bankın fəaliyyətinin qlobal dayanıqlılıq prioritetləri ilə uyğunluğunu təmin etmək məqsədilə Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri (DİM) də nəzərə alınmışdır. **ATB-nin Dayanıqlı İnkişaf hesabatını dərc etməsi, Bank üçün maraqlı tərəflər qarşısında dayanıqlılıq göstəricilərinin açıqlanması sahəsində şəffaflığın artırılması baxımından mühüm bir addımdır.**

Hüquqi ad	Azər-Türk Bank Açıq Səhmdar Cəmiyyəti
Baş ofis	Cəlil Məmmədquluzadə küçəsi 85, 192/193, Nəsimi rayonu, Bakı, AZ1078, Azərbaycan
Veb-sayt	www.atb.az
Hesabat dövrü	01.01.2023 – 31.12.2025
Standartlar	• Qlobal Hesabatlılıq Təşəbbüsü (Global Reporting Initiative – GRI) • BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri

Hesabatın əhatə dairəsinə ATB-nin əsas əməliyyat strukturları – xüsusilə baş ofis və bütün filiallar daxildir. **ATB-nin İdarə Heyəti (İH) cari Dayanıqlı İnkişaf Hesabatının nəzərdən keçirilməsi və təsdiq olunmasına cavabdehdir.**

[1] Hesabat boyunca "ESG" (Ətraf mühit, Sosial və İdarəetmə), "dayanıqlılıq" və "dayanıqlı inkişaf" terminləri bir-birini əvəz edən anlayışlar kimi işlədilə bilər.

Ötən hesabat dövrləri ilə müqayisədə tətbiq olunan düzəlişlər

Hesabat dövründə Korporativ, Kiçik və Orta Biznes, Pərakəndə müştəri sayının hesablanması metodologiyası yenidən nəzərdən keçirilmiş və müştəri bazasının daha dəqiq əks etdirilməsi məqsədilə yanaşmada dəyişiklik edilmişdir. Yeni metodologiyanın tətbiqi nəticəsində əvvəlki hesabatlarda açıqlanmış bəzi göstəricilər yenidən hesablanmışdır.

Müqayisəliliyin təmin edilməsi məqsədilə 2023 və 2024-cü illərə aid müştəri sayı göstəriciləri yeni metodologiyaya uyğun olaraq yenidən təqdim edilmişdir. Bu dəyişiklik müştəri sayının ölçülməsi yanaşması ilə bağlı olub, əvvəlki dövrlərin maliyyə nəticələrinə və digər göstəricilərinə təsir göstərməmişdir.

Hesabat boyu tətbiq olunan fərziyyələri və ekspert qiymətləndirmələri

Hesabatda təqdim olunan məlumatlar əsasən Bankın daxili informasiya sistemlərindən əldə edilmiş faktiki göstəricilərə əsaslanır. Məlumatların hesablanması və təhlili zamanı fərziyyə və ya ekspert qiymətləndirmələrinin tətbiq edilməsi tələb olunduğu hallarda müvafiq qeydlər verilmişdir.

GRI İndeks cədvəli

Hər bir əhəmiyyətli mövzunun statusunu və tövsiyə olunan açıqlamaları təqdim edən GRI İndeks Cədvəli Hesabatın 80–83-cü səhifələrində yerləşdirilmişdir.

Hesabatla bağlı hər hansı rəy, təklif və ya ATB-nin dayanıqlı inkişaf fəaliyyəti və hesabatlılığının təkmilləşdirilməsi ilə bağlı fikir bildirmək istədiyiniz təqdirdə, **husniyya.i@atb.az** elektron poçt ünvanı vasitəsilə bizimlə əlaqə saxlaya bilərsiniz.

2. İdarə Heyətinin Sədrinin Müraciəti



Nəbiyeva Günel
İdarə Heyətinin Sədri

Hörmətli səhmdarlarımız, müştərilərimiz, tərəfdaşlarımız və əməkdaşlarımız,

2025-ci il ATB üçün struktur dəyişiklikləri və strateji yenilənmə ilə yadda qalan bir il olmuşdur. Qlobal və regional müstəvidə baş verən iqtisadi və geosiyasi qeyri-müəyyənliklərə baxmayaraq, Bank bu dövr ərzində gələcək inkişaf istiqamətini müəyyən edən mühüm və məqsədyönlü addımlar atmışdır.

Hesabat ili ərzində baş verən ən əhəmiyyətli hadisələrdən biri Bankın səhmdar strukturunda olan dəyişiklik olmuşdur. 2025-ci ildə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən Bankın səhmlərinin 51%-nin əldə edilməsi prosesi uğurla yekunlaşmış və bununla da SOCAR Bankın əsas səhmdarına çevrilmişdir. Bu dəyişiklik Bank üçün yalnız mülkiyyət strukturunun yenilənməsi deyil, eyni zamanda real sektor ilə maliyyə sektoru arasında daha sıx əlaqələrin qurulmasına xidmət edən mühüm addım olmaqla yanaşı, uzunmüddətli və dayanıqlı inkişaf imkanlarını da genişləndirmişdir.

Bu dəyişikliklər korporativ idarəetmə sisteminin təkmilləşdirilməsi ilə müşayiət olunmuş, Müşahidə Şurası səviyyəsində yenilənmələr aparılmış və idarəetmə mexanizmlərinin effektivliyi daha da artırılmışdır. Nəticədə, Bankda strateji qərarvermə prosesləri daha çevik, şəffaf və sistemli şəkildə təşkil edilmişdir. Bu yanaşma ESG prinsiplərinin, xüsusilə də effektiv idarəetmə komponentinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

2025-ci il mənim üçün də xüsusi əhəmiyyət kəsb edir. Bu ildən etibarən Azər-Türk Bank ASC-nin İdarə Heyətinin üzvü və sədr müavini kimi fəaliyyətə başlayaraq Bankın yeni inkişaf mərhələsində aktiv iştirak etmək məsuliyyətini üzərimə götürdüm. 2026-cı ildən isə Bankın İdarə Heyətinin sədri kimi fəaliyyətimi davam etdirirəm.

Beynəlxalq əməkdaşlıqların genişləndirilməsi istiqamətində 2025-ci ildə mühüm nəticələr əldə olunmuşdur. Qara Dəniz Ticarət və İnkişaf Bankı ilə kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi məqsədilə kredit sazişinin imzalanması bu istiqamətdə atılmış vacib addımlardandır. Cəlb olunmuş vəsaitlərin real sektor subyektlərinə yönəldilməsi sahibkarlığın inkişafına, məşğulluğun artırılmasına və iqtisadi inklüzivliyin gücləndirilməsinə töhfə verir.

Eyni zamanda, Milli Depozit Mərkəzi və Bakı Fond Birjası ilə birgə Abu Dhabi Securities Exchange ilə Tabadul layihəsi çərçivəsində imzalanmış Kollektiv Mübadilə Razılaşması Bankın beynəlxalq kapital bazarlarına inteqrasiyasını daha da gücləndirmişdir. Bu çərçivədə Bankın hesablaşma agenti kimi çıxış etməsi regionlararası maliyyə əməliyyatlarında iştirak imkanlarını genişləndirmişdir.

2025-ci ildə rəqəmsal transformasiya istiqamətində beynəlxalq tərəfdaşlıqların genişləndirilməsi Bankın prioritet istiqamətlərindən biri olmuşdur. Visa ilə imzalanmış əməkdaşlıq memorandumu rəqəmsal maliyyə infrastrukturunun inkişafını sürətləndirərək müştərilər üçün daha əlçatan, təhlükəsiz və innovativ xidmətlərin təqdim olunmasına imkan yaradır.

Bununla yanaşı, Bank UnionPay International ödəniş sisteminə qoşularaq beynəlxalq ödəniş ekosistemində iştirakını genişləndirmişdir. Bu addım müştərilər üçün maliyyə xidmətlərinə çıxış imkanlarını artırmaqla yanaşı, tərəfdaş biznes subyektlərinin yeni bazarlara çıxışını da dəstəkləyir.

2025-ci ildə Bankın nizamnamə kapitalı 21,5 milyon manat və ya 27,2% artırılaraq 100,5 milyon manata çatdırılmışdır ki, bu da Bankın maliyyə dayanıqlılığının gücləndirilməsi və gələcək inkişafın təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Müştəriyönümlü fəaliyyət strategiyamızın davamlı həyata keçirilməsi nəticəsində Bank 2025-ci ildə də geniş və diversifikasiya olunmuş müştəri bazasını qoruyub saxlamışdır. Yenilənmiş hesablanma yanaşması əsasında aparılmış qiymətləndirməyə görə, 2025-ci ilin sonuna Bankın aktiv pərakəndə müştərilərinin sayı 224,642 nəfər təşkil etmişdir.

KOB müştəriləri seqmentində davamlı artım dinamikası müşahidə olunmuşdur. KOB müştərilərinin sayı 2023-cü ildə 8,712 olduğu halda, 2025-ci ilin sonuna 15,372-yə çataraq iki il ərzində 76,4% artmışdır. Bu nəticə Bankın sahibkarlığın inkişafına dəstək, maliyyə xidmətlərinin əlçatanlığının genişləndirilməsi və biznes müştərilərinin ehtiyaclarına uyğun həllərin təqdim edilməsi istiqamətində həyata keçirdiyi fəaliyyətlərin effektivliyini əks etdirir. Hüquqi şəxslər üzrə ümumi müştəri bazası isə 2025-ci ilin sonuna 15,541 müştəri təşkil etmişdir.

Görülən işlər və həyata keçirilən təşəbbüslər nəticəsində S&P Global Ratings tərəfindən Bankın reytinqinin “B+/B” səviyyəsində sabit proqnozla təsdiq edilməsi maliyyə dayanıqlılığımızın və risklərin idarə olunması yanaşmamızın beynəlxalq səviyyədə tanındığını göstərir.

İnsan kapitalının inkişafı Bankın dayanıqlı inkişaf yanaşmasının ayrılmaz hissəsidir. Hesabat dövründə əməkdaşların peşəkar inkişafı, inklüziv və dəstəkləyici iş mühitinin formalaşdırılması, eləcə də rifahının yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. İnanırıq ki, güclü və peşəkar komanda Bankın uzunmüddətli uğurunun əsas təminatıdır.

Bizim üçün dayanıqlılıq yalnız strateji sənədlərdə əks olunan yanaşma deyil, gündəlik fəaliyyətimizdə rəhbər tutduğumuz prinsipdir. ESG yanaşmasını fəaliyyətimizə inteqrasiya etməklə biz riskləri daha effektiv idarə etməyə, resurslardan daha səmərəli istifadə etməyə və cəmiyyət üçün uzunmüddətli dəyər yaratmağa çalışırıq.

Əldə etdiyimiz nəticələrin arxasında müştərilərimizin bizə olan etimadı, tərəfdaşlarımızla qurduğumuz əməkdaşlıq və əməkdaşlarımızın zəhməti dayanır. Bu etimad bizim üçün ən böyük dəyərdir.

İnanıram ki, həyata keçirdiyimiz dəyişikliklər nəticəsində Azər-Türk Bank yaxın illərdə daha dayanıqlı və innovativ maliyyə institutu kimi mövqeyini daha da möhkəmləndirəcəkdir.

Göstərdiyiniz etimada görə təşəkkür edirəm.

Azər-Türk Bank Ümumi Baxışda (31.12.2025)

17
MXM
Filial sayı

83
ATM-lərin sayı

42
ADM və ödəniş terminallarının sayı

7,713
POS terminalların sayı

Əsas maliyyə göstəriciləri

2,173,778 min AZN	**110,800 min AZN**	**3,611 min AZN**	**11,243 min AZN**	**10.49%**
Ümumi aktivlər	Məcmu kapital	Mənfəət vergisi	Xalis mənfəət	ROE

Portfel üzrə göstəricilər

252.5 mln	**331.6 mln**	**207.6 mln**	**1,627 mln**
Korporativ və KOB krediti portfeli	Pərakəndə krediti portfeli	İpoteka portfeli	Ümumi depozit portfeli

Müştəri bazası üzrə göstəricilər

169	**15,372**	**224,642**	**188,734**	**18,026**
Korporativ müştərilər	KOB müştərilər	Pərakəndə müştərilər	"ATB360" istifadəçiləri sayı	"atbBusiness" istifadəçiləri sayı

Sosial və Ekoloji göstəricilər

745	**189**	**5,719**	**17%**
İşçilərin ümumi sayı	Yeni işçilərin sayı	Ümumi təlim saatları	İşçi dövriyyəsi

Ekoloji göstəricilər

45,888 litr	**1,890,652 kVts**	**131,131 m^3**	**1,284 tCO_2e**	**33,285 tCO_2e**
Yanacaq sərfiyyatı	Elektrik sərfiyyatı	Təbii qaz sərfiyyatı	Əhatə 1 və 2 emissiyaları	Əhatə 3 emissiyaları

3. ATB haqqında

Bank 1995-ci ildə təsis edilmiş və hesabat dövründə Azərbaycanın dövlət nəzarətində fəaliyyət göstərən banklarından biri olmuşdur.

Hesabat dövrü ərzində Bankın səhmdar strukturunda dəyişikliklərlə bağlı təşəbbüslər irəli sürülmüşdür. 2024-cü ildə SOCAR tərəfindən Bankın səhmlərinin 51%-nin əldə olunması imkanlarının qiymətləndirildiyi və bu məqsədlə müvafiq hüquqi prosedurlara başlanıldığı açıqlanmışdır. Həmin mərhələdə səhmdar strukturunda faktiki dəyişiklik baş verməmiş, proses qiymətləndirmə və razılaşdırma mərhələsində davam etmişdir.

2025-ci ildə isə qanunvericiliyin tələblərinə uyğun olaraq müvafiq prosedurlar tamamlanmış və SOCAR Bankın səhmlərinin 51%-ni əldə edərək əsas səhmdar statusu qazanmışdır.


Səhmdar strukturunda baş vermiş bu dəyişiklik Bankın korporativ idarəetmə sisteminin daha da gücləndirilməsi və uzunmüddətli strateji prioritetlərinin dəstəklənməsi baxımından mühüm bir addım kimi qiymətləndirilir. Bu proseslər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq, müvafiq səlahiyyətli orqanların razılığı ilə həyata keçirilmiş və korporativ şəffaflıq prinsiplərinə riayət olunmuşdur.

“Azər-Türk Bank Açıq Səhmdar Cəmiyyəti 25 may 1995-ci ildə təsis edilmiş, Azərbaycan Respublikasının Mərkəzi Bankının 29 iyun 1995-ci il tarixli 234 nömrəli lisenziyası ilə 11 iyul 1995-ci ildən fəaliyyətə başlamışdır.”

Bankın səhmlərinin əsas hissəsi dövlətə məxsusdur. 2021-ci ildə ATB dövlət bankı elan edildikdən sonra onun idarəetməsi Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan İnvestisiya Holdinqinə həvalə edilmişdir.



Şəkil 1. **Səhmdarlarımız**



Kapital Artımı və Səhmlərin Nominal Dəyəri

Azərbaycan Respublikasında fəaliyyət göstərən "Azər-Türk Bank" ASC hesabat dövrü ərzində nizamnamə kapitalının artırılması ilə bağlı mühüm qərarlar qəbul etmişdir.

2024-cü ilin dekabrında bankın nizamnamə kapitalı əvvəlki **50 milyon manat səviyyəsindən 79 milyon manata qədər artırılmışdır.** Bu artım **mövcud səhmlərin nominal dəyərinin yüksəldilməsi yolu ilə həyata keçirilmişdir** – səhmlərin nominal dəyəri **1 manatdan 1.58 manata qaldırılmışdır.**

Daha sonra 2025-ci ilin oktyabrında bankın nizamnamə kapitalı yenidən artırılaraq **79 milyon manatdan 100.5 milyon manata çatdırılmışdır. Bu kapital** artımı da **səhmlərin nominal dəyərinin artırılması hesabına** həyata keçirilmişdir – **nominal dəyər 1.58 manatdan 2.01 manata qaldırılmışdır,** səhmlərin ümumi sayı dəyişməmiş və 50 milyon ədəd olaraq saxlanılmışdır.

Kapital artımı səhmdarların ümumi yığıncağında qəbul edilmiş qərarlar əsasında həyata keçirilmiş və Azərbaycan qanunvericiliyinə uyğun olaraq tamamlanmışdır.

100 500 000 AZN
Bankın nizamnamə kapitalı

2.01 AZN
Səhmin nominal dəyəri

ATB beynəlxalq pul köçürmə və ödəniş sistemləri ilə əməkdaşlıq edərək müştərilərinə müxtəlif imkan və üstünlüklər təqdim edir. Bank Avropa və digər **regionlarda yerləşən xarici maliyyə institutları ilə müxbir münasibətlər şəbəkəsini genişləndirmişdir.** Eyni zamanda, **Qara Dəniz Ticarət və İnkişaf Bankı (BSTDB)** ilə əməkdaşlıq Bankın beynəlxalq maliyyə institutları ilə tərəfdaşlıq platformasını daha da möhkəmləndirmişdir.

Bununla yanaşı, **Bank beynəlxalq maliyyə bazarlarına institusional inteqrasiyanın gücləndirilməsi məqsədilə strateji tərəfdaşlıqlarını genişləndirmişdir.** Bu çərçivədə Milli Depozit Mərkəzi və Bakı Fond Birjası ilə birlikdə Tabadul Ticarət Mərkəzinə qoşulmaq məqsədilə Abu Dhabi Securities Exchange ilə kollektiv saziş imzalanmışdır.

Sözügedən əməkdaşlıqlar Bankın regional və beynəlxalq kapital bazarlarına çıxış imkanlarının genişləndirilməsinə, həmçinin ölkənin maliyyə infrastrukturunun beynəlxalq inteqrasiyasına töhfə verməyə yönəlmişdir.

Uğura aparan vasitə və resurslar

İmic və etimad | Müştərilər | Təhlükəsizlik | Rəqəmsal həllər

ATB hesabat dövrü ərzində maraqlı tərəflərlə sabit və etibarlı əlaqələrin qorunmasına xüsusi diqqət yetirmişdir. ATB müştərilərə daha əlçatan və keyfiyyətli bank xidmətləri təqdim etmək məqsədilə hesabat dövründə filial şəbəkəsini genişləndirmiş və onu əsas əməliyyat üstünlüklərindən biri kimi davam etdirmişdir. Bankın filialları Azərbaycanın iqtisadi və sosial baxımdan əhəmiyyətli bölgələrində — Bakı, Sumqayıt, Gəncə, Şirvan, Naxçıvan və digər regionlarda yerləşərək əhalinin maliyyə xidmətlərinə çıxışının genişləndirilməsinə və maliyyə inklüzivliyinin dəstəklənməsinə töhfə vermişdir.

Etimad kapitalının qorunması və inkişaf etdirilməsi Bankın yeni təşəbbüslərinin reallaşdırılması və uzunmüddətli dayanıqlı nəticələrin əldə olunması üçün mühüm amil kimi qiymətləndirilir.

Bununla yanaşı, **avtomatlaşdırılmış xidmət kanalları (ATM və ADM şəbəkəsi) vasitəsilə bank xidmətlərinə 24/7 rejimində fasiləsiz çıxış təmin edilmişdir.** Bankın infrastrukturunda tətbiq olunan müasir texnologiyalar və innovasiya yönümlü yanaşmalar əməliyyatların sürətli, təhlükəsiz və effektiv icrasını dəstəkləmiş, xidmət keyfiyyətinin saxlanmasına şərait yaratmışdır.

Bankın fəaliyyəti hesabat dövründə də üç əsas biznes xətti - pərakəndə bankçılıq, korporativ bankçılıq və kiçik və orta biznes (KOB) maliyyələşdirilməsi üzrə davam etmişdir. Bu prioritet istiqamətlər üzrə inkişaf Bankın bazardakı mövqeyinin möhkəmləndirilməsinə və müştəri ehtiyaclarının daha dolğun qarşılanmasına yönəlmişdir.

3.1. Missiya, Strateji Baxış və Dəyərlərimiz

ATB-nin strateji baxışı peşəkar komandanın fəaliyyəti əsasında müştərilərin tələbatını yüksək sürət və keyfiyyətlə qarşılayan, onlara ünvanlı məhsul və xidmətlər təqdim edən innovativ bank kimi mövqeyini gücləndirməkdədir. Bu baxışa uyğun olaraq Bankın fəaliyyəti yüksək sosial-iqtisadi təsir potensialına malik prioritet istiqamətlərə yönəldilmiş, müştəriyönümlü və dəyər yaradan yanaşmalar əsas götürülmüşdür.

Bank hesabat dövründə öz missiyasına uyğun fəaliyyətini davam etdirərək maraqlı tərəflər üçün uzunmüddətli və dayanıqlı dəyər yaradılmasına yönəlmiş təşəbbüsləri dəstəkləmişdir. Strateji baxış ATB-nin missiyası ilə birbaşa əlaqəlidir və Bankın fəaliyyətində sabitlik, davamlılıq və inkişaf üçün əsas çərçivəni formalaşdırır. **Etibarlı biznes tərəfdaşı kimi ATB-nin missiyası ölkə iqtisadiyyatının real sektorunun maliyyələşdirilməsi və müasir bank texnologiyalarının tətbiqi vasitəsilə operativ və keyfiyyətli xidmətlərin göstərilməsidir.**

Hesabat dövründə bu missiya Bankın əməliyyat fəaliyyətində və strateji qərarvermə proseslərində əsas istiqamətləndirici prinsip kimi tətbiq edilmişdir.

Strateji Baxışımız

Müştəri yönümlü və innovativ bank olmaq

Missiyamız

Ölkə iqtisadiyyatına dəstək və operativ xidmət göstərmək

Mövcud strateji baxışın bir hissəsi kimi 3 əsas strateji məqsəd müəyyənləşdirilmişdir ki, hər biri Bankın fəaliyyətində istiqamətləndirici rol oynayır və missiyanın həyata keçirilməsinə dəstək olur:

Ünvanlı məhsul

Müştəri tələbatına uyğun məhsul və xidmətlərin təklifi ilə müştəri üçün rəqəmsal bankçılıq ekosisteminə çevrilmək.

Satış kanalları

Alternativ satış kanalları vasitəsilə (rəqəmsal bankçılıq) sürətli və fasiləsiz xidmətin tətbiqinə nail olmaqdır.

Əməkdaşlıq

Kiçik və orta sahibkarlıq seqmentinin ən yaxın biznes tərəfdaşına çevrilməkdir.



Dəyərlərimiz

İnnovativlik
Sürətlə dəyişən müştəri tələbatının daha dolğun ödənilməsi üçün müasir bank texnologiyalarını tətbiq etməklə və bank sektorunda yeni tendensiyalar yaratmaqla innovativ məhsul və xidmətlər təklif edirik.

Liderlik
Başladığımız hər bir işdə ən yaxşı olmağa çalışırıq.

Komanda ruhu
Dəqiq və çevik qərar verən, mütərəqqi, müştəri yönümlü düşüncəyə malik peşəkar idarəedici və əməkdaşlardan ibarət güclü komanda ruhuna sahibik.

İşçi məmnuniyyəti
Bankın hər bir əməkdaşının məmnuniyyətini, onların Banka və müştərilərə sadiqliyi üçün sağlam iş mühitini təmin edir, maddi və qeyri-maddi motivasiya sistemini yaradırıq.

Müştəri məmnuniyyəti
Müasir dövrdə daim dəyişən müştəri tələbatının dolğun ödənilməsi üçün multikanallar vasitəsilə yüksək keyfiyyətli və innovativ məhsul və xidmətlərimizi təklif edirik

Dürüstlük
Müştərilərimiz və biznes tərəfdaşlarımızın etimadını dürüst fəaliyyətimizlə doğruldururuq.

Çeviklik
Peşəkar komandamız vasitəsilə texnologiyaların sürətlə inkişaf etdiyi və rəqabətin kəskinləşdiyi bir zamanda müştərilər və tərəfdaşlar ilə bağlı daima düzgün, çevik qərar verir və xidmət göstəririk.

Məsuliyyət
Cəmiyyətdə baş verən mühüm hadisələrə vətəndaşlıq mövqeyimizdən yanaşaraq sosial məsuliyyətimizi dərk edir və bu istiqamətdə fəaliyyət göstəririk.

Bank öz fəaliyyəti ərzində beynəlxalq və yerli çərçivədə bir sıra mükafatlara layiq görülmüşdür. Əldə olunan nailiyyət və mükafatlar Bankın maliyyə sahəsindəki uğuru, sosial məsuliyyət yanaşması və innovativ baxışını əks etdirir.

Hesabat Dövründən Sonrakı Strateji İnkişaf

Hesabat dövrünün başa çatmasından sonra, 2026-cı ilin əvvəlində Bankın **2026–2028-ci illəri əhatə** edən strateji inkişaf planı təsdiqlənmişdir. Yeni strategiya Azərbaycanın iqtisadi prioritetləri və qlobal dayanıqlı maliyyə prinsipləri nəzərə alınmaqla formalaşdırılmışdır. Strategiya çərçivəsində **Bank real iqtisadiyyatın inkişafına töhfə verən, qeyri-neft və ixrac yönümlü sektorları, infrastruktur və yaşıl layihələri dəstəkləyən, risk baxımından ehtiyatlı, rəqəmsal, müştəriyönümlü və şəffaf bank** modelinin gücləndirilməsini hədəfləyir.

Yeni strateji yanaşma Bankın maliyyə dayanıqlığını qorumaqla yanaşı **ətraf mühitin mühafizəsi, sosial məsuliyyət və güclü korporativ idarəetmə** prinsiplərinin biznes fəaliyyətinə daha geniş inteqrasiyasını nəzərdə tutur.

Mükafatlar

Ödəniş kartları üzrə "Ümumi həcmdə ən yüksək artım" nominasiyası üzrə qalib	VISA Beynəlxalq	2023
"Ticarət həcminin ən yüksək artımı" nominasiyası üzrə qalib	VISA Beynəlxalq	2023
"Ümumi əməliyyat həcminin ən yüksək artımına görə" Mükafat	VISA Beynəlxalq	2023
Fintex Sammit – Maliyyə və Texnologiyalar Sərgisi, göstərilən tərəfdaşlıq və dəstəyə görə Mükafat	Azərbaycan Banklar Assosiasiyası (ABA)	2023
"Maliyyə Savadlılığının Dəstəklənməsi" üzrə Mükafat	Azərbaycan Banklar Assosiasiyası (ABA)	2024
"Rəqəmsal ödənişlər sahəsində innovativ layihələrin tətbiqinə görə" Mükafat	Azərbaycan Banklar Assosiasiyası (ABA)	2024
Visa Nağdsız Forumu – "Rəqəmsal Azərbaycan" təşəbbüsünə töhfəyə görə Mükafat	Azərbaycan Banklar Assosiasiyası (ABA)	2024
"Innovation First Award" Mükafatı	VISA Beynəlxalq	2025
"Korporativ sosial məsuliyyət" Mükafatı	Azərbaycan Banklar Assosiasiyası (ABA)	2025
"Beynəlxalq əməkdaşlığın inkişafında fərqlənən bank" Mükafatı	Azərbaycan Banklar Assosiasiyası (ABA)	2025
"Ən fəal təhsil dəstəkçisi" Mükafatı	Azərbaycan Banklar Assosiasiyası (ABA)	2025
"Rəqəmsal ödənişlər sahəsində innovativ layihələrin tətbiqi" Mükafatı	Azərbaycan Banklar Assosiasiyası (ABA)	2025

Reytinqlər


S&P Global Ratings	Uzunmüddətli kredit reytinqi	**B+**
	Qısamüddətli kredit reytinqi	**B**

3.2 ATB-nin Biznes Modeli və Əsas Xidmət Sahələrimiz

Pərakəndə Bankçılıq

ATB **pərakəndə bankçılıq seqmenti üzrə müxtəlif maliyyə məhsul və xidmətlər təqdim etməklə** müştərilərin həm gündəlik əməliyyat ehtiyaclarını, həm də uzunmüddətli maliyyə planlaşdırma məqsədlərini dəstəkləyir. Bankın bu istiqamətdə əsas prioriteti **maliyyə xidmətlərinə inklüziv və bərabər çıxışın təmin edilməsi, müştəri təcrübəsinin davamlı təkmilləşdirilməsi və maliyyə dayanıqlılığının təşviq edilməsidir.**

Xidmətlərin əlçatanlığını və operativliyini artırmaq məqsədilə Bank **çoxkanallı xidmət modelini** tətbiq edir. Bu model **filial şəbəkəsi, ATM-lər, ödəniş və informasiya terminalları,** eləcə də **"atb360" mobil platforması** vasitəsilə həm fiziki, həm də rəqəmsal kanallar üzərindən fasiləsiz xidmət göstərilməsini təmin edir.




Şəkil 2. **Pərakəndə bankçılıq üzrə çoxkanallı xidmət modeli**

Bu yanaşma **xidmət keyfiyyətinin artırılmasına, əməliyyat effektivliyinin yüksəldilməsinə və məsul bankçılıq prinsiplərinin tətbiqinə** xidmət edir.


Pərakəndə bankçılıq seqmenti üzrə təqdim olunan əsas kredit və qeyri-kredit məhsulları aşağıdakılardır:

- **İstehlak kreditləri**
- **İpoteka kreditləri (İKZF)**
- **Daxili ipoteka**
- **Əmanət qarşılığı krediti və kredit kartları**
- **Kredit xətləri (kredit kart)**
- **Avans krediti xətti**
- **Əməkdaşım kreditləri və kredit kartları**
- **Kredit xətləri HYS**
- **Digər fərdi bank xidmətləri**

Hesabat dövründə Bankın aktiv müştəri sayında azalma müşahidə olunmuşdur. Belə ki, 2023-cü ildə 259,885 nəfər təşkil edən aktiv müştəri sayı 2024-cü ildə 233,013 nəfərə, 2025-ci ildə isə 224,642 nəfərə enmişdir. **Bu dəyişiklik əsasən müştəri bazasının optimallaşdırılması, uzun müddət qeyri-aktiv olan müştəri hesablarının təhlili və müştəri məlumat bazasının daha dəqiq idarə olunması istiqamətində həyata keçirilən tədbirlərlə əlaqədar olmuşdur.**



Şəkil 3. **Pərakəndə bankçılıq seqmenti üzrə müştərilərin cəmi sayı**




Şəkil 4. **Pərakəndə bankçılıq seqmenti üzrə kredit portfeli, min AZN**

2023–2025-ci illər ərzində ATB-nin pərakəndə kredit portfeli sabit artım dinamikası nümayiş etdirmişdir. Artım əsasən istehlak kreditləri üzrə satış kampaniyaları və rəqəmsal kanalların genişləndirilməsi ilə dəstəklənmişdir. Eyni zamanda tətbiq olunan risk əsaslı qiymətləndirmə mexanizmləri portfelin keyfiyyətinin qorunmasına və risk-gəlirlilik balansının saxlanılmasına imkan vermişdir.


Pərakəndə kreditləri üzrə portfel də müsbət dinamika göstərmiş, göstərici **234,633 min AZN-dən 331,560 min AZN-ə yüksələrək təxminən 41% artım nümayiş** etdirmişdir. 2025-ci ildə artım tempi daha sabit olsa da, ümumi yüksəliş tendensiyası davam etmişdir.

Hesabat dövründə kredit portfelinin genişlənməsi **risk əsaslı nəzarət çərçivəsi** daxilində həyata keçirilmişdir. 2025-ci ildə **müştəri seqmentasiyası yenilənmiş**, risk qiymətləndirmə modeli təkmilləşdirilmiş, **gəlir dayanıqlılığı və borc yükü göstəriciləri** kredit qərarlarında əsas meyar kimi tətbiq edilmişdir. Yüksək riskli seqmentlər üzrə limit siyasəti daha ehtiyatlı şəkildə formalaşdırılmış, maliyyə göstəriciləri stabil olan müştərilər üçün isə daha çevik kredit şərtləri müəyyən edilmişdir.

Bu yanaşma kredit portfelinin davamlı artımını təmin etməklə yanaşı, onun keyfiyyət göstəricilərinin qorunmasına xidmət etmişdir.



Şəkil 5. **Pərakəndə kreditləşmədə risk əsaslı yanaşma**




Şəkil 6. **İpoteka kreditləri üzrə portfelin dinamikası, min AZN**

"atb360" mobil tətbiqi

Hesabat dövründə "atb360" mobil tətbiqinin istifadəçi bazasında dəyişiklik müşahidə edilmişdir. 2023-cü ildə mobil tətbiq istifadəçilərinin sayı 188,736 nəfər təşkil etdiyi halda, bu göstərici 2024-cü ildə 226,893 nəfərə yüksəlmişdir. 2025-ci ildə isə istifadəçi sayı 188,734 nəfər olmuşdur. Göstəricilərdəki dəyişikliklər Bankın rəqəmsal kanallardan istifadə dinamikası, müştəri davranışları və xidmətlərdən istifadə səviyyəsi ilə əlaqəli olmuşdur.

2025-ci ildə tətbiqin funksional imkanları daha da genişləndirilmişdir. **Ödəniş alətləri təkmilləşdirilmiş,** əməliyyat təhlükəsizliyi **gücləndirilmiş autentifikasiya mexanizmləri (SIM imza və digər identifikasiya alətləri)** vasitəsilə artırılmışdır. Bu çərçivədə **onlayn kreditlərin tam rəqəmsal formada rəsmiləşdirilməsi** mümkün olmuşdur.

Bundan əlavə, mobil tətbiq üzərindən **Premium kartların onlayn sifarişi** və **arayışların elektron formada təqdim edilməsi** funksionallığı istifadəyə verilmişdir. Sözügedən yeniliklər **müştəri təcrübəsinin yaxşılaşdırılmasına, filial əməliyyat yükünün azaldılmasına** və **kağızsız əməliyyatların genişləndirilməsinə** töhfə vermişdir.



Pərakəndə kreditləri və rəqəmsal kart məhsulları üzrə təşəbbüslər

2025-ci ildə kredit portfelinin davamlı artımını təmin etmək məqsədilə pərakəndə kreditləri üzrə satış **strategiyası gücləndirilmiş, kampaniya mexanizmləri yenidən nəzərdən keçirilmiş və kredit qiymətləndirmə prosesləri optimallaşdırılmışdır.** Tətbiq olunan dəyişikliklər satış effektivliyinin artırılması ilə yanaşı, risk əsaslı yanaşmanın gücləndirilməsinə yönəlmişdir.

Eyni zamanda, 2025-ci ildən etibarən ödəniş kartlarının virtual formada satışı tətbiq edilmişdir. Bu təşəbbüs rəqəmsal bankçılıq ekosisteminin genişləndirilməsi, nağdsız ödənişlərin təşviqi və əməliyyat təhlükəsizliyinin gücləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır və rəqəmsal müştəri bazasının inkişafına töhfə verir.

2025-ci il üzrə əsas hədəf və prioritet istiqamətlər:



Şəkil 7. **2025-ci il üzrə strateji prioritetlər**

2025-ci ildə Pərakəndə Bankçılıq Departamentinin fəaliyyət istiqamətləri rəqəmsallaşmanın genişləndirilməsi, istehlak kreditləri üzrə satışların artırılması, virtual ödəniş kartlarının tətbiqi və ESG yönümlü imkanların qiymətləndirilməsi üzrə araşdırmaların aparılması ətrafında formalaşmışdır. Sözügedən prioritetlər bazar dinamikası, müştəri davranışları və Bankın strateji inkişaf çərçivəsi nəzərə alınmaqla müəyyən edilmişdir.

Hesabat dövründə rəqəmsal bankçılıq xidmətlərinin funksionallığı da genişləndirilmiş, əməliyyat proseslərinin avtomatlaşdırılması istiqamətində tədbirlər həyata keçirilmişdir. Məhsul və xidmətlərin təkmilləşdirilməsi prosesi daha çevik idarəetmə modeli əsasında təşkil edilmiş, dəyişikliklərin izlənməsi və koordinasiyası Jira platforması vasitəsilə həyata keçirilmişdir.

Mobil tətbiq üzərindən kreditlərin onlayn rəsmiləşdirilməsi, arayışların elektron təqdim edilməsi və məsafədən identifikasiya mexanizmlərinin genişləndirilməsi tətbiq edilmişdir. Eyni zamanda, videozəng vasitəsilə kart satışına başlanılıb.

Bununla yanaşı, bazar araşdırmalarına əsaslanan məlumat əsaslı onlayn satış modelinin tətbiqinə start verilmişdir. Model rəqəmsal kanallar vasitəsilə satışın artırılmasına və qərar qəbuletmə prosesinin analitik əsasda qurulmasına yönəlmişdir.

Büdcə planlaşdırılması və strateji yanaşma

2025-ci ildə Pərakəndə Bankçılıq Departamentində büdcə planlaşdırılması prosesi **ssenari əsaslı və risk yönümlü model** əsasında həyata keçirilmişdir. Büdcə planlaması mühafizəkar, baza və optimist inkişaf ssenariləri üzrə hazırlanmış, makroiqtisadi göstəricilər, bazar dəyişkənliyi, kredit portfelinin artım dinamikası və əsas risk indikatorları nəzərə alınmışdır.

Planlaşdırma prosesi Bankın **Risk İştahası Bəyannaməsi** və strateji prioritetləri ilə uyğunlaşdırılmışdır. Bu çərçivədə portfelin dayanıqlı artımı ilə risklərin idarə olunması arasında balansın qorunması əsas prinsip kimi müəyyən edilmişdir.

Hesabatlılıq mexanizmlərinin təkmilləşdirilməsi nəticəsində rəhbərliyə təqdim olunan analitik hesabatların strukturu və tezliyi artırılmış, qərar qəbuletmə prosesində şəffaflıq və məlumat əsaslı yanaşma gücləndirilmişdir.

ATB Card, Card Kredit və Card Premium



ATB Card – gündəlik ödənişlər üçün nəzərdə tutulmuş debet kartıdır. Kart istifadəçiləri partnyor şəbəkəsində alış-veriş zamanı keşbek imkanı əldə edir, həmçinin kart balansını komissiyasız artırmaq və təmassız ödəniş funksiyalarından istifadə etmək imkanı əldə edirlər.

ATB Card Kredit – müştərilərə əvvəlcədən müəyyən edilmiş kredit limiti çərçivəsində alış-veriş və ödəniş imkanları təqdim edən kredit kartıdır. Kart üzrə xərclərə görə keşbek imkanı, faizsiz güzəşt müddəti və təhlükəsiz onlayn əməliyyat imkanları mövcuddur.



ATB Card Premium – daha yüksək limitlər, geniş keşbek imkanı və əlavə üstünlüklər təqdim edən premium səviyyəli kart məhsuludur. Kart sahiblərinə xüsusi tərəfdaşlarda eksklüziv şərtlərlə alış-veriş, prioritet xidmət və təkmilləşdirilmiş təhlükəsizlik funksiyaları təklif olunur.



ATB Junior kartı 6–16 yaşlı uşaqlar üçün nəzərdə tutulmuş debet kartıdır və valideyn nəzarəti mexanizmi ilə idarə olunur. Kart üzrə **yüksək keşbek imkanları,** komissiyasız balans artırma və nağdlaşdırma, **Apple Pay və Google Pay inteqrasiyası,** eləcə də **illik 6% gəlir imkanı** təqdim edilir. Valideynlər əməliyyatlara təsdiq kodu vasitəsilə nəzarət edə bilir, kart isə **5 illik müddətə və ödənişsiz onlayn sifariş** əsasında təqdim olunur. Bu məhsul maliyyə savadlılığının təşviqi və gənc müştəri seqmentinə erkən inteqrasiya məqsədi daşıyır.

Kart məhsulları üzrə dinamika


2023–2025-ci illər ərzində Bankın kart məhsulları üzrə müştəri bazasında **selektiv və seqmentləşdirilmiş artım** müşahidə edilmişdir. Əsas debet və hədəfli kart məhsulları üzrə davamlı genişlənmə qeydə alınmışdır.

Hesabat dövründə:

- **"atb kart"** üzrə istifadəçi sayı təxminən **95% artaraq 134,110 nəfərə** çatmışdır;
- **"atb kart premium"** üzrə müştəri bazası **2 dəfədən çox artaraq 1,637 nəfər** təşkil etmişdir;
- Ən yüksək artım tempi **"atb junior"** məhsulu üzrə qeydə alınmış, istifadəçi sayı **2,6 dəfə artaraq 4,832 nəfərə** yüksəlmişdir.

Eyni zamanda **"atb kart kredit"** məhsulu üzrə istifadəçi sayında azalma müşahidə edilmiş və 2025-ci ildə göstərici **170 nəfər** təşkil etmişdir. Bu dinamika kredit portfelinin optimallaşdırılması, risk əsaslı yanaşmanın gücləndirilməsi və məhsul strukturunda aparılmış dəyişikliklərlə əlaqələndirilir.

Bu nəticələr Bankın kart məhsulları üzrə strategiyasının seqment əsaslı və risk balanslı şəkildə həyata keçirildiyini göstərir.



Şəkil 8. **Növlər üzrə kart istifadəçilərinin sayı**

ATB keşbek

atb Keşbek debet və kredit kart sahibləri üçün nəzərdə tutulmuş loyallıq proqramıdır və nağdsız ödənişlərin təşviqinə yönəlmişdir. Proqram çərçivəsində müştərilər yanacaqdoldurma, onlayn alış-veriş, geyim, elektronika, kafe və restoran, təhsil və tibb xidmətləri üzrə əməliyyatlar zamanı **3%-dək,** partnyor şəbəkəsində isə **30%-dək** keşbek əldə edə bilirlər.

Hesabat dövrünün sonuna proqramda **200-dən çox brend** və **230-dan artıq satış nöqtəsi** iştirak etmişdir. Proqramın tətbiqi müştəri loyallığının artırılmasına, nağdsız ödənişlərin genişlənməsinə və kart məhsulları üzrə istifadə intensivliyinin yüksəldilməsinə xidmət etmişdir.

İpoteka xidmətləri

Azər-Türk Bank, mənzil əldə etmək istəyən müştərilərinə üç əsas ipoteka məhsulu təqdim edir:

Standart ipoteka krediti:

Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına təqdim olunur. Bu kreditlər yaşayış sahələrinin alınması üçün nəzərdə tutulmuşdur və müəyyən edilmiş şərtlərlə verilir.

Güzəştli ipoteka krediti:

Sosial həssas əhali qruplarına yönəldilmişdir və daha sərfəli şərtlərlə təqdim olunur. İpoteka və Kredit Zəmanət Fondu tərəfindən maliyyələşdirilir.

"MİDA" xətti ilə güzəştli ipoteka:

Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) ilə əməkdaşlıq çərçivəsində təqdim olunur. Bu kreditlər MİDA tərəfindən inşa edilmiş mənzillərin əldə edilməsi üçün nəzərdə tutulmuşdur və xüsusi şərtlərlə verilir.

KOB və Korporativ Bankçılıq

“Azər-Türk Bank” ASC kiçik və orta biznes **(KOB)** subyektlərinin və **korporativ müştərilərin maliyyə ehtiyaclarının qarşılanmasını** Bankın **əsas strateji fəaliyyət istiqamətlərindən biri** kimi davam etdirir. Hesabat dövründə ATB **real sektorun maliyyə əlçatanlığının artırılması, biznes subyektlərinin maliyyə dayanıqlığının qorunması** və **uzunmüddətli tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi** məqsədilə **KOB və Korporativ bankçılıq fəaliyyətini** ardıcıl şəkildə həyata keçirmişdir.

Hesabat dövrü ərzində Bank **kreditləşmə, hesablaşma-kassa xidmətləri, kart məhsulları, depozitlər və məsafəli bankçılıq həlləri** daxil olmaqla müxtəlif **maliyyə xidmətləri** təqdim etmişdir. Məhsul və xidmətlərin tətbiqində **müştərilərin fəaliyyət xüsusiyyətləri və risk profili nəzərə alınmış, eyni zamanda risklərin məsuliyyətli və ehtiyatlı idarə olunması prinsipləri** əsas götürülmüşdür.

2023–2025-ci illər ərzində Bank **real sektorun maliyyələşdirilməsini dəstəkləməklə yanaşı,** kredit portfelinin **balanslaşdırılmış inkişafını** təmin etmiş **və müştəri münasibətlərini uzunmüddətli əsasda** inkişaf etdirmişdir. Bununla yanaşı, **Bank biznes müştərilərinin fəaliyyətinin ekoloji və sosial təsirlərinin nəzərə alınmasına yönəlmiş maliyyələşdirmə yanaşmalarının tətbiqinə** başlamışdır.

2025-ci ildə Bankın beynəlxalq maliyyə institutları ilə əməkdaşlığı da genişlənmişdir. 10 sentyabr 2025-ci il tarixində **“Azər-Türk Bank” ASC ilə Qara Dəniz Ticarət və İnkişaf Bankı (BSTDB)** arasında **8,5 milyon manat məbləğində kredit sazişi** imzalanmışdır. Sözügedən kredit xətti **kiçik və orta sahibkarlığın maliyyələşdirilməsinə** yönəldilmişdir.

Saziş çərçivəsində əldə olunmuş vəsaitlərin **istehsal, xidmət, kənd təsərrüfatı və digər real sektor sahələrində fəaliyyət göstərən KOB subyektlərinə təkrar kreditlər şəklində təqdim edilməsi** nəzərdə tutulur. Bu təşəbbüs **sahibkarların investisiya imkanlarının genişləndirilməsinə,** eləcə də **Azərbaycanın özəl sektorunun inkişafına dəstək verilməsinə** xidmət edir.

Eyni zamanda, **2025-ci ildə Bank tərəfindən “Yaşıl Biznes” maliyyə** məhsulu təqdim edilmişdir. Məhsul ekoloji təsirin azaldılmasına, resurslardan səmərəli istifadənin təşviqinə və real sektorun dayanıqlı transformasiyasına töhfə verən layihələrin maliyyələşdirilməsinə yönəldilmişdir. Bu təşəbbüs ATB-nin dayanıqlı maliyyə yanaşmalarının praktik tətbiqinə doğru atdığı mühüm addımlardan biri kimi qiymətləndirilir.

Hazırda Bank yaşıl maliyyə portfelinin formalaşdırılması və ölçülməsi istiqamətində işləri davam etdirir. Müvafiq metodologiya və təsnifat yanaşmaları üzrə proseslər tamamlandıqdan sonra yaşıl **kredit portfeli üzrə göstəricilərin növbəti hesabat dövrlərində açıqlanması nəzərdə tutulur.**

KOB və Korporativ seqmentləri üzrə təqdim olunan əsas maliyyə məhsul və xidmətləri aşağıdakılardır:



Şəkil 9. **Əsas biznes istiqamətləri üzrə məhsul və xidmətlər**

Dayanıqlı maliyyə yönümlü xidmətlər

ATB-nin rəqəmsal bank xidmətləri biznes müştərilərə vaxt və resurslara qənaət etməyə, maliyyə əməliyyatlarını isə daha effektiv və nəzarətli şəkildə idarə etməyə imkan verir. "ATB Business" internet-bankçılıq platforması sayəsində müştərilər bank hesablarına 24/7 rejimində çıxış əldə edir, ödəniş tapşırıqları, hesablararası köçürmələr, vergi və gömrük ödənişləri, valyuta əməliyyatları və digər əsas maliyyə funksiyalarını rahatlıqla icra edə bilirlər. Bununla yanaşı, POS terminalları, e-commerce həlləri və elektron sənəd dövriyyəsi kimi rəqəmsal alətlər müştərilərin gündəlik əməliyyatlarını avtomatlaşdırmağa və prosesləri daha şəffaf şəkildə təşkil etməyə şərait yaradır.


Müştəri rahatlığını ön planda tutaraq, ATB bir sıra onlayn xidmətlər də təqdim edir. Buraya onlayn hesab açılması, vergi ilə bağlı ödənişsiz məsləhət xidməti və güzəştli mühasibatlıq dəstəyi daxildir. **Bu imkanlar "ATB Hub" platforması üzərindən təqdim olunur və müştərilərə banka gəlmədən, məsafədən və sürətli şəkildə bankla birtərəfli və qarşılıqlı sənəd mübadiləsi və imzalanması kimi əməliyyatları yerinə yetirməyə şərait yaradır.**

Eyni zamanda, ATB Korporativ və KOB müştərilər üçün ənənəvi bank xidmətlərini də təqdim etməkdə davam edir. Bu xidmətlərə valyuta mübadiləsi əməliyyatları, kassa-hesablaşma xidmətləri, inkassasiya, POS-ekvayrinq və smart kassa həlləri, mədaxil və məxaric terminalları, həmçinin yararsız pul vəsaitlərinin qəbulu da daxildir.

ATB bir sıra dövlət qurumları ilə əməkdaşlıq çərçivəsində müxtəlif maliyyə alətləri təklif edir. Bu çərçivədə **Azərbaycan Biznesin İnkişafı Fondu, İpoteka və Kredit Zəmanət Fondu, eləcə də Aqrar Kredit və İnkişaf Agentliyi** ilə birgə hazırlanmış kredit məhsulları vasitəsilə faiz subsidiyası və zəmanət mexanizmləri tətbiq olunur. İşğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən sahibkarlar üçün xüsusi şərtlər də nəzərdə tutulub.


Müştəri Bazası

2023–2025-ci illər ərzində Bank real sektorun maliyyələşdirilməsi, sahibkarlığın inkişafının dəstəklənməsi və müştəri portfelinin şaxələndirilməsi istiqamətində ardıcıl strateji yanaşma həyata keçirmişdir.



Şəkil 10. **Korporativ və KOB müştərilərinin cəmi sayı**


2025-ci ildə Bankın KOB seqmentində müştəri bazasının genişləndirilməsi davam etmişdir. KOB müştərilərinin sayı 2023-cü ildə 8,712-dən 2024-cü ildə 12,041-ə, 2025-ci ildə isə 15,372-yə yüksəlmişdir. Bu, iki il ərzində KOB müştəri bazasının 76%-dən çox artdığını göstərir. Korporativ müştərilərin sayı isə dövr ərzində nisbətən sabit qalaraq 156–179 aralığında dəyişmişdir.



Şəkil 11. **Korporativ və KOB seqmentləri üzrə kredit portfelinin bölgüsü, mln AZN**

2023–2025-ci illər ərzində ATB-nin korporativ və KOB seqmentləri üzrə kredit portfelinin strukturunda **əhəmiyyətli genişlənmə və artım dinamikası** müşahidə olunmuşdur. 2023-cü ildə korporativ seqment üzrə kredit portfeli **28.3 mln AZN,** KOB seqmenti üzrə isə **15.6 mln AZN** təşkil etmişdir. 2025-ci ildə isə korporativ seqment üzrə kredit portfeli **217.6 mln AZN**-ə yüksəlmişdir ki, bu da 2023-cü illə müqayisədə təxminən 669% artım deməkdir.


Eyni dövrdə KOB seqmenti üzrə kredit portfeli **15.6 mln AZN-dən 34.9 mln AZN-ə** yüksələrək təxminən 124% artım nümayiş etdirmişdir. Bu dinamika bankın **real sektorun maliyyələşdirilməsi, xüsusilə kiçik və orta sahibkarlığın dəstəklənməsi istiqamətində həyata keçirdiyi kredit siyasətinin genişlənməsini** əks etdirir.



Şəkil 12. **Korporativ və KOB seqmentləri üzrə borcalanların sayı**


2023–2025-ci illər ərzində ATB-nin **korporativ və KOB seqmentləri üzrə borcalan bazasında müsbət artım dinamikası** müşahidə olunmuşdur. 2023-cü ildə korporativ seqment üzrə borcalanların sayı **70** olduğu halda, 2024-cü ildə **71**, 2025-ci ildə isə **83**-ə yüksəlmişdir. Beləliklə, hesabat dövründə bu seqment üzrə borcalanların sayı **təxminən 19% artım** nümayiş etdirmişdir.

Eyni dövrdə **KOB seqmenti üzrə borcalanların sayı** daha sürətli artım göstərmişdir. 2023-cü ildə **423** olan borcalanların sayı 2024-cü ildə **554**, 2025-ci ildə isə **633**-ə çatmışdır. Nəticədə, 2023-cü illə müqayisədə 2025-ci ildə bu seqment üzrə borcalanların sayı **təxminən 50% artmışdır.**



Şəkil 13. **Ticarətin maliyyələşdirilməsi üzrə göstəricilər, mln AZN**

2023–2025-ci illər ərzində ATB-nin ticarətin maliyyələşdirilməsi üzrə fəaliyyətində **KOB seqmenti üzrə əhəmiyyətli artım** müşahidə olunmuşdur. KOB üzrə göstərici 2023-cü ildə 11.5 olduğu halda, 2025-ci ildə **22.18**-ə yüksələrək **təxminən 93% artım** nümayiş etdirmişdir. Korporativ seqment üzrə göstəricilər isə **nisbətən sabit** qalaraq 2023-cü ildə **40.7**, 2025-ci ildə isə **37.1** təşkil etmişdir. Bu dinamika bankın **sahibkarlığın maliyyələşdirilməsi və real sektorun dəstəklənməsi istiqamətində fəaliyyətini** əks etdirir.




Şəkil 14. **Əməkhaqqı və "Sahibkar" kartları istifadəçiləri sayı**

2023–2025-ci illər ərzində ATB-də **aktiv əməkhaqqı və "Sahibkar" kartlarının sayında davamlı artım** müşahidə olunmuşdur. Aktiv əməkhaqqı kartlarının sayı 2023-cü ildə **33,249** olduğu halda, 2025-ci ildə **50,644**-ə yüksələrək **təxminən 52%** artım nümayiş etdirmişdir. Eyni dövrdə **"Sahibkar" kartı istifadəçilərinin sayı 2,896-dan 6,643-ə** yüksələrək **təxminən 129% artmışdır.**

“ATB Business” internet bankçılıq

2023–2025-ci illər ərzində ATB-nin “ATB Business” internet bankçılıq platforması üzrə istifadəçi sayında davamlı artım müşahidə olunmuşdur. Platformaya qoşulan istifadəçilərin sayı 2023-cü ildə 7,795 olduğu halda, 2024-cü ildə 11,860, 2025-ci ildə isə 18,026-ya yüksəlmişdir. Beləliklə, 2023-cü illə müqayisədə 2025-ci ildə istifadəçi sayı təxminən 131% artım nümayiş etdirmişdir.



Şəkil 15. **“ATB Business” istifadəçiləri sayı**



3.3 İnnovasiya və Rəqəmsal Transformasiya

2025-ci ildə rəqəmsal transformasiya fəaliyyəti əvvəlki illərdə formalaşdırılmış yanaşmalar üzərində **davam etdirilmiş və funksional baxımdan genişləndirilmişdir.** Bu mərhələdə əsas diqqət fiziki bank xidmətlərinin məsafəli kanallara transformasiyasının davam etdirilməsinə, mövcud rəqəmsal məhsulların imkanlarının artırılmasına və Bankın rəqəmsal ekosisteminin mərhələli şəkildə inkişafına yönəldilmişdir.

Hesabat ilində **atb360 platformasında kredit sifarişi funksiyası istifadəyə verilmiş,** problemli kreditlərin idarə olunması üzrə ayrıca modul yaradılmış, həmçinin açıq bankçılıq **layihəsinin birinci mərhələsi icra edilmişdir.** Qeyd olunan təşəbbüslər bank xidmətlərinə çıxışın çevikliyinin artırılmasına, proseslərin daha şəffaf şəkildə idarə olunmasına və məsafəli bankçılıq imkanlarının genişləndirilməsinə xidmət etmişdir.

Müştəri təcrübəsinin ölçülməsi və davamlı təkmilləşdirilməsi məqsədilə 2025-ci ildə atb360 tətbiqində **müştəri rəyinin toplanması üçün anket funksionallığı tətbiq edilmiş,** bank terminallarının yerləşməsi isə istifadə intensivliyi və müştəri ehtiyacları nəzərə alınmaqla optimallaşdırılmışdır. Bu addımlar əvvəlki illərdə formalaşdırılmış müştəriyönümlü rəqəmsal xidmət modelinin **ardıcıl davamı** kimi həyata keçirilmişdir.



Rəqəmsal Transformasiya Mərkəzi

Rəqəmsal transformasiyanın institusional şəkildə idarə olunması məqsədilə ATB-də fəaliyyət göstərən **Rəqəmsal Transformasiya Mərkəzi** 2023–2024-cü illər ərzində rəqəmsal məhsulların hazırlanması və mövcud xidmətlərin optimallaşdırılması üzrə əsas icraedici funksiyaları həyata keçirmişdir.

2025-ci ildə Mərkəzin fəaliyyəti çərçivəsində **struktur və funksional təkmilləşdirmələr aparılmış,** "Müştəri təcrübəsinin tətbiqi" üzrə fəaliyyət göstərən struktur yeni tələblərə uyğun olaraq yenidən formalaşdırılmışdır. Eyni zamanda investisiya funksionallığının yaradılması Mərkəzin fəaliyyətində **yeni fokus istiqaməti** kimi müəyyən edilmişdir.

Bankın rəqəmsal və **İT infrastrukturunun dayanıqlığının artırılması məqsədilə 2025-ci ildə İT və məlumat bazası aktivlərinin mərkəzləşdirilmiş uçotu və nəzarəti üzrə yeni yanaşmalar tətbiq edilmiş,** server infrastrukturu yenilənmiş, ehtiyat nüsxələmə və bərpa mexanizmləri təkmilləşdirilmişdir. Görülən tədbirlər sistemlərin davamlılığının artırılmasına və informasiya təhlükəsizliyinin gücləndirilməsinə yönəldilmişdir.

Rəqəmsal transformasiya təşəbbüslərinin səmərəliliyinin qiymətləndirilməsi məqsədilə 2025-ci ildə aidiyyəti struktur bölmələr üçün **hesabatlılıq mexanizmləri formalaşdırılmış,** layihələrin icra vəziyyətinin izlənməsi gücləndirilmişdir. Bununla yanaşı, əməkdaşların rəqəmsal bacarıqlarının artırılması məqsədilə daxili təlimlər təşkil edilmiş, beynəlxalq onlayn təlim platformalarına çıxış təmin olunmuşdur.

2025-ci ildə yerli fintex və texnoloji şirkətlərlə **rəqəmsal inteqrasiya layihələri həyata keçirilmiş,** Rəqəmsal Transformasiya Mərkəzinin digər struktur bölmələrlə koordinasiya və kommunikasiya mexanizmləri optimallaşdırılmış, müraciətlərin icra müddətləri azaldılmışdır.

Bununla yanaşı, 2025-ci ildə süni intellekt və analitika texnologiyalarının tətbiqi üzrə **yeni mərhələyə keçid edilmiş,** kredit skorinq modelinin yaradılması üzrə ilkin işlərə başlanmış, həmçinin süni intellekt alətlərinin Rəqəmsal Transformasiya Mərkəzində tətbiq sahələrinin müəyyən edilməsi üzrə ilkin araşdırmalar aparılmışdır. Bu təşəbbüslər növbəti dövrlərdə risklərin daha dəqiq qiymətləndirilməsi və qərarvermə proseslərinin təkmilləşdirilməsi üçün **əsas baza** rolunu oynayır.



Şəkil 16. **Rəqəmsal Transformasiya Mərkəzinin daxilindəki şöbələr**

Mərkəzin fəaliyyəti çərçivəsində mobil və internet bankçılıq sistemlərində bir sıra funksionallıq yaradılmış, banklararası ödəniş sistemi və digər köçürmə sistemlərinin yeni formata keçirilməsi tamamlanmışdır.

Təşkilati strukturun optimallaşdırılması

- 2023-cü ildə İnformasiya Təhlükəsizliyi Mərkəzi yaradılmışdır.
- Rəqəmsal Transformasiya Mərkəzində keyfiyyətə nəzarət və testləşdirmə tətbiq olunmuşdur.
- Əməliyyatlar və hesabatlar avtomatlaşdırılmışdır.
- Terminallarla iş şöbələri açılmışdır.
- Rəqəmsal məhsullar üzrə yeni şöbə yaradılmışdır.

Xidmət şəbəkəsinin yenidən təşkili

- 2023-cü ildə Bank rəqəmsal modelə keçmişdir.
- KOB xidmətləri üçün yeni Rəqəmsal filiallar açılmışdır.

Brendin yenilənməsi

- Bankın rəsmi veb-səhifəsi 2019 və 2023-cü illərdə müasir tələblərə və standartlara uyğunlaşdırılaraq yenilənmişdir.

Məsafəli kanalların inkişafı

- Kredit limiti, card-to-card, Dark mode və VISA abunəlikləri planlaşdırılır.
- atb360 ilə BakıKart üzrə QR ödəniş funksiyası yaradılır.
- Korporativ bankçılıqda SWIFT/KQB, kart, avans, POS və "ƏDV geri al" funksiyaları əlavə olunub.
- Əməkhaqqı, e-commerce, MT202, GPI və smart-kassa funksiyaları tətbiq edilib.
- 2025-də "atb Business Mobile" hüquqi şəxslər üçün təqdim olunub.
- 2023-dən məsafədən hesab açma və video identifikasiya mümkündür.

Biznes proseslərin avtomatlaşdırılması

- Akkreditivlər, valyuta əməliyyatları, API ilə çıxarışların təqdim edilməsi.
- Sərəncam və vərəsəlik məlumatlarının ötürülməsi.
- DVX, DVM, Elektron notariat, VÖEN, QDŞ və sığorta məlumatlarının inteqrasiyası.
- Hesabatlar üçün avtomatlaşdırılmış məlumat axını.
- Xarici köçürmə məlumatlarının avtomatik ötürülməsi.
- Paşa, Atəşgah və Mega Sığorta ilə kredit sığortasının inteqrasiyası.

İT infrastrukturunun müasirləşdirilməsi

- PROD DB-nin SSD-yə keçirilməsi.
- 3DS1/3DS2 texnologiyalarının tətbiqi.
- OSSEC, Reverse Proxy və iki autentifikasiya serveri.
- Virtual serverlərin domenə qoşulması.
- SWIFT Microgateway və RMA keçidi.
- PRTG monitorinq sisteminin yenilənməsi.
- Oracle versiya artırılması.
- Yeni filiallar üçün avadanlıq və kompüterlər.
- Yeni storage, firewall və print serverlər.
- Wazuh agentlərinin sistemlərə yüklənməsi.

Şəkil 17. **2023–2025-ci illər ərzində rəqəmsal transformasiya istiqamətində görülmüş işlər**

ATB Prosessinq Mərkəzi

Prosessinq Mərkəzi Bankın baş ofisinin struktur bölməsi olaraq ödəniş kartları vasitəsilə həyata keçirilən əməliyyatların fasiləsiz, təhlükəsiz və effektiv emalını təmin edir. **Mərkəz Azərbaycan Respublikasının qanunvericiliyi, Mərkəzi Bankın** normativ tələbləri və beynəlxalq ödəniş sistemlərinin qaydaları əsasında fəaliyyət göstərir.

Mərkəzin əsas funksiyalarına kart əməliyyatlarının prosessinqi, kart emissiyası və personalizasiyası, **ATM və POS şəbəkəsinin idarə olunması, elektron kommersiya (e-commerce) xidmətlərinin texniki təminatı, həmçinin beynəlxalq ödəniş sistemləri ilə qarşılıqlı hesabatlılıq daxildir.** Şübhəli əməliyyatların monitorinqi və fraud hallarının qarşısının alınması məqsədilə mütəmadi nəzarət mexanizmləri tətbiq olunur.

Rəqəmsal həllər və informasiya texnologiyaları istiqamətində proqram təminatının fasiləsiz və təhlükəsiz fəaliyyəti təmin edilir, sistem nasazlıqları operativ aradan qaldırılır və yeni məhsul və xidmətlərin texniki inteqrasiyası həyata keçirilir. Eyni zamanda, ekvayrinq şəbəkəsinin genişləndirilməsi və nağdsız ödənişlərin təşviqi istiqamətində tədbirlər görülür.


Prosessinq Mərkəzi fəaliyyət nəticələri barədə mütəmadi olaraq **İdarə Heyətinə, Mərkəzi Banka və beynəlxalq ödəniş sistemlərinə hesabatlar** təqdim edir. Bu yanaşma Bankın əməliyyat dayanıqlılığının, risklərin idarə olunmasının və rəqəmsal maliyyə xidmətlərinin inkişafının təmin edilməsinə xidmət edir.

Əməliyyat Təhlükəsizliyi və Nəzarət Mexanizmləri

2024-cü ildə Prosessinq Mərkəzi PCI DSS v4.0.1 standartına uyğunluq sertifikatı əldə etmişdir. Bu uyğunluq kart əməliyyatları üzrə məlumatların qorunması və tranzaksiya təhlükəsizliyinin beynəlxalq tələblərə uyğun şəkildə təmin edilməsini təsdiq edir.

Kart əməliyyatları üzrə nəzarət mexanizmləri və antifraud yanaşmaları risk əsaslı model çərçivəsində həyata keçirilir. **2025-ci il ərzində real vaxt monitorinqi gücləndirilmiş, şübhəli əməliyyatların erkən aşkarlanması imkanları genişləndirilmişdir.**

Qlobal maliyyə mühitində müşahidə olunan yeni risk tendensiyaları, o cümlədən rəqəmsal kanallar vasitəsilə **"deep fake"** üsulları ilə həyata keçirilə bilən dələduzluq halları və xarici valyutada saxta əskinaz riskləri nəzərə alınmış, müvafiq nəzarət və maarifləndirmə tədbirləri gücləndirilmişdir.



Şəkil 18. **Rəqəmsal Ödəniş və Kart İnfrastrukturunun İnkişafı**

İnkişaf və İnfrastrukturun Gücləndirilməsi

Hesabat dövrü ərzində Prosessinq Mərkəzinin əməliyyat dayanıqlığının və fasiləsiz xidmət göstərmə qabiliyyətinin artırılması məqsədilə təşkilati və infrastruktur səviyyəsində bir sıra tədbirlər həyata keçirilmişdir. Əməliyyat proseslərinin effektivliyinin yüksəldilməsi üçün **aparıcı operator vəzifəsi üzrə yeni şəti vahidi yaradılmış,** təhlükəsizlik və fiziki mühafizənin gücləndirilməsi məqsədilə əlavə **mühafizə əməkdaşları cəlb edilmişdir.** Eyni zamanda, əməliyyat proseslərinin optimallaşdırılması məqsədilə bir sıra proseslər üzrə avtomatlaşdırma işləri həyata keçirilmiş, **manual müdaxilə tələb edən mərhələlərin azaldılması və əməliyyat sürətinin artırılması təmin edilmişdir.**

Bununla yanaşı, sorğu, məlumatlandırma və hesabatlılıq proseslərinin idarə olunması məqsədilə müvafiq əməliyyat axınları Jira sistemi üzərindən təşkil edilmişdir. Bu yanaşma daxili nəzarət mexanizmlərinin gücləndirilməsinə, tapşırıqların izlənilə bilməsinə və hesabatlılıq prosesində şəffaflığın artırılmasına imkan yaratmışdır.

Eyni zamanda, əməliyyatların daha təhlükəsiz və müasir infrastrukturda həyata keçirilməsi məqsədilə Prosessinq Mərkəzi **yeni ofis məkanına köçürülmüşdür.** Yeni məkan informasiya təhlükəsizliyi, fiziki təhlükəsizlik və əməliyyat davamlılığı baxımından daha yüksək standartlara cavab verir və Bankın rəqəmsal inkişaf strategiyasına uyğun olaraq fəaliyyətin səmərəliliyini artırır.

2025-ci il üzrə Rəqəmsal Strateji Təşəbbüslər


2025-ci ildə Prosessinq Mərkəzinin əməliyyat fokusunda əvvəlki dövrlərlə müqayisədə bir sıra yeni strateji istiqamətlər müəyyən edilmişdir.

Hesabat ilində **UnionPay beynəlxalq ödəniş sistemi** üzrə inteqrasiya işləri həyata keçirilmiş və Çin banklarına məxsus UnionPay kartlarının ATB-nin ATM və POS şəbəkəsində qəbulu təmin edilmişdir. Bu addım Bankın beynəlxalq kart şəbəkələri ilə əməkdaşlığının genişləndirilməsinə və xarici vətəndaşlar üçün ödəniş imkanlarının artırılmasına xidmət edir.

Eyni zamanda, aqreqator modeli çərçivəsində yeni tərəfdaşlıqlar qurulmuş, xüsusilə **notariat xidmətləri üzrə ödənişlərin qəbulu vasitəsilə yeni ekvayer müştərilərinin cəlb edilməsi təmin edilmişdir.** Bu yanaşma Bankın ekvayrinq portfelinin genişlənməsinə və nağdsız ödəniş ekosistemində iştirak payının artırılmasına töhfə vermişdir.

Bundan əlavə, nağdsız ödənişlərin ictimai infrastrukturda tətbiqinin genişləndirilməsi məqsədilə **"İçərişəhər" parkinq layihəsi** çərçivəsində inteqrasiya işləri aparılmışdır. Layihə şəhər daxilində rəqəmsal ödəniş imkanlarının artırılmasına, ödəniş proseslərinin sürətləndirilməsinə və müasir ödəniş ekosisteminin formalaşdırılmasına töhfə verir.

2025-ci il üçün Prosessinq Mərkəzi tərəfindən ilk dəfə olaraq planlaşdırılan və icrasına başlanmış əsas təşəbbüslər sırasında beynəlxalq ödəniş infrastrukturunda birbaşa texniki inteqrasiyanı nəzərdə tutan **Direct Connection** modeli və biznes subyektləri üçün nəzərdə tutulmuş **Commercial Pay** həllinin tətbiqi yer alır. Bu təşəbbüslər əməliyyat çevikliyinin artırılmasına, tranzaksiya xərclərinin optimallaşdırılmasına və korporativ müştərilər üçün ödəniş həllərinin genişləndirilməsinə xidmət edir.



Şəkil 19. **2025-ci il üzrə Əsas Rəqəmsal Strateji Təşəbbüslər**

Xidmətlər və Rəqəmsal Məhsullar

ATB həm bizneslərə, həm də fərdi müştərilərə xidmət göstərilməsi istiqamətində bərabər yanaşmanı əsas götürərək, hər iki seqment üzrə rəqəmsal transformasiyaya xüsusi diqqət yetirir.

Bank son on il ərzində bankçılıq təcrübəsinin inkişaf etdirilməsi məqsədilə bazar tələblərinə uyğun rəqəmsal imkanlar yaratmaqla yanaşı, yerli bazarda rəqabət üstünlüyü yaradan innovativ xidmətlər təqdim etmiş və innovativ bank statusunu qoruyub saxlamışdır.

Apple Pay və Google Pay

Mastercard və Visa kart istifadəçiləri üçün təmassız ödəniş sistemi yaradılmış, "Apple Pay" və "Google Pay" xidmətləri istifadəyə verilmişdir. Xidmət heç bir limit olmadan istər mağazada, istərsə də onlayn əsasda müxtəlif cihazlar vasitəsilə ödəniş imkanlarını mümkün etmişdir.

Onlayn ödənişlərin atb360 vasitəsilə təsdiqi

ATB onlayn əməliyyatların təsdiqi üçün yeni bir imkan təqdim etmişdir. SMS vasitəsilə göndərilən birdəfəlik təhlükəsizlik kodu (OTP) ilə yanaşı, istifadəçilər üçün mobil tətbiqdə "Push" bildirişi vasitəsilə əməliyyat təsdiqi imkanı yaradılmışdır. Bildirişdə əməliyyata dair bütün məlumatlar təqdim olunur və istifadəçiyə əməliyyatı təsdiq etmək və ya ləğv etmək imkanı verilir.

İnternet Bankçılıq

atb360 mobil tətbiqi fərdi istifadəçilərə heç bir əlavə ödəniş etmədən rəqəmsal ATB kartını rahat şəkildə sifariş etmək, kart əməliyyatlarını və bütün növ ödənişləri bir tətbiqdən idarə etmək imkanı təqdim edir. Hüquqi şəxslər və sahibkarlar üçün təqdim olunmuş atb Business internet bankçılıq isə bu istiqamətdə bütün bank əməliyyatlarını, o cümlədən müqavilə imzalanması və dəstək xidmətləri kimi bir neçə imkanı onlayn platforma və mobil tətbiqdə birləşdirir.

Rəqəmsal ödəniş ekosisteminin genişləndirilməsi

Rəqəmsal ödəniş ekosisteminin genişləndirilməsi və sahibkarlıq fəaliyyətlərinin dəstəklənməsi məqsədilə "e-pos", "atb pos" və "e-commerce" (elektron ticarət) xidmətləri elan etmişdir. Mövcud xidmətlər nağdsız ödənişlərin heç bir məhdudiyyət olmadan təhlükəsiz və itkisiz icrası üçün hazırlanmış, ödənişlərin istər virtual ödəniş terminalı, istərsə də link vasitəsilə həyata keçirilməsi üçün müştərilərə təqdim olunmuşdur.

"SİMA İmza" İnteqrasiyası

ATB "SİMA İmza" ilə əməkdaşlıq çərçivəsində yeni nəsil rəqəmsal imza ilə sənədləri elektron şəkildə imzalamaq imkanı yaratmış, tam təhlükəsiz və kağızsız əməliyyat mühitinə keçid istiqamətində irəliləmişdir. Bu xidmət qısa müddət ərzində qeydiyyat və kartın aktivləşdirilməsi proseslərini vahid platforma üzərindən həyata keçirməyə şərait yaradır.

"SWIFT GPI" Xidməti

Beynəlxalq ödəniş xidmətlərinin sürətini və şəffaflığını artırmaq məqsədilə "SWIFT" sistemində yeniliklər edilmişdir. Təqdim olunmuş "SWIFT Global Payments Innovation" (GPI) xidməti transsərhəd ödənişlərin real vaxt rejimində izlənməsi, əməliyyat statusuna nəzarət, komissiya və tariflərin dəqiqliklə müəyyən edilməsi imkanlarını yaradır.

Şəkil 20. **ATB tərəfindən təqdim olunan yeni rəqəmsal xidmətlər və təşəbbüslər**

Mobil Tətbiq və İnternet Bankçılıq


“atb360” mobil tətbiqi və “atb Business” internet bankçılığı Bankın rəqəmsal transformasiya strategiyasının əsas istiqamətlərindəndir. Hər iki platforma müasir texnoloji həllər əsasında qurularaq müştərilərə sürətli, təhlükəsiz və geniş funksional imkanlara malik bank xidmətlərinin təqdim edilməsini təmin edir, xidmətlərin zaman və məkan baxımından əlçatanlığını artırır.

2025-ci ildə “atb360” mobil tətbiqindən istifadə edənlərin sayı 188,734 nəfər təşkil etmişdir. Bu göstərici 2024-cü illə müqayisədə müəyyən azalma nümayiş etdirsə də, 2023-cü ilin səviyyəsinə yaxın qalmışdır.


Bu dinamika istifadəçi bazasının optimallaşdırılması və aktiv istifadə səviyyəsinin sabitləşməsi ilə əlaqələndirilir. Kartların onlayn sifarişi funksionallığı tətbiqin əsas uğur göstəricilərindən biri olmuş, fərdi xidmətlərin vahid platformada təqdim edilməsi müştərilərin filiallara müraciət etmədən əməliyyat aparmasına imkan yaratmışdır. Bu yanaşma kağızsız bankçılığın təşviqinə və resurslardan daha səmərəli istifadəyə töhfə vermişdir.

Korporativ müştərilər üçün nəzərdə tutulmuş “atb Business” internet bankçılığı da hesabat dövründə davamlı artım nümayiş etdirmişdir. İstifadəçi sayı 2024-cü ildə əvvəlki illə müqayisədə **52.16%**, 2025-ci ildə isə əlavə olaraq **51.99%** artmış, 2023-cü illə müqayisədə ümumi artım təxminən 131.25% təşkil etmişdir. Bu dinamika Bankın korporativ seqment üzrə rəqəmsal xidmətlərinə artan tələbi əks etdirir.

Rəqəmsal kanallar üzrə göstəricilər mütəmadi monitorinq edilir və maraqlı tərəflərin gözləntilərinə uyğun olaraq platformalar yeni funksionallıqlarla təkmilləşdirilir.



Şəkil 21. **“atb Business” üzrə istifadəçi göstəriciləri**



Şəkil 22. **ATM və POS terminallar üzrə göstəricilər**

İnnovativ Tərəfdaşlıqlar

ATB xidmət şəbəkəsini genişləndirmək, müştərilərinə yüksək keyfiyyətli və innovativ maliyyə məhsullarını təqdim etmək, müasir maliyyə dünyasının tələblərinə uyğunlaşmaq məqsədilə yalnız yerli tərəfdaşlıqlarla kifayətlənməyərək, beynəlxalq səviyyədə də strateji əməkdaşlıqlar qurmuşdur.

“Cybersource” platforması ilə tərəfdaşlıq

Rəqəmsal ödəniş infrastrukturunun gücləndirilməsi, e-ticarət imkanlarının genişləndirilməsi və onlayn əməliyyatların təhlükəsizliyinin artırılması məqsədilə “Visa” şirkətinin qlobal ödəniş platforması olan “Cybersource” ilə əməkdaşlıq qurulmuşdur. Cybersource ilə tərəfdaşlıq çərçivəsində təhlükəsiz və tokenləşdirilmiş ödənişlərin həyata keçirilməsi, dünyanın istənilən nöqtəsində ödənişlərin emalı mümkün edilmişdir.

“JCB International” ilə tərəfdaşlıq

Yaponiyanın “Japan Credit Bureau International” (JCB) şirkəti ilə tərəfdaşlıq nəticəsində JCB kartları ilə Banka aid ATM-lərdə əməliyyatlar və POS-terminallarında ödəniş etmək mümkündür. Bu, beynəlxalq ödəniş sistemlərinə inteqrasiya prosesinə töhfə verərək, müştərilərə daha geniş spektrli ödəniş imkanları yaradır, ticarət və xidmət sektorundakı partnyorlarına yeni satış kanalları açır.

Dövlət Buluduna (G-Cloud) miqrasiya

ATB Prezident Fərmanının icrasına uyğun olaraq dövlət qurumlarının informasiya sistemlərinin vahid bulud altında birləşdirilməsi təşəbbüsünə qoşulmuşdur. Miqrasiya layihəsi İT xərclərinin azaldılması, sistemlərin effektivliyinin və təhlükəsizliyinin artırılması, həmçinin infrastrukturun təkmilləşdirilməsinə xidmət edir.

UnionPay inteqrasiyası

UnionPay beynəlxalq ödəniş sistemi üzrə aparılmış inteqrasiya işləri nəticəsində Çin banklarına məxsus UnionPay kartlarının ATB-nin ATM və POS şəbəkəsində qəbulu təmin edilmişdir. Bu addım Bankın beynəlxalq kart şəbəkələri ilə əməkdaşlığını genişləndirmiş və xarici vətəndaşlar üçün nağdsız ödəniş imkanlarının əlçatanlığını artırmışdır


Şəkil 23. **İnnovativ tərəfdaşlıqlar**

Beynəlxalq İştirak və Təmsilçilik

ATB innovativlik və rəqəmsal inkişaf sahəsində öz mövqeyini gücləndirmək və beynəlxalq təcrübə mübadiləsi aparmaq məqsədilə mütəmadi olaraq müxtəlif beynəlxalq tədbir, sammit və təşəbbüslərdə fəal iştirak edir.

Bu platformalar Bankın ən son texnoloji yenilikləri izləməsinə, rəqəmsal transformasiya sahəsində qabaqcıl trendlərdən xəbərdar olmasına və qlobal maliyyə ekosistemi ilə əlaqələr qurmasına şərait yaratmışdır.

Son illər ərzində əldə olunan əsas nailiyyətləri, təqdim olunan innovativ həllər və yeni məhsulları yerli və beynəlxalq arenada təqdim etməklə ATB innovativ bank statusunu bir daha təsdiq etmişdir. Bank 150-dən çox ölkədən 10,000-dən artıq iştirakçının qatıldığı "SIBOS" konfranslarında, Mərkəzi və Şərqi Avropa Forumunda (Euromoney), Fintex sammitlərində iştirak etmiş, bir sıra əhəmiyyətli tədbirlərdə tərəfdaş qismində çıxış etmişdir.



3.3.1 Dayanıqlı Maliyyə

Dayanıqlı maliyyə **2025-ci ildə Bankın uzunmüddətli inkişaf baxışında formalaşmaqda olan strateji istiqamətlərdən biri kimi müəyyən edilmişdir.** Bu yanaşmanı nəzərə alaraq, Bank tərəfindən dayanıqlı maliyyə prinsiplərinin tətbiqi üzrə ilkin metodoloji addımlar atılmağa başlanılmışdır.

Bu çərçivədə dayanıqlı maliyyə prinsiplərinin **strateji planlaşdırma, risklərin qiymətləndirilməsi və məhsul inkişafı proseslərinə mərhələli şəkildə inteqrasiyası istiqamətində hazırlıq və uyğunlaşdırma işləri aparılır.** Məqsəd uzunmüddətli perspektivdə iqtisadi, ekoloji və sosial dəyər yaradan məsuliyyətli maliyyələşdirmə yanaşmasının formalaşdırılmasıdır.

ATB dayanıqlı maliyyəni hazırda ayrıca müstəqil məhsul xətti kimi deyil, maliyyə qərarlarının verilməsində nəzərə alınan əlavə qiymətləndirmə elementi kimi qəbul edir və ESG meyarlarının kreditləşmə və maliyyələşdirmə proseslərinə inteqrasiyası istiqamətində işlər aparır. Bu yanaşma eyni zamanda **kredit portfelinin uzunmüddətli dayanıqlığının təmin edilməsinə və iqlim risklərinin daha effektiv idarə olunmasına xidmət edir.**

Milli tənzimləyici çərçivə ilə uyğunluq

ATB 2025-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən hazırlanmış "Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsi (2023–2026)" çərçivəsində müəyyən edilmiş prioritet istiqamətləri nəzərə alaraq, öz daxili yanaşmalarını bu istiqamətlərə uyğunlaşdırmaq üçün hazırlıq və qiymətləndirmə işlərini davam etdirmişdir.

Eyni zamanda Bank kredit fəaliyyətində Mərkəzi Bank tərəfindən təsdiq edilmiş "Yaşıl Taksonomiya" və "Yaşıl və dayanıqlılıqla əlaqəli kreditlər üzrə təlimat" sənədlərini metodoloji istinad kimi nəzərə alır. Bu sənədlər kredit layihələrinin ekoloji aspektlərinin ilkin qiymətləndirilməsi və risklərin daha yaxşı başa düşülməsi üçün istifadə olunur.

2025-ci ildə Bankda dayanıqlı maliyyə fəaliyyətinin daha sistemli şəkildə təşkili məqsədilə Dayanıqlılıq Siyasətinin hazırlanması üzrə işlər aparılmışdır. Sözügedən siyasət Bankın dayanıqlı maliyyəyə yanaşmasını, əsas istiqamətlərini və gələcək tətbiq mexanizmlərini müəyyən etməyə yönəlmiş çərçivə sənədi kimi nəzərdə tutulur.

Dayanıqlı maliyyə məhsulları və təşəbbüslər

2025-ci ildə ATB dayanıqlı maliyyə məhsullarının inkişafı istiqamətində ilkin addımlar atmışdır. Hesabat ilində Bank tərəfindən "Yaşıl Biznes" adlı dayanıqlı maliyyə məhsulu təqdim edilmişdir. Bu məhsul bərpa olunan enerji, tullantıların idarə olunması, su ehtiyatlarının qorunması və ətraf mühitin mühafizəsi kimi sahələrdə fəaliyyət göstərən layihələrin maliyyələşdirilməsini hədəfləyir.

"Yaşıl Biznes" məhsulu Bankın dayanıqlı maliyyə sahəsində gələcək portfelinin formalaşdırılması baxımından ilk praktik təşəbbüslərdən biri kimi qiymətləndirilir və onun tətbiqi üzrə yanaşmalar növbəti hesabat dövrlərində mərhələli şəkildə inkişaf etdirilməsi nəzərdə tutulur.

Hesabat dövründə Bank dayanıqlı maliyyənin təşviqi məqsədilə 10 milyon ABŞ dolları məbləğində dayanıqlı depozit təşəbbüsü həyata keçirmişdir. Sözügedən vəsait ekoloji və sosial cəhətdən məsuliyyətli layihələrin maliyyələşdirilməsinə yönəldilmişdir.

Xidmət şərtləri

- hesabların açılması və aparılması - **ödənişsiz**
- kartlar (əməkhaqqı, biznes, «sahibkar») - **pulsuz**
- pul köçürmələri - **30%-dək endirim**
- nağdsız mübadilə - **70%-dək endirim**
- ekvayrinq xidmətləri - **20%-dək endirim**
- digər xidmətlər - **50%-dək endirim**

Maliyyələşmə şərtləri

- kredit və ticarətin maliyyələşməsi məhsulları (qarantiya, akkreditiv) üzrə komissiya – 0%
- bankın resursları hesabına kredit üzrə illik faiz dərəcəsi – 3% endirim
- Dövlət fondları resursları hesabına kredit üzrə illik faiz dərəcəsi – 1% endirim
- ticarətin maliyyələşməsi məhsulları üzrə komissiya – 1% endirim
- ticarətin maliyyələşməsi məhsulları (qarantiya, akkreditiv) üzrə illik faiz dərəcəsi – 1% endirim
- məbləğ – 1,000 AZN – 10 mln AZN
- müddət / ödəniş şərtləri – maks. 10 il / 3 ilədək əsas borcun ödənişinə güzəşt müddəti

3.4 Müştəri əlaqələrinin idarə edilməsi

Müştəri əlaqələrinin səmərəli idarə olunması **ATB-nin dayanıqlı inkişaf yanaşmasının əsas komponentlərindən biridir.** Bank müştəri məmnuniyyətinin təmin edilməsini, etibarlı və uzunmüddətli münasibətlərin qurulmasını, eləcə də xidmət keyfiyyətinin davamlı təkmilləşdirilməsini prioritet istiqamət kimi müəyyən etmişdir. Bu yanaşma Bankın bazarda rəqabət qabiliyyətinin qorunmasına və maraqlı tərəflərlə etimadın möhkəmləndirilməsinə xidmət edir.

Müştəri təklif, müraciət və şikayətlərinin effektiv idarə olunması müştəri etimadının və məmnuniyyətinin qorunması və artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Müştərilərdən daxil olan **müştəri təklif, müraciət və şikayətləri** sistemli şəkildə təhlil olunur və əldə edilən məlumatlar müştəri təcrübəsinin təkmilləşdirilməsi, xidmət keyfiyyətinin artırılması və müştəri gözləntilərinə uyğun qərarların qəbul edilməsində nəzərə alınır.

2025-ci ildə Banka ümumilikdə **908 təklif, müraciət və şikayət daxil** olmuşdur. Daxil olan hər bir müraciət üzrə aidiyyəti struktur bölmələr tərəfindən araşdırma aparılmış, müraciətin mahiyyətinə uyğun olaraq müvafiq tədbirlər həyata keçirilmişdir.

İdarəetmə yanaşması

ATB-də müştərilərlə əlaqələr vahid mərkəz — **Müştəri Əlaqələrinin İdarə Edilməsi Mərkəzi (MƏİEM) vasitəsilə həyata keçirilir.** Hesabat dövründə Mərkəzin strukturunda və fəaliyyət modelində əsaslı dəyişiklik baş verməmiş, mövcud idarəetmə çərçivəsi saxlanılmışdır.

MƏİEM-in strukturu direktor, direktor müavini, Ön xidmət bölməsi, Arxa xidmət bölməsi, Gecə xidmət bölməsi və nəzarət funksiyasını icra edən əməkdaşlardan ibarətdir. Mərkəz Bankın digər struktur bölmələri ilə koordinasiyalı fəaliyyət göstərərək müştərilərə məsafədən operativ və əlçatan xidmət təqdim edir.

Ön xidmət bölməsi

Ön xidmət bölməsi - müştərilərə əsasən telefon vasitəsilə məsafədən xidmət göstərir: hesablar və əməliyyatlarla bağlı məlumat verir, BƏS-də əməliyyat aparır, məhsul və xidmətlər haqqında məlumat təqdim edir. Həmçinin müraciətlərin qeydiyyatını, yönləndirilməsini, danışıqların yazılmasını və arxivləşdirilməsini, sorğuların aidiyyəti strukturlara ötürülməsini təmin edir.

Arxa xidmət bölməsi

Arxa xidmət bölməsi - müştərilərlə əsasən sosial şəbəkələr vasitəsilə əlaqə qurur (WhatsApp, Facebook, Instagram). Əsas funksiyalarına müraciətlərin operativ cavablandırılması, məhsul və xidmətlər üzrə məlumatlandırma, BƏS-də əməliyyatların aparılması, müştərilərə hesabları barədə məlumat verilməsi, konsultativ dəstək, müştəri bazasının idarə olunması, seqmentasiya və əlavə xidmətlərin təşkili daxildir. Həmçinin müraciətlərin qeydiyyatını, yönləndirilməsini, danışıqların yazılmasını və arxivləşdirilməsini, sorğuların aidiyyəti strukturlara ötürülməsini təmin edir.

Gecə xidmət bölməsi

Bölmə 24/7 müştəri dəstəyini təmin edir. Gecə saatlarında həm zəng, həm də Omnichannel (Facebook, Instagram, WhatsApp) vasitəsilə daxil olan müraciətləri cavablandırır, məhsullar barədə məlumat verir, BƏS-də əməliyyat aparır və müştərilərə hesabları barədə məlumat təqdim edir. Həmçinin müraciətlərin qeydiyyatını, yönləndirilməsini, danışıqların yazılmasını və arxivləşdirilməsini, sorğuların aidiyyəti strukturlara ötürülməsini təmin edir.

Şəkil 24. **Funksional bölgü**


Müştəri əlaqələrinin idarə olunması təsdiq edilmiş xidmət standartları, daxili prosedurlar və nəzarət mexanizmləri əsasında həyata keçirilir. Bu çərçivə:

- müştəri yönümlü vahid yanaşmanı təmin edir
- xidmət keyfiyyətinə nəzarəti gücləndirir
- əməliyyat və reputasiya risklərinin idarə olunmasını dəstəkləyir

Xidmət kanalları və rəqəmsal əlçatanlıq

2023–2025-ci illər ərzində Bank məsafədən xidmət modelini davam etdirmişdir. Rezident və qeyri-rezident fiziki və hüquqi şəxslərə zəng və omnichannel kanalları vasitəsilə xidmət göstərilməsi əvvəlki dövrün davamı kimi saxlanılmışdır.

Müştəri xidmətlərinin dəstəklənməsi üçün Orangeline proqram təminatı istifadədə saxlanılmış, hesabat dövründə MƏİEM səviyyəsində yeni sistem tətbiq edilməmişdir. Bununla yanaşı, Bankın rəqəmsal ekosistemində (atb360, ATB Business, bank.atb.az və s.) aşağıdakı funksionallıqlar genişləndirilmişdir:



Şəkil 25. **Bankın rəqəmsal ekosistemində funksionallıqların genişləndirilməsi**


Müştəri müraciətlərinin idarə olunması

Müştəri təklif, müraciət və şikayətlərinin effektiv idarə olunması müştəri etimadının və məmnuniyyətinin qorunması və artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Müştərilərdən daxil olan hər bir müraciət təhlil olunur və bu məlumatlar müştəri təcrübəsinin sistemli şəkildə təkmilləşdirilməsinə və müştəri gözləntilərinə uyğun qərarların verilməsinə imkan yaradır.

Bankın rəqəmsallaşma tendensiyalarına uyğun olaraq müştəri müraciətləri rəqəmsal kanallar vasitəsilə qəbul olunur və MƏİEM tərəfindən araşdırılır.

Təklif və şikayətlər MƏİEM tərəfindən rəqəmsal kanallar vasitəsilə qəbul olunaraq araşdırılması üçün FİM-ə yönləndirilir. MƏİEM daxil olan müraciətlərin icrasını səlahiyyətləri çərçivəsində və şəffaf şəkildə təmin edir.

2025-ci ildə xidmət keyfiyyətinin monitorinqinin gücləndirilməsi məqsədilə "gizli müştəri" mexanizmi tətbiq edilmişdir. Bu yanaşma xidmət standartlarına uyğunluğun qiymətləndirilməsini gücləndirmişdir.



Şəkil 26. **Müraciətlərin idarə olunması**

İnsan kapitalının inkişafı

Hesabat dövründə MƏİEM əməkdaşları HR tərəfindən təşkil olunan təlim və inkişaf proqramlarına mütəmadi cəlb edilmişdir. Əməkdaşların peşəkar inkişafının dəstəklənməsi məqsədilə sertifikatlaşma imkanları yaradılmışdır.

Eyni zamanda, Mərkəzin prioritetlərindən biri kimi:

- əməkdaş sayının artırılması
- peşəkar bacarıqların inkişafı
- xidmət keyfiyyətinin yüksəldilməsi istiqamətlərinə xüsusi diqqət yetirilmişdir.

Müştəri məlumatlarının təhlükəsizliyi

Müştəri məlumatlarının qorunması ATB üçün əsas prioritet istiqamətlərdən biridir. Bank bütün məhsul və xidmətlər üzrə müştəri məlumatlarının məxfiliyinin təmin edilməsinə həssas yanaşır və prosesləri daxili normativ sənədlər əsasında həyata keçirir.

Distant kanallar vasitəsilə müraciət edən müştərilərin eyniləşdirilməsi müvafiq prosedur çərçivəsində aparılır və məlumatların icazəsiz istifadəsinin qarşısının alınmasına yönəlmiş nəzarət mexanizmləri tətbiq olunur.

Hesabat dövründə müştəri məlumatlarının məxfiliyinin pozulması ilə bağlı əhəmiyyətli insident qeydə alınmamışdır.


3.5 Yerli İqtisadiyyat və Bank Sektoru

ATB strateji hədəflərinə nail olmaq və dayanıqlı inkişafı dəstəkləmək məqsədilə fəaliyyətini **Azərbaycan Respublikasının makroiqtisadi mühiti və maliyyə sektorunda müşahidə olunan aktual tendensiyalarla uyğun şəkildə qurur.** Bankın strateji yanaşması ölkədə iqtisadi artım dinamikası, inflyasiya mühiti və maliyyə vasitəçiliyinin inkişaf göstəriciləri nəzərə alınmaqla formalaşdırılır.

Azərbaycan Respublikası Mərkəzi Bankının statistik məlumatlarına əsasən, son illərdə ölkədə makroiqtisadi sabitlik qorunub saxlanılmışdır. 2024-cü il ərzində illik inflyasiya Mərkəzi Bankın hədəf diapazonu (4±2%) daxilində qalaraq təxminən 3–4% səviyyəsində formalaşmışdır ki, bu da qiymət sabitliyinin təmin olunduğunu göstərir.

2025-ci ildə qlobal geosiyasi risklərin artması fonunda ölkədə iqtisadi artım davam etmişdir. 2025-ci ildə ÜDM real ifadədə 1.4% artmış və onun nominal həcmi 129 mlrd. manata çatmışdır.


Qeyri-neft-qaz sektoru iqtisadi artımın əsas hərəkətverici qüvvəsi olmuşdur. Belə ki, iqtisadiyyatın neft-qaz sektorunda ÜDM 1.6% azalmış, qeyri-neft-qaz sektorunda isə 2.7% artmışdır. Hesabat ilində ÜDM-in 71.5%-i qeyri-neft-qaz sektorunun hesabına formalaşmışdır ki, bu da 2024-cü ilin sonu ilə müqayisədə 3.7 f.b. çoxdur. Əhalinin hər nəfərinə düşən ÜDM 12.6 min manata bərabər olmuşdur.



Şəkil 27. **Azərbaycanda ÜDM, mlrd. AZN**
(Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankı)


Bank sektoru

Bank sektorunun balansı genişlənməkdə davam edir. 2025-ci il ərzində bank sektorunun cəmi aktivləri 7.7% (4.1 mlrd. manat) artaraq 57.1 mlrd. manat təşkil etmişdir. Cəmi öhdəlikləri isə 7.2% (3.3 mlrd. manat) artaraq 49.7 mlrd. manat təşkil etmişdir. Nəticədə, bank sektorunun dərinlik göstəricisi olan aktivlərin ÜDM-ə nisbəti ötən ilin sonu ilə müqayisədə 2.3 faiz bəndi (f.b.) artaraq 44.2%-ə çatmışdır. İl ərzində balansın artımı əsasən fiziki şəxslərin müddətli depozitləri hesabına olmuşdur ki, bu da kredit portfelinin artımını dəstəkləmişdir. 2025-ci ilin sonuna olan məlumatlara əsasən bank sektorunun aktivlərinin 49.6%-ni xalis kredit portfeli, 22.6%-ni cari aktivlər, 27.8%-ni isə digər aktivlərdən ibarətdir. Öhdəliklərin isə 44%-i hüquqi şəxslərin depozitləri, 33%-i fiziki şəxslərin əmanətləri, 13%-i bank və digər maliyyə institutlarının depozit və kreditləri, 10%- i digər öhdəliklərdən ibarətdir.




Şəkil 28. **Bank sistemi üzrə aktiv və öhdəliklərin dinamikası, milyard AZN**
(Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankı)

Fiziki şəxslərin müddətli depozitləri 2025-ci il ərzində 20% (1.7 mlrd. manat) artaraq 10.3 mlrd. manat təşkil etmiş, tələbli depozitləri isə müvafiq dövr ərzində 5.5% (0.3 mlrd. manat) artaraq 6 mlrd. manat olmuşdur. Bank sektoruna inamın artımı, həyata keçirilən yeni makroprudensial siyasət və monetar çərçivə, o cümlədən rəqəmsallaşmanın artımı fonunda müddətli depozit portfelində unikal əmanətçilərin sayı ötən ilin sonu ilə müqayisədə 29% artaraq 194.1 min nəfəri üstələmişdir.




Şəkil 29. **Fiziki və hüquqi şəxslərin depozit portfelinin dinamikası, mlrd, manatla** (Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankı)

2024-cü ilin sonu ilə müqayisədə bank sektorunun kredit portfeli 9.4% artaraq 30.1 mlrd. manata, depozit portfeli isə 38.2 mlrd. manata çatmışdır. 2025-ci il ərzində depozit portfeli və kredit portfelinin artım dinamikası fonunda kreditin depozitə nisbəti göstəricisi artaraq 79% olmuşdur.



Şəkil 30. **Kreditin depozitə nisbəti əmsalının dinamikası** (Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankı)

2025-ci ildə bank sisteminin xalis mənfəəti ötən il ilə müqayisədə 11% (118 mln. manat) artaraq 1,162 mln. manat təşkil etmişdir. Sektorun mənfəətliliyinin və aktivlərin artımı fonunda ROA göstəricisi sabit qalaraq 2.1% olmuşdur.



Şəkil 31. **Bank sektorunun xalis mənfəəti və ROA göstəricisi** (Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankı)

4. Dayanıqlı İnkişafa Yanaşmamız

2024-cü il ATB üçün dayanıqlılıq fəaliyyətlərinin gücləndirilməsi və ESG prinsiplərinin nəzərə alındığı sistemli yanaşmaya keçid baxımından mühüm mərhələ olmuşdur. Qlobal səviyyədə ESG meyarlarına artan diqqəti nəzərə alaraq, Bank əməliyyatlara və strateji qərarvermə proseslərinə bu prinsiplərin inteqrasiyasına yönəlmiş ilkin addımlarını atmışdır.

Bu çərçivədə, mövcud vəziyyətin qiymətləndirilməsi və inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi məqsədilə ESG diaqnostikası aparılmışdır. Sözügedən diaqnostika, dayanıqlı inkişaf hesabatlılığı, emissiyaların uçotu, siyasət və strategiyaların qurulması, yaşıl məhsulların yaradılması və taksonomiya ilə uyğunlaşdırılması kimi sahələrdə gələcək fəaliyyətlər üçün əsas baza rolunu oynamışdır.

2025-ci ildə Bank dayanıqlılıq sahəsində sistemli və metodoloji çərçivənin formalaşdırılması istiqamətində mühüm irəliləyiş əldə etmişdir. Hesabat dövründə dayanıqlı inkişaf üzrə hesabatlılıq yanaşması formalaşdırılmış və beynəlxalq standartlara uyğun ilk açıqlamalar ictimaiyyətə təqdim olunmuşdur*.


Bununla yanaşı, Bank tərəfindən istixana qazı emissiyalarının uçotu üzrə metodologiyalar hazırlanmış, Əhatə dairəsi 1, 2 və 3 üzrə emissiyaların hesablanması həyata keçirilmişdir.

Bu təşəbbüslər Bankın ətraf mühitə təsirinin ölçülməsi, idarə olunması və gələcəkdə azaldılması üzrə hədəflərin müəyyənləşdirilməsi üçün möhkəm baza yaratmışdır. Eyni zamanda, dayanıqlı inkişaf sahəsində məlumatların toplanması və açıqlanması proseslərinin daha sistemli və strukturlaşdırılmış şəkildə aparılmasına imkan vermişdir.

*Dayanıqlı İnkişaf Hesabatı 2022-2024

Dayanıqlılığın idarəetmə sistemi

2025-ci ildə ATB iş yerində etik davranışın təşviqi, korporativ sosial məsuliyyətə nəzarətin gücləndirilməsi və etik idarəetmənin inkişafı məqsədilə Etik və Sosial Məsələlər üzrə Komissiyanı yaratmışdır. Komissiya yaradıldıqdan sonra dayanıqlılıqla bağlı təşəbbüslərin və strateji istiqamətlərin koordinasiyasına nəzarət etmiş, ESG sahəsində təşəbbüslərin effektiv icrası üçün **Hesablaşmalar Departamenti** və digər aidiyyəti struktur bölmələrlə sıx əməkdaşlıq etməyə davam edir. Komissiya birbaşa İdarə Heyətinə hesabat verir.



Şəkil 32. **ATB-nin dayanıqlılığın idarə edilməsi üzrə ümumi strukturu**

Hesabat dövrü ərzində baş verən hadisələr:

2025-ci ildə ATB dayanıqlı inkişaf istiqamətində daha sistemli yanaşmanın təmin edilməsi məqsədilə bir sıra ESG mövzuları üzrə ixtisaslaşmış siyasətlərinin hazırlanmasına başlamışdır.

- Dayanıqlılıq (ESG) Siyasəti
- Maraqlı Tərəflərlə Əlaqələr Siyasəti
- Korrupsiyaya və Rüşvətxorluğa Qarşı Mübarizə Siyasəti
- Müxtəliflik, İnklüzivlik və Bərabər İmkanlar Siyasəti
- İşçi Sağlamlığı və Təhlükəsizliyi Siyasəti
- İqlim Dəyişikliyi və Ətraf Mühit Siyasəti
- Şikayətlərə Baxılması Siyasəti
- İnsan Hüquqları Siyasəti
- Təchizatçılar üçün Davranış Kodeksi
- KSM Siyasəti
- Etik Davranış Məcəlləsi

Dayanıqlılıq üzrə yol xəritəmizin icra planı

ATB 2024-cü ildə ESG prinsiplərinin fəaliyyətə mərhələli inteqrasiyası məqsədilə Yol Xəritəsini tətbiq etmişdir və bu istiqamətdə ilkin addımlar atmağa başlamışdır.
Yol Xəritəsi Bankın dayanıqlılıq sahəsində idarəetmə çərçivəsinin formalaşdırılması, siyasət və prosedurların hazırlanması, emissiyaların uçotu, risklərin qiymətləndirilməsi və ESG göstəricilərinin toplanması kimi prioritet sahələri əhatə edir.

Həmçinin, hesabatlılıq və şəffaflıq mexanizmlərinin qurulması, maraqlı tərəflərlə kommunikasiya və ESG mövzusunda daxili potensialın artırılması da nəzərdə tutulan əsas istiqamətlərdəndir.
Hazırda bu fəaliyyətlər mərhələli şəkildə icra olunmaqda davam edir.



Şəkil 33. **2025-ci il üzrə icra olunmuş tədbirlər**




Şəkil 34. **İcrası planlaşdırılan tədbirlər**

4.1 Əhəmiyyətli Mövzular

Əhəmiyyətlilik təhlili çərçivəsində maraqlı tərəflərlə müsahibələr keçirilmiş, Bankın daxili siyasət və sənədləri nəzərdən keçirilmiş, həmçinin qabaqcıl beynəlxalq təcrübələr təhlil edilmişdir. **Bu yanaşma dayanıqlılıq mövzularının müəyyənləşdirilməsi və prioritetləşdirilməsi üçün əsas baza rolunu oynamışdır.**
2025-ci ildə daxili sorğular təşkil olunmamışdır. Bununla belə, 2024-cü ildə aparılmış qiymətləndirmələrin nəticələri aktual hesab edilmiş və əhəmiyyətli mövzuların müəyyənləşdirilməsində istifadə olunmuşdur. Növbəti ildə daxili sorğuların keçirilməsi nəzərdə tutulur.

Əhəmiyyətlilik təhlili prosesi aşağıdakı əsas mərhələlərdən ibarət idi:



Təhlil nəticəsində müəyyən edilmiş əhəmiyyətli mövzular iqtisadi, ətraf mühit, sosial məsələlər və insan hüquqları sahələrini əhatə edir. Əhəmiyyətli mövzuların müəyyənləşdirilməsi və prioritetləşdirilməsi prosesi aşağıdakı addımlardan ibarətdir (2024-cü il daxili sorğusunun nəticələrinə əsaslanır):

GRI Mövzu Standartlarına istinad
Əhəmiyyətliliyin qiymətləndirilməsi prosesinin bir hissəsi olaraq, GRI Mövzu Standartlarının əhatə etdiyi potensial əhəmiyyətli mövzuların ATB üçün uyğunluğu nəzərdən keçirilmişdir.

Müsahibələr
ATB-nin İdarə Heyəti və departament rəhbərlərinin dayanıqlılığa yanaşmalarını, habelə məsuliyyət dairələrinə aid dayanıqlılıq mövzularının idarə olunmasına baxışlarını daha dərindən anlamaq məqsədilə müsahibələr keçirilmişdir.

Siyasət və sənədlərin nəzərdən keçirilməsi
Təhlil əsasında dayanıqlılıq mövzularının ATB-nin idarəetmə siyasəti və daxili sənədlərində hansı səviyyədə əhatə olunması müəyyənləşdirilib. Müvafiq siyasət və sənədlərin təhlili ATB-nin dayanıqlı inkişaf üzrə prioritetləri, diqqət mərkəzində olan sahələri, eyni zamanda fəaliyyətimizin dayanıqlılıq standartlarına uyğunluğunu və hansı sahələrin əlavə diqqət tələb edə biləcəyini müəyyən etməyə imkan yaratmışdır.

Qabaqcıl təcrübələrin təhlili
Qabaqcıl təcrübələrin müqayisəli təhlili zamanı nümunə olaraq seçilən oxşar banklara xüsusi diqqət yetirilmişdir. Bu təhlilin məqsədi istinad kimi götürülən bankların dayanıqlılıq üzrə fəaliyyətinə əsasən uyğun əhəmiyyətli məsələlərin müəyyənləşdirilməsidir.

Daxili sorğuların təşkil olunması
ATB-nin daxili maraqlı tərəflərinin mühüm hesab etdiyi mövzuların müəyyənləşdirilməsi üçün rəhbərlik və işçilər arasında müxtəlif dayanıqlılıq məsələlərini əhatə edən sorğular hazırlanıb paylaşılmışdır. Yanaşmamıza əsasən, rəhbərlik heyətinin qərarvermə səlahiyyətləri nəzərə alınmaqla, sorğu nəticələrinin təhlili zamanı rəhbər işçilərin cavablarına digər işçilərin cavablarından 3 dəfə yüksək çəki verilmişdir.

Əhəmiyyətlilik qiymətləndirilməsinin nəticəsi olaraq ATB özü üçün əhəmiyyətli olan mövzuları müəyyən etmişdir. Bu mövzular Cədvəl 1-də ətraflı şəkildə təqdim olunub və müvafiq Dayanıqlı İnkişaf Məqsədləri (DİM) ilə əlaqələndirilmişdir:

Cədvəl 1. **ATB üçün əhəmiyyətli mövzuların siyahısı**

Əhəmiyyətli mövzu	Əhəmiyyət dərəcəsi	Əlaqəli DİM-ləri	ATB-nin yanaşması	
			Bölmə	Səhifə
Bazar payının artırılması və strateji mövqeyin gücləndirilməsi	★★★★★		3.5. Yerli İqtisadiyyat və Bank Sektoru	30
Uyğunluq, etika və antikorrupsiya tədbirləri	★★★★★		5.2. Etik davranış və Uyğunluq	56
Rəqəmsal transformasiya və innovasiya	★★★★★		3.3. İnnovasiya və Rəqəmsal Transformasiya bölməsi	19
Korporativ idarəetmə, hesabatlılıq və şəffaflıq	★★★★★		4. Dayanıqlı İnkişafa Yanaşmamız 5. Korporativ İdarəetməyə Yanaşmamız 5.2. Etik Davranış və Uyğunluq	32, 38, 56
Müştəri yönümlü xidmət və müştəri məmnuniyyətinin artırılması	★★★★★		3.2. ATB-nin Biznes Modeli və Əsas Xidmət Sahələrimiz 3.4. Müştəri Əlaqələrinin İdarə Edilməsi	11, 28
İnsan resurslarının idarə olunması və işçilərin rifahı	★★★★★		6. İnsan Resurslarının İdarə Olunması	60
Risklərin idarə olunması	★★★★★		5.1. Azərbaycan Bank Sektorunda Risk Mühiti	45
İnsan hüquqlarının qorunması	★★★★☆		6. İnsan Resurslarının İdarə Olunması	60

Əhəmiyyətli mövzu	Əhəmiyyət dərəcəsi	Əlaqəli DİM-ləri	ATB-nin yanaşması	
			Bölmə	Səhifə
Dayanıqlı maliyyə və məsuliyyətli investisiya fəaliyyəti	★★★★☆		3.3.1. Dayanıqlı Maliyyə	27
Enerji səmərəliliyi və istixana qazı emissiyalarının azaldılması	★★★★☆		8. Ətraf Mühitin Qorunması	72
Kibertəhlükəsizlik və məlumatların məxfiliyi	★★★★☆		3.4. Müştəri Əlaqələrinin İdarə Edilməsi 5.1. Azərbaycan Bank Sektorunda Risk Mühiti 5.2. Etik Davranış və Uyğunluq	28, 45, 56
Ətraf mühitin qorunması və iqlim dəyişikliklərinə qarşı tədbirlər	★★★★☆		8. Ətraf Mühitin Qorunması	72
Təlim, kadrların inkişafı və karyera imkanları	★★★★☆		6. İnsan Resurslarının İdarə Olunması	60
Sosial məsuliyyət və KSM layihələri	★★★★☆		7. ATB-nin Korporativ Sosial Məsuliyyəti	68
Maraqlı tərəflərlə əlaqələrin gücləndirilməsi	★★★★☆		4.2 Maraqlı Tərəflərin Cəlb Olunması	36
Rəqabətli və etik satınalma prosesi	★★★☆☆		9. Təchizat Zəncirinin İdarə Olunması	79

4.2 Maraqlı Tərəflərin Cəlb Olunması

ATB maraqlı tərəflərlə münasibətləri strateji idarəetmənin əsas elementi kimi qəbul edir. Bu yanaşma Banka sosial dəyər yaratmaq imkanlarını genişləndirməyə, reputasiya və etik riskləri vaxtında müəyyən etməyə, eləcə də ictimai etimadı möhkəmləndirməyə şərait yaradır.

Bankın fəaliyyəti bir sıra maraqlı tərəflər – o cümlədən müştərilər, əməkdaşlar, tənzimləyici orqanlar, təchizatçılar, investorlar, media, qeyri-hökumət təşkilatları və yerli icmalar – üzərində birbaşa və dolayı təsirə malikdir. ATB maraqlı tərəflərlə əlaqələrin idarə olunmasında **beynəlxalq səviyyədə tanınmış prinsiplərə** və **daxili korporativ siyasətlərə** əsaslanan inteqrasiya olunmuş yanaşma tətbiq edir. Bank maraqlı tərəflərlə dayanıqlı, şəffaf və qarşılıqlı faydaya əsaslanan dialoqlar vasitəsilə onların ehtiyac və gözləntilərini daha dərindən anlamağa, ortaq dəyər yaratmağa çalışır. **Maraqlı tərəflərlə qarşılıqlı əlaqə nəticələri Bankın əhəmiyyətlilik təhlilinin formalaşdırılmasında əsas məlumat mənbəyi kimi istifadə olunmuşdur.**

ATB-də maraqlı tərəflərlə əlaqələrin idarə olunması müxtəlif departamentlərin funksional əməkdaşlığı çərçivəsində həyata keçirilir. Hər bir struktur bölmə öz səlahiyyətləri daxilində müvafiq maraqlı tərəflərlə əlaqələrin qurulması, inkişaf etdirilməsi və davamlılığının təmin olunmasına cavabdehdir.

2025-ci il ərzində ATB maraqlı tərəflərlə qarşılıqlı əlaqələrin gücləndirilməsi istiqamətində bir sıra təşəbbüslər həyata keçirmişdir. Bu çərçivədə əsas kommunikasiya vasitələri aşağıdakılar olmuşdur:

- rəsmi məktublar;
- görüşlər;
- hesabatlar və məruzələr.



Aşağıdakı cədvəldə Bankın əsas maraqlı tərəf qrupları, onlarla əlaqənin qurulması üzrə yanaşmamız və əlaqə kanallarımız haqqında ümumi məlumat təqdim olunub:

Maraqlı tərəflər	ATB-nin yanaşması	Kommunikasiya kanalları	Əsas mövzular
Hökumət və tənzimləyici qurumlar	Bank, dövlət orqanları və tənzimləyici qurumlarla dialoq apararaq normativ tələblərə tam uyğunluğu təmin edir, strateji təşəbbüslərdə iştirak edir və qanunvericilik dəyişikliklərinə proaktiv şəkildə adaptasiya olunur.	• Rəsmi məktublar • Görüşlər • Hesabat və məruzələr • Konfranslar və forumlar	• Normativ uyğunluq • Risklərin idarə olunması • ESG tələbləri
Müştərilər	ATB müştərilərlə əlaqələrdə qarşılıqlı etimad və şəffaf ünsiyyət prinsiplərinə əsaslanan yanaşma tətbiq edir. Bank müştəri təcrübəsini diqqətlə təhlil edir, daxil olan rəy və təklifləri xidmətlərin təkmilləşdirilməsi prosesinə ardıcıl şəkildə inteqrasiya edir.	• Çağrı mərkəzi • Mobil tətbiq (atb360) • Müştəri sorğuları • Sosial media • Müştəri xidmət mərkəzi	• Rəqəmsal xidmətlər • Kredit şərtləri • ESG məhsullar (yaşıl kreditlər)
İnvestor və Səhmdarlar	ATB investor və səhmdarlarla münasibətlərdə məlumatın vaxtında paylaşılmasına və ünsiyyətin yüksək səviyyədə qurulmasına xüsusi önəm verir. Bank maliyyə göstəricilərini və strateji planlarını açıq şəkildə təqdim edir, ünvanlanan suallara vaxtında cavab verir və qarşılıqlı əlaqəni aktiv saxlamağa çalışır.	• Maliyyə hesabatları • Səhmdarların toplantıları • Korporativ vebsayt • Birbaşa görüşlər və yazılı sorğular • Press-relizlər və media açıqlamaları	• Maliyyə performansı • Şəffaflıq • Risklərin idarə olunması
İşçilər	ATB üçün əməkdaşların inkişafı və sağlam iş mühitinin formalaşdırılması əsas prioritetlərdəndir. Bank açıq ünsiyyəti və komanda ruhunu təşviq edən təşəbbüslərlə rəhbərlik və əməkdaşlar arasında effektiv əlaqə qurmağa çalışır.	• Rəhbərliklə mütəmadi görüşlər • İşçilər arasında sorğular • İntranet • E-poçt bildirişləri • Daxili təlim və məlumatlandırma sessiyaları • Təklif və müraciət kanalları	• İş şəraiti • Karyera inkişafı • Motivasiya və rifah
Cəmiyyət	ATB ictimaiyyətlə əlaqədə fəal və inklüziv yanaşma tətbiq edir. Bank maliyyə savadlılığı, sosial rifah və ekoloji maarifləndirmə sahələrində layihələr həyata keçirir, müxtəlif qurumlarla əməkdaşlıq edir və könüllülük təşəbbüslərini dəstəkləyir. Bu, sosial məsuliyyəti gücləndirir və icmalarla davamlı əlaqələr qurmağa xidmət edir.	• Korporativ vebsayt • Sosial şəbəkə platformaları • Mətbuat açıqlamaları • İctimai tədbirlər və maarifləndirmə kampaniyaları • KSM layihələri çərçivəsində görüşlər	• Sosial layihələr • Maliyyə savadlılığı • Ekoloji məsuliyyət
Media	ATB media ilə açıq və qarşılıqlı əməkdaşlığa önəm verir. Bankın fəaliyyəti və ictimai əhəmiyyət kəsb edən təşəbbüsləri barədə məlumatlılığın artırılması, eyni zamanda ictimai etimadın qorunması və möhkəmləndirilməsi əsas hədəflərdən biridir.	• Mətbuat konfransları • Rəsmi açıqlamalar və press-relizlər • Media müsahibələri • İctimai məlumatlandırma kampaniyaları • Sosial şəbəkə platformaları	• Şəffaflıq • Operativ məlumat paylaşımı
Təchizatçılar və podratçılar	ATB təchizatçılar və podratçılarla uzunmüddətli, şəffaf və məsuliyyətli əməkdaşlığa üstünlük verir. Bank təchizatçılar və podratçıların fəaliyyətinin ekoloji və sosial baxımdan uyğun olmasına diqqət yetirir. Əsas məqsəd – karbon emissiyalarının azaldılması, resursların səmərəli istifadəsi, əmək hüquqlarının qorunması və korporativ məsuliyyətin təmin olunmasıdır.	• İclaslar və görüşlər • Sorğular və qiymətləndirmələr • Təklif və müraciət kanalları • Təlim və məlumatlandırma sessiyaları • Rəsmi yazışmalar	• Etik standartlar • Ekoloji uyğunluq • Satınalma şəffaflığı

5. Korporativ İdarəetməyə Yanaşmamız

ATB korporativ idarəetmə sisteminin **milli qanunvericilik və tənzimləyici tələblərə,** eləcə də beynəlxalq qabaqcıl yanaşmalara uyğun qurulmasına xüsusi önəm verir. Bu çərçivədə idarəetmənin əsas prinsipləri "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu, Bankın Nizamnaməsi və Bankdaxili idarəetmə orqanları/komitələrinin əsasnamələri ilə yanaşı, tənzimləyicinin korporativ idarəetmə üzrə çərçivə tələbləri əsasında formalaşdırılır.




Hesabat dövründə tənzimləyici çərçivədə əsas yenilik

2024-cü ildə bank sektorunda korporativ idarəetmə tələblərinin gücləndirilməsi istiqamətində tənzimləyici çərçivədə yenilənmələr aparılmış və **25 sentyabr 2024-cü il tarixindən "Banklarda korporativ idarəetmə Standartları"na əlavə və dəyişikliklər qüvvəyə minmişdir.** Mərkəzi Bankın açıqlamasına əsasən, bu Standartlar artıq tövsiyə xarakteri daşımır və korporativ idarəetmə sahəsi üzrə banklara qarşı mövcud tələbləri ehtiva edir.

Bu dəyişikliklər fonunda ATB-də korporativ idarəetmə mexanizmlərinin tənzimləyici gözləntilərlə uyğunluğunun təmin edilməsi məqsədilə daxili çərçivələrin nəzərdən keçirilməsi və uyğunlaşdırılması üzrə işlər davam etdirilmişdir.

Bankın korporativ idarəetmə yanaşması beynəlxalq praktikada qəbul olunmuş prinsiplər, o cümlədən Bank nəzarəti üzrə **Bazel Komitəsinin korporativ idarəetmə** prinsipləri ilə uzlaşdırılmaqla, risklərin effektiv idarə edilməsinə, qərarların əsaslandırılmış qəbuluna və nəzarət mexanizmlərinin gücləndirilməsinə xidmət edir.



Şəkil 35. **ATB-nin idarəetmə strukturu***

Şəkildə Bankın 31.12.2024 tarixinə qüvvədə olan təşkilati strukturu göstərilir. 2025-ci ildə strukturda dəyişikliklərə başlanılmışdır; yenilənmiş struktur təsdiq edildikdən sonra növbəti hesabatda təqdim olunacaqdır.

Səhmdarların Ümumi Yığıncağı

Səhmdarların Ümumi Yığıncağı bankın ali idarəetmə orqanı kimi, ATB-nin strateji inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində və yüksək səviyyəli qərarların qəbul olunmasında mühüm rol oynayır.

Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə və bankın nizamnaməsinə əsasən, bu orqan səhmdarların kollektiv iradəsini əks etdirərək bankın idarə olunmasında şəffaflıq, hesabatlılıq və effektivlik prinsiplərinə xidmət edir. Aşağıda Ümumi Yığıncağın əsas funksiyaları və səlahiyyətləri təsvir olunur.

- Bankın nizamnaməsinin və daxili qaydalarının qəbul edilməsi və dəyişdirilməsi
- Müşahidə Şurasının, İdarə Heyətinin və Audit Komitəsinin üzvlərinin təyin və azad edilməsi
- Bankın illik büdcəsinin və maliyyə hesabatlarının təsdiqi
- Mənfəətin bölgüsü və dividendlərin ödənilməsi ilə bağlı qərarların qəbulu
- Nizamnamə kapitalının artırılması və azaldılması barədə qərarların verilməsi
- Bankın filial və nümayəndəliklərinin yaradılması və ya bağlanması barədə qərarların qəbulu
- Bankın birləşməsi, bölünməsi, yenidən təşkili və ya ləğvi ilə bağlı qərarların qəbul edilməsi
- Xarici auditorun təyin olunması və növbədənkənar auditin keçirilməsi barədə qərarların verilməsi
- Bankın maliyyə, kredit, risk və kadr siyasətlərinin müəyyənləşdirilməsi
- Səhmlərin buraxılması, geri alınması və şərtlərinin təsdiqi, mühüm iştirak paylarının əldə olunması ilə bağlı qərarlar
- Bank adından öhdəliklərin qəbul edilməsi səlahiyyətlərinin müəyyənləşdirilməsi
- Kommersiya maraqlarının açıqlanması qaydalarının və müvafiq hüquqi sənədlərin təsdiqi
- İllik və növbədənkənar ümumi yığıncaqların keçirilməsi və bu yığıncaqların prosedurlarının müəyyənləşdirilməsi
- Səhmdarların birbaşa və ya nümayəndə vasitəsilə səsvermədə iştirak hüquqlarının təmin olunması

Şəkil 36. **Səhmdarların Ümumi Yığıncağının əsas vəzifələri**

Müşahidə Şurası

Müşahidə Şurası ATB-də ali nəzarət funksiyasını həyata keçirən əsas idarəetmə orqanı olmaqla, Bankın strateji inkişaf istiqamətlərinin icrasına, risklərin idarə olunmasına və daxili nəzarət sistemlərinin səmərəliliyinə ümumi nəzarəti təmin edir. **Müşahidə Şurası Azərbaycan Respublikasının qanunvericiliyinə, Azərbaycan Respublikası Mərkəzi Bankının tələblərinə və Bankın Nizamnaməsinə uyğun olaraq fəaliyyət göstərir.**

Müşahidə Şurası öz nəzarət funksiyasını Bankın tərkibində fəaliyyət göstərən ixtisaslaşmış komitələr (Audit, Risklərin İdarə Edilməsi, Korporativ İdarəetmə və digər müvafiq komitələr) vasitəsilə həyata keçirir. Bu mexanizm risklərin vaxtında müəyyən edilməsinə, nəzarət tədbirlərinin gücləndirilməsinə və qərarvermə proseslərinin şəffaflığının artırılmasına xidmət edir.

Eyni zamanda, Müşahidə Şurası Bankın korporativ idarəetmə sisteminin və daxili nəzarət mexanizmlərinin **Mərkəzi Bankın korporativ idarəetmə standartlarına uyğunluğunu mütəmadi olaraq nəzərdən keçirir.**

Hesabat dövrü ərzində Müşahidə Şurasının fəaliyyətinin effektivliyi Bankın daxili prosedurları və normativ tələblər çərçivəsində qiymətləndirilmiş, idarəetmə və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində müvafiq tövsiyələr verilmişdir.

Bankın idarəetmə orqanlarının, xüsusilə İdarə Heyətinin fəaliyyətinə ümumi nəzarət həyata keçirmək

Qanun pozuntuları, risklər və mühüm məsələlər barədə Səhmdarların Ümumi Yığıncağını məlumatlandırmaq

İdarə Heyətinin üzvləri ilə bağlı maraq konflikti yarandıqda, onların müvəqqəti uzaqlaşdırılması barədə qərar qəbul etmək

Bankın maliyyə sabitliyi, likvidlik və kapital ehtiyatları ilə bağlı məsələləri nəzərdən keçirmək və tövsiyələr vermək

Audit hesabatlarını qəbul etmək və zəruri hallarda müstəqil auditorların cəlb olunmasını təmin etmək

"Banklar haqqında" Qanuna uyğun olaraq kommersiya maraqlarının açıqlanmasına dair hesabatları təsdiq etmək

Müşahidə Şurasının iclaslarını mütəmadi (ən azı üç aydan bir) keçirmək və qərarların qəbulunu təmin etmək

Şəkil 37. **Müşahidə Şurasının əsas vəzifələri**



Şəkil 38. **Müşahidə Şurasının üzvləri**

İdarə Heyəti

İdarə Heyəti icraedici idarəetmə orqanı kimi Bankın gündəlik fəaliyyətinin təşkili, təsdiq edilmiş strategiya və siyasətlərin icrası, habelə əməliyyat fəaliyyətinin səmərəli və nəzarətli şəkildə həyata keçirilməsinə görə məsuliyyət daşıyır. İdarə Heyəti Bankın strateji məqsədlərinin əməliyyat səviyyəsində icrasını təmin edir və korporativ idarəetmə çərçivəsinin əsas elementlərindən biri kimi çıxış edir.

2025-ci ildən etibarən Bankın icraedici idarəetmə strukturunda **mərhələli yenilənmə prosesi başlanmışdır.** Belə ki, **07 oktyabr 2025-ci il tarixindən etibarən** Bankın Müşahidə Şurasının qərarı ilə **Tural Həsənov** Bankın Baş Risk İnzibatçısı vəzifəsinə təyin edilmiş, 14 oktyabr 2025-ci il tarixindən isə **Bankın İdarə Heyətinin sədrinin vəzifələrini müvəqqəti icra edən şəxs** kimi fəaliyyətə başlamışdır. Bu təyinat çərçivəsində o, Bankın idarəetmə funksiyalarının fasiləsiz icrası və fəaliyyətin strateji prioritetlər çərçivəsində davam etdirilməsi istiqamətində məsuliyyət daşıyıb.

2025-ci ildə Ülvi Yusifov Bankın İdarə Heyətinin yeni üzvü, Günel Nəbiyeva isə sədr müavini təyin edilmişdir.



Nəbiyeva Günel

İdarə Heyətinin Sədri



Məmmədli Fuad

İdarə Heyəti Sədrinin Müavini, Baş Maliyyə İnzibatçısı



Yusifov Ülvi

İdarə Heyəti Sədrinin Müavini, Baş Biznes İnzibatçısı



Həsənov Tural

İdarə Heyəti Sədrinin Müavini, Baş Risk İnzibatçısı



Quliyev Fərid

İdarə Heyəti Sədrinin Müavini, Baş Kommersiya İnzibatçısı

Şəkil 39. **İdarə Heyətinin üzvləri**

Hesabat dövründən sonrakı hadisələr

Hesabat dövrü başa çatdıqdan sonra, **2026-cı ildə,** Bankın idarəetmə strukturunda mühüm dəyişikliklər baş vermişdir. Bu çərçivədə, **Günel Nəbiyeva** Səhmdarların Ümumi Yığıncağının **19.01.2026-cı il tarixli 01 nömrəli protokoluna əsasən** Bankın İdarə Heyətinin Sədri vəzifəsinə təyin olunmuşdur. **Fuad Məmmədli Bankın İdarə Heyətinin Sədrinin Müavini və Baş Maliyyə İnzibatçısı** vəzifəsinə, **Fərid Quliyev** isə **Bankın İdarə Heyətinin Sədrinin Müavini və Baş Kommersiya İnzibatçısı** vəzifəsinə təyin olunmuşdur. Qeyd olunan təyinatlar **2023–2025 hesabat dövrünün idarəetmə strukturu və nəticələrinə təsir göstərmir** və növbəti hesabat dövrlərində ətraflı açıqlanacaqdır.

İdarə Heyəti Sədrinin Aparatının Ümumi şöbəsi vasitəsilə qərarların icrasına nəzarət, bankdaxili normativ sənədlərin tərtibatı və təkmilləşdirilməsi, idarəetmə orqanlarının iclaslarının təşkili və protokollaşdırılması kimi funksiyalar həyata keçirilir. Bankın ümumi informasiya axını, sənəd dövriyyəsi, vətəndaş müraciətlərinin cavablandırılması və daxili kargüzarlığın icrası da İdarə Heyətinin struktur daxilində səmərəli işləməsini təmin edən əsas fəaliyyət istiqamətlərindən sayılır. Bu yanaşma İdarə Heyətinin qərarlarının həm strateji, həm də əməliyyat səviyyəsində effektiv şəkildə həyata keçirilməsinə zəmin yaradır.

Daxili Komitələr

ATB daxilində əməliyyat qərarlarının effektiv şəkildə idarə olunması məqsədilə ixtisaslaşmış komitə və komissiya formalaşdırılmışdır. Komitə üzvləri Bankın maraqlarının qorunması prinsipi əsasında fəaliyyət göstərir, komitələrin əsasnamələrinə uyğun olaraq müstəqil, şəffaf və obyektiv qərar qəbuletməni, həmçinin dayanıqlı inkişaf prinsiplərinin təmin olunmasını əsas götürürlər. **Bu komitələrin fəaliyyəti Bank daxilində "birinci səviyyəli nəzarət" funksiyasını yerinə yetirir və strateji qərarların icrasında mühüm rol oynayır.**

Audit Komitəsi

Komitənin əsas vəzifələri:

- Bank sənədləri və məlumatlarının kənar auditora vaxtında təqdim olunmasına nəzarət;
- İdarəetmə, uçot və əməliyyat siyasətlərinə dair nəzarət sistemlərinin təkmilləşdirilməsi;
- Daxili audit rəhbərinin təyin edilməsi və işdən azad olunmasına dair təkliflərin verilməsi;
- Daxili audit nəticələrinin İdarə Heyəti və Müşahidə Şurası ilə birgə müzakirəsi;
- Ümumi Yığıncağa hesabatların təqdim edilməsi;
- Daxili nəzarət mexanizmlərinin təkmilləşdirilməsi barədə MŞ-a təkliflərin verilməsi;
- Audit hesabatının təqdim edilməsi.

Risklərin İdarəetmə Komitəsi

Komitənin əsas vəzifələri:

- Risk strategiyası, siyasəti və qaydalarının hazırlanması və təqdim olunması;
- Risk iştahası bəyannaməsi və limitlərinin təsdiq üçün təqdim edilməsi;
- Risk idarəetmə funksiyasının və bölməsinin fəaliyyətinin qiymətləndirilməsi;
- Limit pozuntuları və bazar şəraiti üzrə risk təkliflərinin verilməsi;
- Risk mədəniyyətinin qiymətləndirilməsi və təkmilləşdirilməsi;
- Baş Risk İnzibatçısının aylıq hesabatlarının nəzərdən keçirilməsi;
- Risk metodologiya və alətlərinin seçilməsi və tətbiq tezliyinin müəyyənləşdirilməsi;
- Götürülmüş risklərin strategiyaya uyğunluğunun monitorinqinin həyata keçirilməsi;
- Risklərin vəziyyəti və sistemin effektivliyi üzrə hesabat hazırlanması;
- Likvidlik üzrə əməliyyatlara nəzarət edilməsi;
- Risk siyasəti, risk limitləri, əməliyyat riskləri və stress testlərin mütəmadi təhlili;
- Fövqəladə hallar planının nəzərdən keçirilməsi və təqdim edilməsi.

Korporativ İdarəetmə Komitəsi

Komitənin əsas vəzifələri:

- Bankın təşkilati və idarəetmə strukturunun korporativ idarəetmə standartlarına uyğunluğuna nəzarət edilməsi, uyğunsuzluqlar barədə MŞ-ı məlumatlandırıb onların aradan qaldırılması üzrə təkliflər verilməsi;
- Korporativ idarəetmə üzrə qanunvericilik dəyişikliklərinin tətbiqinə dair MŞ-a təkliflər təqdim edilməsi;
- Təşkilati strukturda (Daxili Audit departamenti istisna olmaqla) dəyişiklik təkliflərini nəzərdən keçirərək MŞ-a təqdim edilməsi;
- Açıqlanmalı olan korporativ idarəetmə məlumatlarının vaxtında və düzgün açıqlanmasının təmin edilməsi.

Komitənin mükafatlandırmaya dair vəzifələri:

- Mərkəzi Bankın standartlarına uyğun mükafatlandırma siyasətini hazırlayıb MŞ-a təqdim edilməsi;
- Mükafat prosesinə nəzarət və ildə bir dəfə sistemin səmərəliliyinin qiymətləndirilməsi;
- Mükafat məbləği və dəyişikliklər üzrə təkliflərin hazırlanması;
- Xüsusi kateqoriyalı işçilər və İdarə Heyəti üzvlərinin göstəricilərinin qiymətləndirilməsi;
- Daxili normativlərin hüquqi uyğunluğunun təmin edilməsi.

Komitənin təyinatlara dair vəzifələri:

- MŞ, İH və onların komitələrinə namizədlərlə bağlı tövsiyə verilməsi;
- Bu orqanlar üçün kadr ehtiyatının formalaşdırılmasına nəzarət edilməsi;
- Müstəqil üzvlərin təyinatı, vəzifələri və ödəniş meyarlarının müəyyən edilməsi;
- Müstəqil ekspertlərin seçilmə meyarlarının müəyyənləşdirilməsi.

İnformasiya Texnologiyaları (İT) Komissiyası

Komissiyanın əsas vəzifələri:

- İT büdcəsi üzrə hesabatların hazırlanması;
- İT layihələrində müşahidəçi və məsləhətçi kimi fəaliyyət göstərilməsi;
- İT planlarının hazırlanması və Bankın strategiyasına uyğunluğunun təmin edilməsi;
- İT üzrə kapital xərclərinə dair İH və MŞ-a tövsiyələrin verilməsi;
- Proqram təminatı və avadanlıqların əldə olunmasının əsaslandırılması, proqram təminatı və avadanlıqların satınalması üzrə təkliflərin verilməsi;
- İT sahəsində təlim və texnoloji səriştənin təmin olunmasına nəzarət;
- Tədqiqat və inkişaf fəaliyyətlərinin dəstəklənməsi;
- Alınacaq İT avadanlıqlarının texniki parametrlərinin müəyyən edilməsi;
- Təhlükəsizlik, parol iyerarxiyası, məlumatlara giriş və ehtiyat surətlərinin yaradılması, elektron arxivlərin aparılması və s. tövsiyələrin verilməsinə dair İH-ə təkliflərin verilməsi.

Aktiv və Passivləri İdarəetmə Komissiyası

Komissiyanın əsas vəzifələri:

- Aktiv və passivlərin idarə olunmasının təşkil edilməsi və qiymətləndirilməsi;
- Daxili qiymətləndirmə mexanizmlərinin tətbiqi və təkmilləşdirilməsi üzrə təkliflərin verilməsi;
- Bankın likvidliyinin idarə olunması ilə bağlı müəyyən olunmuş qaydalara riayət edilməsi və vəzifələrin icrası ilə bağlı tədbirlərin həyata keçirilməsi;
- Maliyyə vəsaitlərinin idarə edilməsi istiqaməti və hədəflərinin müəyyənləşdirilməsi;
- Aktiv və passivlərin idarə olunmasında qanunvericilik tələblərinə riayət olunmasının təmin edilməsi;
- İnvestisiya itkilərinin qiymətləndirilməsi, balansdan silinməsi və bərpası ilə bağlı təkliflərin verilməsi;
- Əsas vəsaitlərin bazar qiymətinə uyğun yenidən qiymətləndirilməsi və maliyyə komponenti kimi saxlanılması üzrə təkliflər irəli sürülməsi.

Etik və Sosial Məsələlər üzrə Komissiya

Komissiyanın əsas vəzifələri:

- mütəmadi şəkildə işçilərə etik qaydalar və sosial məsuliyyət mövzularında təlimlərin keçirilməsinin təmin edilməsi, onların bu sahələrdə məlumatlılığının artırılması;
- işçilərin mənəvi rifahının təmin edilməsinə dəstək olunması və onların sosial, maddi ehtiyaclarının nəzərə alınmasının təmin edilməsi;
- Bank daxilində şəffaflıq və ədaləti təmin edən mexanizmlərin qurulması;
- etik standartlara əməl olunmasının izlənməsi və müvafiq pozuntuların qarşısının alınması;
- işçilərin irad və təkliflərinin qiymətləndirilməsi;
- sağlam, təhlükəsiz və ədalətli iş şəraitinin təmin edilməsi;
- işçilər arasında qarşılıqlı hörmət və əməkdaşlığın təşviq edilməsi;
- qanunvericiliklə və ya digər normativ aktlarla müəyyən edilmiş meyarlar əsasında azəminatlı qruplardan olan işçilərə sosial yardımın göstərilməsinə dəstək olunması;
- işçilərin sosial inteqrasiyasını gücləndirən layihələrin həyata keçirilməsi;
- gender bərabərliyi, inklüzivlik və müxtəliflik prinsiplərinə riayət olunmasına nəzarət edilməsi;
- işçilərin ixtisas səviyyəsinin artırılması və təhsil imkanlarının yaradılmasının təmin edilməsi;
- sosial problemlərin həllinə dair təkliflər hazırlanması və Bankın İdarə Heyətinə təqdim edilməsi;
- KSM ilə əlaqəli olan layihələrə (sosial və ekoloji layihələr) nəzarətin həyata keçirilməsi;
- Etik və KSM sahəsində Bankın tərəfdaşları, dövlət qurumları, qeyri-hökumət təşkilatları və digər maraqlı tərəflərlə əməkdaşlığın qurulması və inkişaf etdirilməsinin təşviq edilməsi;
- Bank daxilində nizam-intizam pozuntusu ilə bağlı hallara aid olan məsələlərin araşdırılması və lazımi tədbirlərin görülməsinin təmin olunması.

Korporativ Kreditlər Komissiyası

Komissiyanın əsas vəzifələri:

- Bankın kredit siyasətinə uyğun fəaliyyət göstərməsi;
- Ayda bir dəfədən az olmamaq şərti ilə kreditlərin verilməsinə dair müraciətlərin qiymətləndirilməsi;
- Bankdaxili qaydalara uyğun şəkildə korporativ kreditlərin verilməsi ilə bağlı olan qərarların qəbul edilməsi.

Kiçik və Orta Biznes Kreditləri Komissiyası

Komissiyanın əsas vəzifələri:

- Bankın kredit siyasətinə uyğun fəaliyyət göstərməsi;
- Ayda bir dəfədən az olmamaq şərti ilə kreditlərin verilməsinə dair müraciətlərin qiymətləndirilməsi;
- Bankdaxili qaydalara uyğun şəkildə KOB kreditlərin verilməsi ilə bağlı olan qərarların qəbul edilməsi.

Pərakəndə Kreditlər Komissiyası

Komissiyanın əsas vəzifələri:

- Bankın kredit siyasətinə uyğun fəaliyyət göstərməsi;
- Ayda bir dəfədən az olmamaq şərti ilə kreditlərin verilməsinə dair müraciətlərin qiymətləndirilməsi;
- Bankdaxili qaydalara uyğun şəkildə pərakəndə kreditlərin verilməsi ilə bağlı olan qərarların qəbul edilməsi.

5.1 Azərbaycan Bank Sektorunda Risk Mühiti

Hesabat **dövrü ərzində** Azərbaycan bank sektoru **makroiqtisadi sabitlik** şəraitində fəaliyyət göstərsə də, risk mühiti struktur və sistem xarakterli amillərlə formalaşmışdır. Bu dövrdə **istehlak kreditləşməsinin artımı və borcluluq səviyyəsinin yüksəlməsi** prudensial nəzarətin gücləndirilməsini şərtləndirmiş, **kredit standartlarının və risk limitlərinin** yenidən nəzərdən keçirilməsinə səbəb olmuşdur.

Valyuta riskləri və **dollarlaşma səviyyəsi,** eləcə də depozit bazasında **konsentrasiya, likvidlik və bazar risklərinin** əsas amilləri kimi qalmaqda davam etmişdir. Banklar **açıq valyuta mövqelərinin məhdudlaşdırılması və likvidlik buferlərinin qorunması** istiqamətində daha ehtiyatlı yanaşma tətbiq etmişdir.

Rəqəmsal transformasiya proseslərinin sürətlənməsi əməliyyat riskləri və kiberrisklərin əhəmiyyətini artırmışdır. **İnformasiya təhlükəsizliyi, insidentlərin vaxtında aşkarlanması və erkən xəbərdarlıq mexanizmləri** risk idarəetmə sistemlərinin əsas prioritet istiqamətlərindən olmuşdur.

Eyni zamanda, **dayanıqlı maliyyə gündəliyinin güclənməsi və tənzimləyici çərçivələrin inkişafı** bankların kredit və investisiya qərarlarında **ekoloji və sosial risklərin** nəzərə alınmasını aktuallaşdırmışdır. Bu dövrdə **ESG amillərinin risklərin qiymətləndirilməsi proseslərinə inteqrasiyası** sektorda əsas inkişaf istiqamətlərindən biri olmuşdur.

Risklərin İdarə Olunması

Risklərin effektiv idarə olunması ATB üçün uzunmüddətli dayanıqlılıq, maliyyə sabitliyi və məsuliyyətli idarəetmə öhdəliyinin əsasını təşkil edir. Bank, həm ənənəvi, həm də yeni yaranan risklərin — o cümlədən ətraf mühit, sosial və idarəetmə (ESG) amillərinin — dinamik xarakterini nəzərə alaraq, potensial təhdid və imkanların qabaqcadan **müəyyənləşdirilməsi, qiymətləndirilməsi, azaldılması və monitorinqi** məqsədilə risklərin idarə olunması çərçivəsini davamlı olaraq təkmilləşdirir.

Bankda Risklərin idarə edilməsi:

- "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununa,
- ARMB-nin "Banklarda kredit risklərinin idarə edilməsi Qaydaları",
- "Kredit riskləri, o cümlədən iri kredit riskləri ilə bağlı prudensial normativ və tələblərə dair Qayda",
- Banklarda likvidlik riskinin idarə edilməsi Qaydası
- "Banklarda bazar risklərinin idarə edilməsi" Qaydası
- "Banklarda əməliyyat risklərinin idarə edilməsi" Qaydası
- "Banklarda korporativ idarəetmə standartları" və digər normativ hüquqi aktlarına əsaslanır.

Bankın Risklərin İdarə Edilməsi Siyasətinə əsaslanaraq, Risklərin İdarəetmə Komitəsi (RİK) və Risklərin Menecmenti Departamentinin (RMD) nəzarəti ilə risklərin idarə olunmasına dair əsas yanaşmalar müəyyənləşdirilmişdir. Risklərin İdarəetmə Komitəsi Bankın Müşahidə Şurasının 18 sentyabr 2024-cü il tarixli qərarı ilə təsis olunmuşdur.

2025-ci ildə Risklərin İdarə Edilməsi Siyasətinin əsas prinsipləri və struktur çərçivəsi dəyişməz qalmışdır. Bununla yanaşı, siyasətin tətbiqi sektor üzrə dəyişən tənzimləyici mühit və risk profili nəzərə alınmaqla davam etdirilmişdir.

ATB-nin Risklərin İdarə Edilməsi Siyasətinin əhatə dairəsi:

- Risklərin səmərəli idarə olunması
- Əsas risk növlərinin müəyyənləşdirilməsi və təsnifatı (kredit, bazar, əməliyyat, likvidlik və s.)
- Risk İştahası Bəyannaməsinin və risk limitlərinin hazırlanması və tətbiqi
- Risklərin idarəsi üzrə üç müdafiə xətti modelinin tətbiqi
- Stress-testlər və ssenari analizləri vasitəsilə risk dayanıqlığının qiymətləndirilməsi
- Risklərin idarəsində Müşahidə Şurası, İdarə Heyəti, RİK, RMD və digər aidiyyəti struktur bölmələrin səlahiyyətlərinin bölüşdürülməsi
- Yeni məhsul və xidmətlər üzrə risklərin ilkin mərhələdə qiymətləndirilməsi və təsdiqlənməsi
- Məlumatların konsolidasiyası və daxili risk hesabatlılıq sisteminin qurulması
- Risklərin identifikasiyası, ölçülməsi, ümumiləşdirilməsi və dəyərləndirilməsi üzrə metodologiyaların tətbiqi
- Tənzimləyici orqanların və beynəlxalq tövsiyələrin (Bazel II/III) tələblərinə uyğunluğun təmin edilməsi
- Daxili audit və komplayens funksiyalarının risklərin idarə edilməsinə inteqrasiyası
- Fövqəladə hallar üzrə tədbirlərin hazırlanması və risk planlarına daxil edilməsi
- Risk məlumatlarının İdarə Heyəti və Müşahidə Şurası üçün strukturlaşdırılmış hesabatlarla təqdim olunması
- Bank üzrə qəbul edilmiş risklərin gündəlik monitorinqi və limitlər çərçivəsində izlənilməsi
- Risk idarəetmə sisteminin dövri olaraq nəzərdən keçirilməsi və ehtiyac olduqda təkmilləşdirilməsi

2025-ci ildə Risklərin İdarəetmə Komitəsinin mandatı və funksional çərçivəsi dəyişməz qalmışdır. Komitə risk iştahası çərçivəsinin tətbiqinə və əsas risk kateqoriyaları üzrə limitlərin monitorinqinə nəzarəti davam etdirmişdir.

Komitənin üzvləri

RİK, Müşahidə Şurası tərəfindən 3 ildən çox olmayan müddətə təyin olunan və səsvermə hüququna malik üzvlərdən ibarətdir. Üzvlər risklərin idarə edilməsi sahəsində müvafiq iş təcrübəsi, təhsili və peşəkar biliklərinə əsasən seçilirlər. Komitənin ən azı bir üzvü Müşahidə Şurasının müstəqil üzvüdür.

Komitə hesabatları

Komitə iclasları üç ayda bir dəfədən az olmayaraq keçirilir və iclasın nəticələri barədə MŞ-a hesabat verilir. Komitə üzvləri iclaslarda şəxsən və ya məsafədən – video, telefon, kommunikasiya tətbiqləri və ya elektron poçt vasitəsilə iştirak edə bilərlər. Bu iştirak forması protokolda qeyd olunmalı, təsdiqedici materiallar (yazılar və sənədlər) bankda ən azı üç il saxlanmalı və üzvlər səsvermədə mövqelərini rəsmi şəkildə yazılı və ya imzalı formada bildirməlidirlər.

Komitənin səlahiyyəti

Komitə, Bankın risklərin idarə edilməsi strategiyasına sadiqliyin təmin olunması və qüvvədə olan qanunvericiliyə uyğunluğun qorunması məqsədilə zəruri tədbirləri görmək səlahiyyətinə malikdir. Komitənin əsasnaməsinə ediləcək hər hansı dəyişiklik MŞ-nın təsdiqini tələb edir.

Şəkil 40. **Risklərin İdarəetmə Komitəsi (RİK)**

Komitə, risklərin effektiv şəkildə idarə olunmasını təmin etmək məqsədilə daxili komitələrin fəaliyyətini əlaqələndirir və ümumi risk nəzarətinə rəhbərlik edir.




Şəkil 41. **Risklərin İdarəetmə Komitəsinin məqsədləri**

Risk Menecmenti Departamenti (RMD)

Risk Menecmenti Departamenti risklərin effektiv idarə edilməsi məqsədilə Bankın müxtəlif struktur bölmələri ilə koordinasiyalı şəkildə fəaliyyət göstərir. Departament tələb olunan məlumatların tərkibini müəyyən edir, risklərin siyahısını hazırlayır və məlumatları toplayaraq onların təhlilini aparır. Əldə edilmiş məlumatlar əsasında əməliyyat riskləri müəyyən olunur, vaxtaşırı qiymətləndirilir və risk dərəcələri təyin edilir. Hər bir riskə məsul olan struktur bölmələr və vəzifələr müəyyənləşdirilir.


Bankın risklərin idarə edilməsi sistemi aşağıdakı əsas prinsipləri təmin edir:



Şəkil 42. **Risklərin idarə edilməsi prinsipləri**

Risklərin idarə edilməsi sistemi Bankda risk haqqında məlumatlılıq, səlahiyyətlərin dəqiq bölüşdürülməsi və proseslərin reqlamentləşdirilməsi prinsipləri əsasında təşkil olunur; bütün qərar və əməliyyatlar risklərin hərtərəfli təhlili və müvafiq normativ sənədlər çərçivəsində həyata keçirilir. Sistem eyni zamanda risklərə davamlı nəzarət, üç müdafiə xətti modeli və sağlam risk mədəniyyəti prinsiplərinə əsaslanaraq kollektiv məsuliyyət və effektiv nəzarət mexanizmini təmin edir.


Risklərin idarə edilməsi strukturu




Şəkil 43. **Risklərin idarə edilməsi strukturu**

Risklərin idarə edilməsi üçün əsas funksiya və məsuliyyətlərin bölüşdürülməsi

Bankda risklərin idarə edilməsi funksiyası fəaliyyətin həcmi və mürəkkəbliyinə uyğun olaraq mərkəzləşdirilmiş və ya ixtisaslaşmış struktur bölmələr vasitəsilə həyata keçirilir. Müvafiq struktur bölmələr risklərin qiymətləndirilməsi, təhlili, monitorinqi və hesabatlılığı, stress-testlərin keçirilməsi və tədbirlər planlarının hazırlanması, eləcə də risklərin idarə edilməsi üzrə daxili qaydaların, Risk İştahası Bəyannaməsinin və Fövqəladə Hallar Planının formalaşdırılması və yenilənməsinə məsuliyyət daşıyır.



Şəkil 44. **Struktur bölmələrin üzləşdiyi risklər**



Şəkil 45. **Əməliyyat risklərinin idarə edilməsi qaydası**

Risk növləri və onların yaranma səbəbləri

Bankın fəaliyyətinin dayanıqlılığına təsir göstərə bilən əsas risklər müntəzəm olaraq müəyyən edilir, qiymətləndirilir və idarə olunur. Risklərin idarə edilməsi çərçivəsi bankın strateji məqsədlərinə, risk iştahası bəyannaməsinə və tənzimləyici tələblərə uyğun şəkildə qurulmuşdur.

Cədvəl 2. **Risk növləri və yaranma səbəbləri**

Kredit riski

Kredit riski borcalanların öz öhdəliklərini tam və vaxtında yerinə yetirə bilməməsi ehtimalı ilə əlaqədardır və aşağıdakı əsas amillərdən qaynaqlana bilər:

- Kreditlərin verilməsi mərhələsində borcalanların maliyyə vəziyyətinin, pul axınlarının və ödəmə qabiliyyətinin kifayət qədər dərin və hərtərəfli qiymətləndirilməməsi;
- Borcalanların qiymətləndirilməsi zamanı kəmiyyət və keyfiyyət göstəricilərinə əsaslanan daxili risk reytinqi və skorinq modellərinin məhdud tətbiqi;
- Kredit portfeli üzrə vintaj təhlillərinin, keçid matrislərinin və portfel dinamikasını əks etdirən analitik alətlərin sistemli və davamlı tətbiq edilməməsi;
- Portfel yanaşması çərçivəsində defolt ehtimalı (PD), defolt halında itki (LGD) və defolta məruz qalan dəyər (EAD) göstəricilərinin düzgün modelləşdirilməməsi və kifayət qədər analitik əsaslandırılmaması;
- Kredit risklərinin erkən mərhələdə aşkar edilməsi məqsədilə empirik analizlərin, davranış skorinq modellərinin və erkən xəbərdarlıq mexanizmlərinin yetərli səviyyədə tətbiq edilməməsi;
- Kredit portfelində risk konsentrasiyalarının və artım meyllərinin vaxtında müəyyən edilməsi üçün davamlı monitorinq mexanizmlərinin zəifliyi.

Bazar riski

Bazar riski maliyyə bazarlarında baş verən dəyişikliklər nəticəsində bankın gəlirlərinə və kapitalına mənfi təsir göstərilməsi ehtimalını əhatə edir və aşağıdakı alt-kateqoriyalara bölünür:

- Faiz dərəcəsi riski – faiz dərəcələrinin əlverişsiz dəyişməsi nəticəsində bankın faiz gəlirləri və iqtisadi dəyərinə mənfi təsirin yaranması;
- Valyuta riski – xarici valyuta məzənnələrinin dəyişməsi nəticəsində açıq valyuta mövqelərinə mənfi təsirin formalaşması;
- Kapital (qiymətli kağızlar) riski – bankın investisiya portfelində saxladığı qiymətli kağızların bazar dəyərinin azalması ilə bağlı risk.

Cədvəl 2. **Risk növləri və yaranma səbəbləri**

Likvidlik riski

Likvidlik riski bankın öz maliyyə öhdəliklərini vaxtında və itkisiz yerinə yetirə bilməməsi ehtimalını ifadə edir və aşağıdakı səbəblərlə bağlı yarana bilər:

- Likvidlik vəziyyətinin və əsas kəmiyyət göstəricilərinin (ani likvidlik, LCR, NSFR və s.) kifayət qədər sistemli şəkildə monitorinq edilməməsi;
- Stress-test və ssenari analizlərinin aparılmaması və ya real bazar şərtlərini adekvat əks etdirməməsi;
- Likvidlik risklərinin erkən mərhələdə aşkar edilməsi üçün erkən xəbərdarlıq mexanizmlərinin qeyri-kafi olması;
- Bank fəaliyyətinin təsdiq edilmiş likvidlik standartları və daxili normativlər çərçivəsində icrasına nəzarətin zəif təşkili;
- Likvidlik boşluqlarının (likvidlik qəplərinin) düzgün müəyyən edilməməsi və vaxtında təhlil olunmaması;
- Maliyyələşmə mənbələrinin kifayət qədər diversifikasiya edilməməsi və onların dayanıqlılıq səviyyəsinin zəif qiymətləndirilməsi;
- Valyutalar üzrə proqnozlaşdırılan nağd pul axınlarının qeyri-dəqiq planlaşdırılması;
- Yerləşdirmə və likvidlik riskləri üzrə limit mexanizmlərinin tətbiqində və icrasında mövcud boşluqlar.

Əməliyyat riski

Əməliyyat riski daxili proseslərin, insan resurslarının, informasiya sistemlərinin və ya kənar hadisələrin təsiri nəticəsində maliyyə və ya qeyri-maliyyə itkilərinin yaranması ehtimalını əhatə edir. Əsas alt-kateqoriyalar aşağıdakılardır:

- İnsan resursu riski – işçilərin səhvləri, daxili qaydaların və hüquqi tələblərin pozulması nəticəsində yaranan risklər;
- İT riski – informasiya sistemlərində baş verən nasazlıqlar, kiber risklər və məlumat təhlükəsizliyi ilə bağlı risklər;
- Hüquqi risk – qanunvericiliyin və daxili normativ aktların düzgün tətbiq edilməməsi nəticəsində yaranan risklər;
- Komplayens riski – ƏL/TMM və digər tənzimləyici tələblərə riayət edilməməsi ilə bağlı risklər;
- Kənar risklər – təbii fəlakətlər, üçüncü tərəflərin fəaliyyəti və fövqəladə hadisələr nəticəsində yaranan risklər.

Strateji risk

Strateji risk bankın uzunmüddətli strateji məqsədlərinin düzgün müəyyən edilməməsi, bazar şəraitinə adekvat uyğunlaşdırılmaması və ya təsdiq edilmiş strategiyanın effektiv icra edilməməsi nəticəsində yarana bilər.

Nüfuz riski bankın ictimaiyyət, müştərilər, investorlar və digər maraqlı tərəflər arasında etibarının azalması və mənfi rəyin formalaşması ilə əlaqədardır. Bu risk digər risk növlərinin reallaşması nəticəsində də güclənə bilər və ya likvidlik riskinə təsir edə bilər.

Layihə riski

Layihə riski bank daxilində həyata keçirilən strateji və əməliyyat layihələrinin icrası zamanı aşağıdakı amillərlə bağlı yarana bilər:

- Layihələr üzrə risk əsaslı prioritetlərin düzgün müəyyən edilməməsi və icra prosesində qalıq risklərə effektiv nəzarətin təmin olunmaması;
- Müvafiq icraçı struktur bölmələrlə koordinasiyanın və metodiki idarəetmə mexanizmlərinin qeyri-kafi olması;
- Layihə gedişatına dair müntəzəm monitorinqin aparılmaması, empirik təhlillərin və erkən xəbərdarlıq sistemlərinin yetərsiz tətbiqi, habelə risklər üzrə hesabatlılıq və analitik təhlillərin zəifliyi.

ESG riski

ESG riskləri ətraf mühit, sosial və korporativ idarəetmə amillərindən irəli gələrək bankın maliyyə və qeyri-maliyyə dayanıqlılığına mənfi təsir göstərə bilən risklərdir. Bu risklər digər əsas risk növləri ilə qarşılıqlı əlaqədə formalaşır.

- Ətraf mühit riskləri – iqlim dəyişmələri ilə bağlı fiziki və keçid riskləri, ekoloji tələblərin sərtləşməsi və borcalanların ətraf mühit üzrə öhdəliklərə riayət etməməsi nəticəsində kredit və portfel risklərinin artması;
- Sosial risklər – əmək hüquqları, insan hüquqları və müştəri hüquqlarının pozulması, eləcə də sosial məsuliyyət tələblərinə əməl edilməməsi nəticəsində yaranan hüquqi və nüfuz riskləri;
- İdarəetmə riskləri – idarəetmə strukturlarının zəifliyi, etik davranış və daxili nəzarət mexanizmlərində boşluqlar, habelə ESG risklərinin ümumi risk idarəetmə sisteminə kifayət qədər inteqrasiya edilməməsi.

Departament risklərin idarə olunması prosesinə dair nəticələri və risk meyilləri barədə dövri hesabatlar hazırlayaraq RİK-ə və İH-ə təqdim edir. Eyni zamanda, beynəlxalq təcrübələri araşdıraraq təkliflər verir, risk limitlərini hesablayır və dəyişikliklərlə bağlı təkliflər hazırlayır. Hər bir struktur bölmənin riskləri və bu risklərin daxili qaydalarla uyğunluğu təhlil edilir, zəruri hallarda dəyişikliklər təklif olunur. Ümumilikdə, risklərin idarə edilməsi prosesi risklərin müəyyən edilməsi, qiymətləndirilməsi, minimallaşdırılması, monitorinqi və hesabatlılığını əhatə edir.

ESG riskləri və yerli tənzimləyici kontekst

Azərbaycan maliyyə sektorunda dayanıqlı maliyyə gündəliyinin genişlənməsi bankların fəaliyyətinə təsir edən risklərə ESG amillərinin də daxil edilməsini zəruri etmişdir. Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən qəbul edilmiş "Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsi: 2023–2026" sənədində iqlim dəyişmələri və digər ESG amillərindən irəli gələn risklərə qarşı maliyyə institutlarının dayanıqlılığının artırılması, eləcə də bu sahədə yaranan imkanların dəyərləndirilməsi əsas istiqamətlər kimi müəyyən olunmuşdur.

Hesabat dövründə tənzimləyici çərçivədə baş verən yeniliklər ESG risklərinin idarə olunmasına dair gözləntiləri daha aydın şəkildə ortaya qoymuşdur. Bu baxımdan Mərkəzi Bank tərəfindən "Banklarda ekoloji risklərin idarə edilməsi üzrə təlimat" sənədinin təsdiqi və milli Yaşıl Taksonomiyanın qəbul edilməsi xüsusi əhəmiyyət kəsb edir.

Bank növbəti ildə ESG risklərini aşağıdakı əsas istiqamətlər üzrə nəzərdən keçirməyi planlayır:


- **Ətraf mühit (E):** iqlimlə bağlı fiziki və keçid riskləri, ekoloji tələblərə uyğunluq, resurslardan istifadə və ətraf mühitə təsirlərlə bağlı risklər;
- **Sosial (S):** əmək və insan hüquqları, müştəri hüquqları və məlumatların qorunması, sosial təsir və tərəfdaş zənciri riskləri;
- **Korporativ idarəetmə (G):** etik davranış, korrupsiya və maraqların toqquşması, idarəetmə və nəzarət mexanizmlərində boşluqlar.

Bu risklərin idarə olunması məqsədilə Bank tənzimləyici gözləntilərə uyğun olaraq ESG risklərinin **mövcud risk idarəetməsi çərçivəsinə inteqrasiyasını,** risklərin müəyyən edilməsi və monitorinqi üçün metodoloji yanaşmaların gücləndirilməsini, habelə müvafiq dövrlərdə açıqlamaların (dayanıqlılıq hesabatlılığı) mərhələli şəkildə genişləndirilməsini və risk iştahası çərçivəsində nəzərə alınmasını hədəfləyir. ESG riskləri Bank üçün əhəmiyyətli hesab olunur, çünki bu risklər kredit portfelinin keyfiyyətinə, uzunmüddətli maliyyə dayanıqlılığına və nüfuzuna birbaşa və dolayı təsir göstərə bilər.

Risklərin idarə edilməsi çərçivəsində Bank tərəfindən risklərin ölçülməsi və qiymətləndirilməsi məqsədilə aşağıdakı əsas alətlərdən istifadə olunur:

- İqtisadi kapital buferi
- Kontragent limitinin təyin olunması
- Açıq valyuta mövqeyi üzrə limitlər
- Müddət limitləri
- Stress-testlər
- Ssenari təhlilləri
- Maliyyə risklərinin idarə edilməsi

Şəkil 46. **Risklərin idarə edilməsi alətləri**



Risk İştahası Bəyannaməsi

Bankda maliyyə və qeyri-maliyyə risklərinin effektiv idarə olunması məqsədilə Risk İştahası Bəyannaməsi tətbiq olunur. Bankın risklərə münasibəti limitlər sistemi (qırmızı, sarı və yaşıl zonalar) vasitəsilə müəyyən edilir və bu çərçivədə risk iştahası üzrə kəmiyyət və keyfiyyət göstəriciləri, habelə dözümlülük hədləri formalaşdırılır. Müəyyən edilmiş limitlərdən kənarlaşma hallarında müvafiq tədbirlər planı hazırlanır və icra edilir.

Kredit, bazar, likvidlik və əməliyyat riskləri daxil olmaqla ölçülə bilən bütün əsas risk kateqoriyaları üzrə limitlər tətbiq olunur. Bu limitlər Bankın risk profili, fəaliyyət sahələri və strateji prioritetləri nəzərə alınmaqla müəyyən edilir. Müşahidə Şurası tərəfindən təsdiq edilmiş ümumi risk limitləri əsasında İdarə Heyəti və aidiyyəti daxili komitələr tərəfindən alt limitlər formalaşdırılır. Risk limitlərinə mütəmadi olaraq ildə bir dəfə baxılır və ehtiyac olarsa yenilənir. Ən azı ayda bir dəfə hesablanır və mütəmadi monitorinq olunur, habelə bazar şəraiti və strateji dəyişikliklər nəzərə alınmaqla yenidən nəzərdən keçirilir və zərurət olduqda yenilənir.

Hesabat dövründə, **19 mart 2025-ci il tarixində,** Bankın risklərin idarə edilməsi çərçivəsinin gücləndirilməsi məqsədilə Risk İştahası Bəyannaməsi yenilənmişdir. Yenilənmiş sənəd Bankın strateji hədəfləri və risklərin idarə edilməsi siyasəti ilə uzlaşdırılaraq **Müşahidə Şurası tərəfindən təsdiq edilmişdir.** Risk iştahası göstəriciləri Bankın əsas risk kateqoriyaları üzrə qərarvermə proseslərinə inteqrasiya olunmuşdur.

Risklərin monitorinqi

RMD-nin tərkibində fəaliyyət göstərən Monitorinq Şöbəsi Bankın kredit portfelinin effektiv idarə olunması, kredit risklərinin erkən mərhələdə müəyyən edilməsi və potensial itkilərin minimallaşdırılması məqsədilə davamlı əsasda fəaliyyət göstərir.

Monitorinq Şöbəsi biznes kreditləri üzrə kredit verildikdən sonrakı mərhələdə nəzarət funksiyasını həyata keçirir. Bu çərçivədə şöbə kredit vəsaitlərinin təyinatı üzrə istifadə olunmasını, borcalanların maliyyə vəziyyətində baş verən dəyişiklikləri, pul axınlarını, borc xidmət etmə qabiliyyətini, eləcə də girov təminatlarının mövcudluğunu və adekvatlığını dövri əsasda yoxlayır və qiymətləndirir.

Şöbə kredit portfeli üzrə potensial və real risklərin, o cümlədən mümkün itkilərin müəyyən edilməsi və təhlilini daxili normativ sənədlərlə müəyyən edilmiş risk meyarları və erkən xəbərdarlıq indikatorları əsasında həyata keçirir.

Monitorinq prosesi sistemli və davamlı şəkildə aparılır və aparılan təhlillərin nəticələri rüblük əsasda və ya zərurət yarandıqda hesabat formasında İdarə Heyətinə təqdim edilir.

Bankın risklərin idarə olunması sistemi prudensial prinsiplərə əsaslanaraq maliyyə dayanıqlığını və maraqlı tərəflərin etimadını təmin etməyə xidmət edir.



Kibertəhlükəsizlik və məlumatların qorunması

ATB-də informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik Bankın ümumi risk idarəetmə sisteminin ayrılmaz tərkib hissəsidir və rəhbərlik səviyyəsində nəzarətdə saxlanılır. İnformasiya təhlükəsizliyi üzrə fəaliyyətlər **İnformasiya Təhlükəsizliyi Mərkəzi (İTM)** tərəfindən həyata keçirilir.

Bankda informasiya təhlükəsizliyi üzrə idarəetmə aşağıdakı çərçivələrə əsaslanır:

- **PCI DSS**
- Azərbaycan Respublikasının "Fərdi məlumatlar haqqında" və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunları
- Mərkəzi Bankın normativ tələbləri
- Bankın daxili İnformasiya Təhlükəsizliyi Siyasəti

Təhlükəsizlik siyasətlərinin hazırlanması və tətbiqi	Məlumatların qorunması, məxfi məlumatlara giriş hüquqlarının idarə edilməsi və kibertəhlükəsizlik qaydaları müəyyən edilir
Risklərin idarə edilməsi	Bankın informasiya sistemlərinə qarşı potensial təhlükələrin qiymətləndirilməsi və onların qarşısının alınması üçün tədbirlərin həyata keçirilməsi
Uyğunluq və tənzimləyici tələblərin icrası	Bankın informasiya təhlükəsizliyi ilə bağlı milli və beynəlxalq standartlara (PCI DSS və s.) uyğun fəaliyyət göstərməsi
Monitorinq və nəzarət sistemləri	Bankın informasiya sistemlərində hər hansı şübhəli fəaliyyətin müəyyən edilməsi və monitorinq aparılması

Şəkil 47. **İnformasiya təhlükəsizliyinin təşkili**


Texnoloji nəzarət və çoxsəviyyəli müdafiə yanaşması

2023–2025 dövründə Bank kibertəhlükəsizlik arxitekturasını çoxsəviyyəli müdafiə modeli əsasında inkişaf etdirmişdir. Bu çərçivədə həm xarici, həm də daxili şəbəkə perimetrləri üzrə nəzarət mexanizmləri gücləndirilmişdir.

Xarici perimetr üzrə informasiya sistemlərinin kənar kiberhücumlara qarşı dayanıqlılığının artırılması məqsədilə şəbəkə və tətbiq səviyyəsində monitorinq və filtrasiya mexanizmləri tətbiq olunur. Təhlükəsizlik alətləri vasitəsilə potensial "cyber attack" ssenarilərinin erkən aşkarlanması və qarşısının alınması təmin edilir. Bu yanaşma Bankın rəqəmsal xidmətlərinin fasiləsizliyini və məlumatların bütövlüyünü qorumağa xidmət edir.

Daxili perimetr üzrə isə daxili risklərin ("insider threat") müəyyən edilməsi məqsədilə son istifadəçi mühiti və sistem səviyyəsində nəzarət mexanizmləri tətbiq olunur. Təhlükəsizlik hadisələrinin mərkəzləşdirilmiş izlənməsi, loq analizləri və son nöqtə mühafizə həlləri vasitəsilə icazəsiz fəaliyyətlərin qarşısının alınması və risklərin aşkarlanması təmin edilir.

Bu yanaşma Bankın həm xarici kiberhücumlara, həm də daxili təhlükələrə qarşı dayanıqlığını sistemli şəkildə gücləndirmiş və əməliyyat davamlılığının təmin edilməsinə töhfə vermişdir.



Şəkil 48. **Çoxsəviyyəli müdafiə modeli**

2025-ci il üzrə kibertəhlükəsizlik infrastrukturunun təkmilləşdirilməsi

2025-ci il ərzində Bankın kibertəhlükəsizlik arxitekturası risk əsaslı yanaşma çərçivəsində daha da gücləndirilmiş və həm xarici, həm də daxili perimetr üzrə qoruma mexanizmləri təkmilləşdirilmişdir. Bu istiqamətdə aşağıdakı texnoloji həllər tətbiq edilmiş və optimallaşdırılmışdır:


Xarici perimetr üzrə:

- **Təhdid kəşfiyyatı proqram kompleksi** – potensial kiberhücumların erkən aşkarlanması və təhlükə kəşfiyyatı mexanizmlərinin gücləndirilməsi məqsədilə;
- **WAF (Web Application Firewall)** – tətbiq səviyyəsində hücumların qarşısının alınması və veb resursların qorunması üçün;
- **Mail Security** – fişinq və zərərli elektron poçt hücumlarının qarşısının alınması məqsədilə.

Daxili perimetr üzrə:

- **XDR** – son nöqtə (endpoint) təhlükəsizliyinin və daxili təhlükələrin aşkarlanmasının gücləndirilməsi üçün;
- **SIEM** – təhlükəsizlik hadisələrinin mərkəzləşdirilmiş monitorinqi və loq analizlərinin aparılması məqsədilə.

Tətbiq edilən bu alətlər Bankın kiberhücumlara qarşı dayanıqlılığının artırılmasına, insidentlərin daha operativ aşkar edilməsinə və əməliyyat davamlılığının gücləndirilməsinə xidmət etmişdir.



Şəkil 49. **2025-ci il üzrə kibertəhlükəsizlik təkmilləşdirmələri**

Girişlərin idarə olunması

İnformasiya sistemlərinə girişlərin effektiv və təhlükəsiz şəkildə idarə olunması məqsədilə bankda RBAC (Role-Based Access Control – Rol əsaslı girişə nəzarət) yanaşması tətbiq edilir. Bu yanaşma beynəlxalq informasiya təhlükəsizliyi standartlarına, o cümlədən PCI DSS və ISO/IEC 27001 tələblərinə uyğun şəkildə həyata keçirilir.

Bir sıra əsas sistemlər üzrə RBAC matrisləri hazırlanmış və tətbiq edilmişdir. Bu matrislər vasitəsilə istifadəçi səlahiyyətləri sistematik şəkildə tənzimlənir və məlumat resurslarına girişlər minimum zəruri prinsip əsasında təmin olunur. Giriş hüquqları mütəmadi olaraq nəzərdən keçirilir və dəyişikliklər strukturlaşdırılmış prosedurlar çərçivəsində həyata keçirilir. Hazırda RBAC matrislərinin tam formalaşdırılması prosesi davam edir. Hazırlanmış "RBAC Matrix"-lər istifadə olunur.

2025-ci il üzrə qarşısı alınmış kiberhücumlar üzrə göstəricilər

2025-ci il ərzində Bankın tətbiq etdiyi çoxsəviyyəli müdafiə mexanizmləri vasitəsilə əhəmiyyətli sayda kiberhücum cəhdinin qarşısı alınmışdır. Təhlükəsizlik alətlərinin monitorinq nəticələrinə əsasən:

- **WAF (Web Application Firewall)** vasitəsilə – **1,579,375** hücum cəhdi bloklanmışdır;
- **Email Gateway (Mail Security)** vasitəsilə – **25,455** zərərli və fişinq xarakterli elektron poçt cəhdi zərərsizləşdirilmişdir;
- **XDR (Extended Detection and Response)** həlli vasitəsilə – **15,428** daxili və son nöqtə səviyyəsində təhlükə aşkarlanaraq qarşısı alınmışdır.

Bu göstəricilər Bankın kibertəhlükəsizlik arxitekturasının effektivliyini, erkən aşkarlama və operativ cavab mexanizmlərinin funksionallığını, həmçinin rəqəmsal infrastrukturun dayanıqlılıq səviyyəsinin gücləndirildiyini təsdiq edir.

Məlumatların qorunması və məxfilik

ATB müştəri, əməkdaş və digər kontragentlərin şəxsi və maliyyə məlumatlarının qorunmasını prioritet hesab edir. Məlumatların məxfiliyi, bütövlüyü və əlçatanlığı prinsipləri Bankın informasiya təhlükəsizliyi siyasətinin əsasını təşkil edir.

Bu istiqamətdə:

- Məlumatların şifrələnməsi və təhlükəsiz saxlanılması təmin olunur;
- Məlumatların təsnifatı və saxlanma müddətləri müəyyən edilir;
- Üçüncü tərəflərlə məlumat mübadiləsi zamanı təhlükəsizlik tələbləri tətbiq olunur.

Bank məlumatların qorunması sahəsində beynəlxalq standartlara uyğunluq və davamlı nəzarət mexanizmləri əsasında fəaliyyət göstərir.

İnformasiya təhlükəsizliyi insidentlərinin idarə olunması

İnformasiya təhlükəsizliyi insidentlərinin idarə olunması strukturlaşdırılmış siyasət və prosedurlar əsasında həyata keçirilir. Təhlükəsizlik hadisələri fasiləsiz monitorinq edilir və müəyyən edilmiş cavab planları çərçivəsində operativ tədbirlər görülür.

İnsidentlərin idarə olunması prosesi aşağıdakı mərhələləri əhatə edir:

- Hadisələrin qeydiyyatı və təsnifatı;
- Təsirin qiymətləndirilməsi;
- Bərpa və risklərin azaldılması tədbirləri;
- Təhlil və təkmilləşdirmə tədbirlərinin müəyyən edilməsi.

Hesabat dövrü ərzində risklərin və insidentlərin idarə olunması sahəsində davamlı təkmilləşdirmə yanaşması tətbiq edilmişdir. Bu çərçivədə Risk Management və Incident Management proseslərinin optimallaşdırılması istiqamətində işlər aparılmış, nəzarət mexanizmləri və hesabatlılıq alətləri strukturlaşdırılmış və proseslərin effektivliyi artırılmışdır.

Aparılmış optimallaşdırma tədbirləri insidentlərə reaksiya mexanizmlərinin daha çevik və sistemli şəkildə həyata keçirilməsinə, risklərin daha operativ izlənilməsinə və əməliyyat davamlılığının gücləndirilməsinə töhfə vermişdir.



İnformasiya təhlükəsizliyi üzrə normativ çərçivənin inkişafı

Hesabat dövründə Bankın informasiya təhlükəsizliyi üzrə normativ bazası davamlı olaraq inkişaf etdirilmiş və mövcud sənədlər beynəlxalq standartlara uyğun şəkildə yenidən nəzərdən keçirilmişdir.

- Dəyişikliklərin idarə olunması, daxilolma nəzarəti və arxivləşdirmə qaydaları optimallaşdırılmışdır;
- İstifadəçi təlimatları və əməliyyat prosedurları strukturlaşdırılmış və sistemləşdirilmişdir.

Yeni və yenidən nəzərdən keçirilmiş sənədlər Bankın informasiya təhlükəsizliyi idarəetmə sisteminin yetkinlik səviyyəsinin artırılmasına və nəzarət mühitinin daha şəffaf və izlənilə bilən şəkildə qurulmasına xidmət etmişdir.

Ətraflı sənəd siyahısı Bankın daxili normativ bazasında əks olunmuşdur.

Maarifləndirmə və təhlükəsizlik mədəniyyəti

Kibertəhlükəsizlik risklərinin azaldılmasında insan amilinin rolu nəzərə alınaraq Bank əməkdaşların məlumatlılığının artırılmasına xüsusi önəm verir. Bu məqsədlə mütəmadi informasiya təhlükəsizliyi üzrə maarifləndirmə və qiymətləndirmə tədbirləri həyata keçirilir.

Hesabat dövrü ərzində əməkdaşların kibergigiyena səviyyəsinin artırılması və təhlükəsizlik üzrə davranış mədəniyyətinin gücləndirilməsi məqsədilə xüsusi təlim və test proqramları tətbiq edilmişdir. Bu çərçivədə təhlükəsizlik mövzusunda maarifləndirmə təlimləri və biliklərin qiymətləndirilməsi mexanizmləri həyata keçirilmişdir.

5.2 Etik Davranış və Uyğunluq

ATB üçün etika və uyğunluq prinsipləri dayanıqlı bankçılığın və uzunmüddətli inkişafın əsasını təşkil edir. Etik davranış maliyyə sektorunda şəffaflığın təmin olunması, risklərin idarə olunması və maraqlı tərəflərlə qarşılıqlı etimadın formalaşdırılması baxımından mühüm əhəmiyyətə malikdir. ATB-nin etika və uyğunluq sistemi Etik Davranış Məcəlləsi, Uyğunluq siyasətləri, normativ qayda və prosedurları, eləcə də digər əlaqəli mexanizmləri əhatə edir. Bu sistem bank daxilində etimad mühitinin yaradılmasına, şəffaflığın təmin edilməsinə və məsuliyyətli qərarvermə mədəniyyətinin inkişafına töhfə verir, həmçinin müştəri və tərəfdaşların maraqlarının qorunmasına xidmət edir.

ATB-də etik davranış və normativ uyğunluğun təmin olunması məqsədilə Maliyyə Monitorinqi və Komplayens Departamenti, Hüquq Departamenti, Daxili Nəzarət Departamenti və Daxili Audit Departamenti arasında sıx əməkdaşlıq çərçivəsində fəaliyyət həyata keçirilir. Bu struktur bölmələr etik risklərin idarə edilməsi, tənzimləyici və qanunvericilik tələblərinə riayət olunması, şübhəli əməliyyatların aşkarlanması və qarşısının alınması, həmçinin daxili nəzarət və audit funksiyalarının icrası üzrə öz səlahiyyətləri çərçivəsində birgə işləyir.

Normativ uyğunluqla bağlı fəaliyyətlər üzrə əldə olunan nəticələr və müşahidələr barədə mütəmadi olaraq İdarə Heyətinə hesabatlar təqdim olunur.

2025-ci il ərzində ATB-də etik davranış və uyğunluq sahəsində mövcud yanaşmalar daha da gücləndirilmiş və bir sıra daxili siyasət və prosedurlar yenilənmişdir. Bu çərçivədə **müştəri uyğunluğu tədbirləri, siyasi nüfuzlu şəxslərlə bağlı qaydalar, şübhəli əməliyyatların aşkarlanması və qarşısının alınması prosedurları yenilənmiş, maraqlar münaqişəsinin tənzimlənməsi və korrupsiyaya qarşı mübarizə üzrə yeni sənədlər təsdiq edilmişdir.**

Eyni zamanda, korrupsiya, maraqların toqquşması və etik pozuntular üzrə monitorinq və nəzarət mexanizmləri təkmilləşdirilmiş, bu məqsədlə daxili Jira platforması tətbiq edilərək müvafiq halların operativ qeydiyyatı, izlənməsi və idarə olunması təmin edilmişdir.

Hesabat dövründə uyğunluq proseslərinin rəqəmsallaşdırılması istiqamətində addımlar atılmış, bu çərçivədə REİS və Fineksus proqramlarının inteqrasiyası prosesinə başlanılmışdır. Bununla yanaşı, beynəlxalq standartlara uyğunluq yanaşması davam etdirilmiş və daha da gücləndirilmişdir. Bundan əlavə, Maliyyə Monitorinqi Xidməti ilə məlumat mübadiləsinin təkmilləşdirilməsi məqsədilə ŞƏMS proqramına inteqrasiya prosesi yekunlaşdırılmışdır.

ATB-də etika və uyğunluq sahəsini tənzimləyən əsas sənədlər:

Etik Davranış Məcəlləsi

- Korrupsiyaya Qarşı Mübarizə Siyasəti
- İnformasiya Təhlükəsizliyi Siyasəti
- Sanksiya və Ticarət Əməliyyatlarının Risk Təhlili
- Maraqlar Toqquşması Prinsipləri
- Siyasi nüfuzlu şəxslər üzrə müştəri uyğunluğu tədbirləri Qaydaları
- Qanunvericiliyin və bankdaxili normativ sənədlərin tələblərinin pozulması barədə məlumatların təqdim edilməsi, qəbulu və araşdırılması (“Whistleblowing”) Siyasəti
- Cinayət Yolu ilə Əldə Edilmiş Əmlakın Leqallaşdırılması və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Mübarizə Siyasəti (ƏL/TMM)

Etik Davranış Məcəlləsi

ATB-nin Etik Davranış Məcəlləsi Azərbaycan Respublikasının Əmək Məcəlləsi, "Banklar haqqında" Qanun, aidiyyəti normativ hüquqi aktlar və Bankın daxili sənədləri əsasında hazırlanmışdır. Məcəllə şəffaflıq, məsuliyyət, dürüstlük və sosial ədalət prinsipləri əsasında hazırlanıb və bütün əməkdaşlar üçün peşəkar və etik davranış qaydalarını müəyyən edir.

Əməkdaşlardan peşəkar ünsiyyətə riayət etmək, konfidensial məlumatları qorumaq, maraqların toqquşmasının qarşısını almaq və daxili qaydalara əməl etmək tələb olunur. Müştərilərlə etik münasibətlərin qorunması, korrupsiyaya qarşı sıfır tolerantlıq və informasiya təhlükəsizliyi də Məcəllənin əsas müddəaları sırasındadır.

Məcəlləyə əməl olunması Bankın məsuliyyətli və etibarlı fəaliyyətinin əsas mexanizmlərindən biridir və pozuntular intizam tədbirləri ilə nəticələnə bilər. Məcəllənin aktuallığı və effektivliyi mütəmadi yenilənməklə təmin edilir. **Etik və uyğunluq sahəsində qabaqcıl yanaşmaların tətbiqi və ESG prinsiplərinə uyğunluğun təmin olunması məqsədilə Etik Davranış Məcəlləsinin yenilənməsi istiqamətində işlər aparılmış və müvafiq təkmilləşdirmələr həyata keçirilmişdir.**

Cinayət Yolu ilə Əldə Edilmiş Əmlakın Leqallaşdırılması və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Mübarizə Siyasəti (ƏL/TMM)

ATB dayanıqlı maliyyə sisteminin qurulması və ictimai etimadın qorunması məqsədilə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizəyə xüsusi önəm verir. Bu məqsədlə Bank 2024-cü ildə yenilənmiş ƏL/TMM siyasətini qəbul etmişdir. Siyasət Azərbaycan Respublikasının qanunvericiliyinə və FATF, Volfsberq Qrupu və Bazel Komitəsinin beynəlxalq standartlarına əsaslanır.

Siyasətin əsas məqsədi Bankın məhsul və xidmətlərindən sui-istifadə hallarının qarşısını almaq, hüquqi və nüfuz risklərini idarə etmək və şəffaf maliyyə əməliyyatlarını təşviq etməkdir. Bank bu sahədə "qanunçuluq", "müştərini tanı" (KYC) və "risk əsaslı yanaşma" prinsiplərinə uyğun fəaliyyət göstərir. Müştərilərin və benefisiar sahiblərin identifikasiyası, yüksək riskli zonalara nəzarət, şübhəli əməliyyatların aşkarlanması və məlumatların Maliyyə Monitorinqi Xidmətinə təqdim edilməsi siyasətin əsas elementləridir.

Bankın bütün struktur bölmələri bu Siyasətin tətbiqinə cəlb olunur. Üç səviyyəli nəzarət sistemi (əməliyyat bölməsi, monitorinq funksiyası və daxili audit) vasitəsilə ƏL/TMM risklərinin idarə olunması təmin edilir. Eyni zamanda, əməkdaşlar üçün mütəmadi təlimlər keçirilir və siyasət ildə ən az bir dəfə nəzərdən keçirilərək yenilənir.

Maliyyə Monitorinqi və Komplayens Departamenti bankın əməkdaşları və müxtəlif struktur bölmələri üçün rüblük əsasda ƏL/TMM üzrə uyğunluq təlimləri keçirir. Həmçinin, hesabat dövrü ərzində uyğunluq və ƏL/TMM sahəsində çalışan əməkdaşlar beynəlxalq standartlara uyğun ixtisaslaşdırılmış təlimlərə cəlb olunmuş və müvafiq sertifikatlaşdırma proqramlarını uğurla tamamlamışdır. Təlimlər yerli təlim təminatçısı vasitəsilə, ACAMS (The Association of Certified Anti-Money Laundering Specialists) institutu tərəfindən akkreditə olunmuş proqram əsasında həyata keçirilmişdir.

Korrupsiyaya Qarşı Mübarizə Siyasəti

ATB korrupsiyaya qarşı mübarizəni etik və məsuliyyətli idarəetmənin əsas elementi kimi qəbul edir və bu məqsədlə sistemli antikorrupsiya siyasətini həyata keçirir. Siyasət vəzifəli şəxslərin səlahiyyətlərindən sui-istifadə etməsi, maraqların toqquşması və qanunsuz hədiyyə qəbulunun qarşısını almağa yönəlib. Bankın bütün filial əməkdaşları üçün korrupsiyaya qarşı təlimlər təşkil olunmuş, bu sahədə bilik və davranış standartları gücləndirilmişdir. Eyni zamanda, daxili nəzarət və monitorinq mexanizmləri vasitəsilə korrupsiya riskləri davamlı şəkildə qiymətləndirilir və idarə olunur.

Bankda şübhəli əməliyyatların aşkarlanması və qarşısının alınması üzrə qabaqcıl nəzarət mexanizmləri mövcuddur. Bu məqsədlə həm onlayn, həm də oflayn monitorinq sistemləri tətbiq edilir, yüksək riskli müştərilərlə və əməliyyatlarla bağlı xüsusi ssenarilər əsasında profil analizləri aparılır. Şübhəli əməliyyatlar zamanı müvafiq araşdırmalar aparılır, lazımi hallarda əməliyyatlar dayandırılır və Maliyyə Monitorinqi Xidmətinə məlumat təqdim olunur. Məlumat verən şəxslərin anonimliyi və hüquqi müdafiəsi ciddi şəkildə qorunur. Bu yanaşma ATB-nin şəffaflıq, etik davranış və hüquqi uyğunluq prinsiplərinə sadiqliyini əks etdirir.

Qanunvericiliyin və bankdaxili normativ sənədlərin tələblərinin pozulması barədə məlumatların təqdim edilməsi, qəbulu və araşdırılması ("whistleblowing") Siyasəti

"Whistleblowing" Siyasəti qanunvericiliyin və daxili qaydaların pozulması halları ilə bağlı məlumatların təhlükəsiz şəkildə paylaşılması və araşdırılması üçün şəffaf bir mexanizm yaradır. Bu siyasət 2024-cü ilin avqust ayında Bankın Müşahidə Şurası tərəfindən təsdiqlənmişdir. Siyasət yalnız bank əməkdaşlarını deyil, həm də podratçıları, müştəriləri, məsləhətçiləri və bankla əməkdaşlıq edən digər şəxsləri də əhatə edir. Məqsəd – mümkün pozuntular barədə vaxtında xəbərdarlıq etmək, bu hallar üzrə obyektiv araşdırma aparmaq və nəticələrə uyğun tədbirlər görməkdir. Məlumat verən şəxslər anonim qala bilər və bu zaman onların kimliyi gizli saxlanılır. Ən əsası isə, belə şəxslərə qarşı heç bir təzyiq, təqib və ya neqativ

münasibətə yol verilmir.

Məlumatların təqdim edilməsi üçün "wb@atb.az" elektron poçt ünvanı və ya onlayn platforma kimi xüsusi kanallar mövcuddur. Daxil olan müraciətlər Daxili Nəzarət Departamenti tərəfindən qeydiyyata alınır və 15 iş günü ərzində araşdırılır. Pozuntu təsdiqləndikdə, uyğun tədbirlər görülməsi üçün rəhbərliyə təkliflər təqdim olunur. Araşdırmalar zamanı sənədlər və izahatlar toplanır, lazım gəldikdə əlavə yoxlamalar aparılır. Siyasət, həmçinin əməkdaşların maarifləndirilməsinə və etik davranış mədəniyyətinin inkişafına töhfə verir. Bütün işçilər bu prinsiplərə əməl etməli və qaydalara zidd hallarda müvafiq tədbirlərin görüləcəyini nəzərə almalıdırlar.

Maraqların toqquşması prinsipi

Maraqların toqquşması prinsipi bankın əməkdaşları, idarəetmə orqanları və biznes tərəfdaşları arasında potensial maraqlar toqquşmalarının müəyyən edilməsi, qarşısının alınması və idarə olunması üçün mexanizmləri əhatə edir. Əməkdaşlar, potensial maraq toqquşması halları barədə məlumat verməyə və bu halların qarşısını almağa məsuldurlar. Bu prinsip, həmçinin, konfidensiallıq, səlahiyyət bölgüsü və şəffaflığa əsaslanır və bankın etik davranış standartlarına uyğun olaraq mütəmadi olaraq yenidən qiymətləndirilir. Etik Davranış Məcəlləsi çərçivəsində, Müşahidə Şurası və İdarə Heyəti bu məsələlərin tənzimlənməsində əsas rol oynayır.

Müştəri uyğunluğu tədbirləri

ATB-nin Müştəri Uyğunluğu Qaydaları müştəri risk profilinin formalaşdırılması və müxtəlif hallarda tədbirlərin görülməsi üçün təlimat rolunu oynayır. Sənəd, xüsusilə siyasi nüfuzlu şəxslər və digər yüksək riskli müştərilərlə əlaqələrin idarə olunmasında uyğunluq və risklərin idarə edilməsinə dair çərçivə təqdim edir.

Bank, "Customer Due Diligence (CDD)" yanaşması əsasında müştərinin şəxsiyyətinin təsdiqi, risklərin qiymətləndirilməsi və əməliyyatların davamlı monitorinqini təmin edir. Yüksək riskli əməliyyatlar qabaqcıl monitorinq sistemləri və uyğunluq komandaları tərəfindən nəzarətdə saxlanılır və etik davranış prinsiplərinə əsaslanır. Müştəri münasibətləri digər siyasət və prosedur sənədləri ilə uyğunlaşdırılaraq, risklərin idarə olunması və maraqlı tərəflərlə əlaqələrin effektiv qurulmasına inteqrasiya olunur. 2025-ci il ərzində müştərilər və biznes tərəfdaşlar üzrə uyğunluq yoxlamalarında ESG yanaşması daha da gücləndirilmiş, xüsusilə idarəetmə riskləri (şəffaflıq, korrupsiya ilə mübarizə və maraqların toqquşması) qiymətləndirmə prosesinə inteqrasiya olunmuşdur.

Siyasi nüfuzlu şəxslər üzrə müştəri uyğunluğu tədbirləri Qaydaları

ATB 15 yanvar 2024-cü il tarixindən etibarən Siyasi Nüfuzlu Şəxslər (PEP) ilə bağlı yeni uyğunluq qaydalarını tətbiq etmişdir. Bu tədbirlər Azərbaycan qanunvericiliyi və beynəlxalq standartlara uyğun olaraq çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısını almağa yönəlib. Qaydalar PEP anlayışının müəyyənləşdirilməsi, strukturlaşdırılmış identifikasiya prosesi və yüksək risk daşıyan əməliyyatların ciddi monitorinqini əhatə edir. Bu şəxslərlə işgüzar münasibət qurulmazdan əvvəl onların şəxsiyyəti, gəlir və əmlak mənbəyi, əlaqəli şəxsləri barədə ətraflı məlumat toplanır və qərar yalnız İdarə Heyətinin sədrinin təsdiqi ilə verilir. Əməliyyatlar üzərində Maliyyə Monitorinqi və Komplayens Departamenti tərəfindən davamlı nəzarət həyata keçirilir.

Müvafiq struktur bölmələr PEP-lərlə bağlı məlumatları yoxlamalı, müvafiq sənədləşməni təmin etməli və müştəri məlumatlarını hər il yeniləməlidirlər. Sənəddə həmçinin PEP-lərlə biznes münasibətlərinin qurulması üçün formal prosedurlar müəyyən edilir, bu da hüquqi və qabaqcıl təcrübələrə uyğun şəkildə hesabatlılığı və qeyri-qanuni maliyyə fəaliyyətlərinə qarşı güclü müdafiəni təmin edir.

Sanksiya və Ticarət Əməliyyatlarının Risk Təhlili

ATB yüksək səviyyəli ödəniş intizamının və uyğunluq standartlarının təmin edilməsi məqsədilə bir neçə beynəlxalq risk kəşfiyyat sistemindən istifadə edir. Bank tərəfindən Refinitiv World-Check, EastNets və G2 proqram təminatları vasitəsilə avtomatlaşdırılmış AML monitorinqi, sanksiya siyahıları və ticarət tərəfdaşlarının yoxlanması həyata keçirilir. Bu yoxlamalar OFAC, BMT, Birləşmiş Krallıq, milli sanksiya və FATF siyahılarına əsaslanır. Nəticədə, Bank müştərilərin, əməliyyatların və tərəfdaşların risklərini erkən mərhələdə müəyyənləşdirərək uyğunluq və etibarlılıq çərçivəsini gücləndirir.

İnformasiya Təhlükəsizliyi Siyasəti

ATB müştəri məlumatlarının məxfiliyinin qorunmasını və etik fəaliyyət prinsiplərinə əməl olunmasını prioritet hesab edir.

Bankın İnformasiya Təhlükəsizliyi Siyasəti yalnız lisenziyalı kibertəhlükəsizlik vasitələrinin istifadəsini, əməkdaşlar üçün mütəmadi təlimlərin keçirilməsini və fiziki təhlükəsizlik tədbirlərinin tətbiqini nəzərdə tutur. Siyasət şəbəkə mühafizəsi, məlumatların şifrələnməsi, güclü parol idarəetməsi, mobil və sabit cihazlardan istifadənin tənzimlənməsi kimi sahələrdə konkret tələbləri əhatə edir. Eyni zamanda, insidentlərin idarə olunması, fasiləsiz işin təminatı və normativ uyğunluğa dair müddəalarla təhlükəsizliyin sistemli təminatını gücləndirir.

Daxili Audit və Nəzarət funksiyaları

ATB-də daxili audit funksiyası bankın dayanıqlı və şəffaf idarə olunmasını dəstəkləyən əsas nəzarət mexanizmlərindən biridir. Daxili Audit Departamenti (DAD) bankın risklərin idarə olunması, daxili nəzarət sistemləri və normativ uyğunluq sahələrində fəaliyyətini qiymətləndirir və rəhbərlik üçün bu istiqamətdə məsləhətləşmələri həyata keçirir.

Daxili Audit Siyasəti audit

funksiyasının əsas prinsiplərini – müstəqillik, bitərəflik, peşəkarlıq və məxfiliyi müəyyən edir. Siyasətə uyğun olaraq DAD yalnız Audit Komitəsinə tabedir, yoxlamalar zamanı obyektivlik və şəffaflıq əsas götürülür. Audit rotasiyası, innovativ yanaşmalar və texnologiyalardan istifadə obyektivliyin və keyfiyyətin qorunmasına xidmət edir. Daxili Audit Strategiyası isə bu funksiyanın uzunmüddətli inkişafını planlaşdırır.

ATB-nin Daxili Nəzarət Departamenti bankdaxili proseslərə davamlı nəzarəti təmin etməklə risklərin erkən aşkar olunması, hüquqi və daxili prosedur pozuntularının qarşısının alınması və əməliyyatların düzgün icrasının yoxlanılması funksiyalarını yerinə yetirir. Departament, strateji planların icrasına nəzarət edir, struktur bölmələrdə aparılan əməliyyatlara dair yoxlamalar həyata keçirir, dələduzluq və sui-istifadə hallarının aşkarlanması üçün nəzarət mexanizmləri tətbiq edir və rəhbərliyə hesabatlar təqdim edir. Əlavə olaraq, yeni xidmət və məhsulların tətbiqində adekvat nəzarət alətlərinin mövcudluğunu qiymətləndirir və hüquqi uyğunluq baxımından təkliflər verir.

Hesabat dövründə rəqəmsallaşmanın sürətlənməsi, məsafədən xidmətlərin genişlənməsi, kiberrisklərin artması və beynəlxalq sanksiya rejimlərinin sərtləşməsi uyğunluq sahəsində yeni çağırışlar yaratmışdır. Bu kontekstdə komplayens funksiyasının əhəmiyyəti daha da artmış və bankın ümumi risk idarəetmə sistemində rolu gücləndirilmişdir.

6. İnsan Resurslarının İdarə Olunması


ATB insan kapitalını Bankın strateji hədəflərinə çatmasında və dayanıqlı fəaliyyətinin təmin edilməsində **həlledici amillərdən biri** kimi qiymətləndirir. Bankda insan resursları **yalnız gündəlik əməliyyatların icrası ilə məhdudlaşmır,** eyni zamanda **innovativ həllərin tətbiqinə, xidmət keyfiyyətinin yüksəldilməsinə və idarəetmədə çevik yanaşmaların təşviqinə** aktiv töhfə verir.

İnsan Resursları Departamenti

ATB-nin İnsan Resursları Departamenti (İRD) Bankın Baş ofisinin əsas struktur bölmələrindən biri olmaqla, əmək resurslarının səmərəli idarə olunması, istedadların cəlbi, əməkdaş məmnuniyyətinin təmin edilməsi və əmək qanunvericiliyinə uyğunluğa cavabdehdir. Departament öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyası, "Banklar haqqında" Qanun, digər müvafiq normativ sənədlər və Bankın daxili qaydaları əsasında həyata keçirir.

2025-ci ildə İRD institusional çərçivəsi daha da gücləndirilmişdir. Hesabat dövründə Bankda **İnsan Hüquqları Siyasəti hazırlanaraq təsdiq edilmiş,** etik və sosial məsələlər üzrə nəzarətin gücləndirilməsi məqsədilə **Etik və Sosial Məsələlər üzrə Komissiya yaradılmışdır.**


Eyni zamanda, **İRD-nin rəhbərliyə hesabatlılıq yanaşması təkmilləşdirilmiş,** hesabatların təqdim olunması **daha müntəzəm rüblük formata keçirilmişdir.**



Şəkil 50. **2025-ci il üzrə İR-in transformasiya istiqamətləri**

İnsan Resursları proseslərinin rəqəmsallaşdırılması

2025-ci ildə insan resursları proseslərinin səmərəliliyinin artırılması məqsədilə mövcud sistemin funksionallığının genişləndirilməsi istiqamətində işlərə başlanılmışdır. Bu çərçivədə **işə qəbul, performans idarəetməsi** və **təlim uçotu** üzrə yeni modulların tətbiqi planlaşdırılmışdır.



Şəkil 51. **İRD-nin əsas vəzifələri**

İnsan Resursları Departamentinin strukturu

İRD-nin tərkibi və əməkdaş sayı, onun fəaliyyət istiqamətləri və iş həcmi nəzərə alınaraq İH tərəfindən müəyyən olunur. Departament öz fəaliyyətinə birbaşa nəzarət edən İH üzvünə tabedir.

İnsan Resursları Departamentinin strukturu və funksional öhdəlikləri:


İnsan Resurslarının Koordinasiyası Şöbəsi:
Əməkdaşların sənədlərinin idarə olunması, əmək müqavilələrinin rəsmiləşdirilməsi, sosial təminat paketlərinin idarə edilməsini həyata keçirir

İnsan Resursları Biznes Tərəfdaşlar Şöbəsi:
İşə qəbul prosesini, əmək resurslarının planlaşdırılmasını həyata keçirir.


Mükafatlandırma və Əməyin Ödənilməsi Şöbəsi:
Əməkdaşların fəaliyyətinin qiymətləndirilməsi, motivasiya tədbirlərinin təşkili, idarə olunması və icrası prosesini həyata keçirir.

Karyera Planlaşdırılması və Tədris Şöbəsi:
Əməkdaşların tədris ehtiyaclarının müəyyən edilərək ödənilməsi və karyera inkişafı təşəbbüslərinin icra edilməsini həyata keçirir.


İşçilərin Dinamikası




Şəkil 52. **Cins və ərazi üzrə ümumi işçi sayı**




Şəkil 53. **Yaş qrupları üzrə ümumi işçi sayı**




Şəkil 54. **İşçi kateqoriyası və cins üzrə ümumi işçi sayı**




Şəkil 55. **İşçi kateqoriyası və yaş qrupları üzrə ümumi işçi sayı**




Şəkil 56. **Cins üzrə işə qəbul olunmuş işçilərin ümumi sayı**




Şəkil 58. **Cins üzrə işdən azad olunmuş işçilərin ümumi sayı**



Şəkil 60. **Ümumi işçi axını dövriyyəsi, %**



Şəkil 57. **Yaş qrupları üzrə işə qəbul olunmuş işçilərin ümumi sayı**



Şəkil 59. **Yaş qrupları üzrə işdən azad olunmuş işçilərin ümumi sayı**

Təlim və İnkişaf imkanları

Daxili təlimlər:
Təlimlər bankdaxili mütəxəssislər tərəfindən aparılır və bu məqsədlə canlı sessiyalar, video materiallar, simulyasiya məşqləri və mentorluq proqramlarından istifadə olunur.

Xarici təlimlər:
Yerli və ya beynəlxalq qurumlar tərəfindən təqdim olunan ixtisaslaşdırılmış kurslar, sertifikatlaşdırma proqramları və digər inkişaf proqramlarını əhatə edir.

Hesabat dövründə daxili nəzarət mühitinin gücləndirilməsi ilə paralel olaraq **əməkdaşların risk əsaslı düşüncə və nəzarət mədəniyyəti üzrə biliklərinin artırılmasına xüsusi diqqət yetirilmişdir.** Bu çərçivədə **fraud riskləri, insidentlərin erkən aşkarlanması və daxili nəzarət prosedurlarına** riayət mövzularını əhatə edən maarifləndirici təlim komponentləri genişləndirilmişdir.

Təlim saatları		2023	2024	2025
Əməkdaş kateqoriyaları üzrə kənar təlim saatları	Rəhbərlik	4,771	3,317	1,126
	Mütəxəssislər	4,345	4,503	4,400
Cins üzrə ortalama təlim saatları	Kişi	16	10	6
	Qadın	14	14	9

Cədvəl 3. **Kənar təlim saatları üzrə göstəricilər**

Hesabat dövrü ərzində əməkdaşların bilik və bacarıqlarının inkişafı məqsədilə ümumilikdə 193 saat daxili təlim həyata keçirilmişdir.

İşə qəbul və daxili karyera imkanlarının idarə edilməsi

ATB-də işə qəbul, vəzifə yerdəyişməsi və ştatların artırılması prosesləri üçün **strukturlaşdırılmış daxili çərçivə** formalaşdırılmışdır. Bu prosedur Azərbaycan Respublikasının Əmək Məcəlləsinə, "Banklar haqqında" Qanuna, Mərkəzi Bankın normativ aktlarına və Bankın daxili qaydalarına uyğun hazırlanmışdır. İşə qəbul prosesi struktur bölmələrin ehtiyaclarına uyğun olaraq **peşəkar və hazırlıqlı namizədlərin cəlb edilməsinə** yönəldilir. Namizədlərin bilik və bacarıqları, dünyagörüşü və müraciət etdikləri vəzifəyə uyğunluğu **obyektiv meyarlar əsasında** qiymətləndirilir. Bankda **bərabər imkanlar, şəffaflıq və ədalətlilik** prinsiplərinə ciddi riayət olunur və ayrı-seçkiliyə yol verilmir.

Yeni işçilər işə başlamazdan əvvəl **zəruri avadanlıq, sistemlərə çıxış və ilkin təlim** ilə təmin edilir. Bununla yanaşı, adaptasiya proqramı çərçivəsində əməkdaşların Bankın fəaliyyəti, korporativ mədəniyyəti və daxili qaydaları ilə tanışlığı təmin olunur ki, bu da onların iş mühitinə daha sürətli uyğunlaşmasına və effektiv fəaliyyətə başlamasına şərait yaradır.

ATB insan kapitalının formalaşdırılmasında **"daxildən yetişdirmə" yanaşmasını** tətbiq edir. Bu model xüsusilə başlanğıc vəzifələr üzrə perspektivli əməkdaşların daxildə inkişaf etdirilərək karyera pillələrində irəliləməsini dəstəkləyir. Bununla yanaşı, Banka yeni bilik və təcrübə qazandıra biləcək **xarici bazardan mütəxəssislərin cəlbi** də davam etdirilir.

Bankda müxtəlif funksional istiqamətlər üzrə **strukturlaşdırılmış təcrübə proqramları** həyata keçirilir. Bu proqramlar potensiallı gənclərin real iş mühiti ilə tanış olmasına və praktiki bacarıqlar qazanmasına imkan yaradır. Təcrübəçilər mentor müşayiəti ilə müəyyən edilmiş müddət ərzində fəaliyyət göstərir, onların nəzəri bilikləri, praktiki bacarıqları, eləcə də korporativ davranışları qiymətləndirilir. Proqramın sonunda iştirakçılar **fəaliyyət nəticələri və inkişaf potensialı** əsasında rəhbərləri tərəfindən dəyərləndirilir və yüksək nəticə göstərən namizədlər Bankın kadr ehtiyacları nəzərə alınmaqla işə qəbul imkanları üçün nəzərdən keçirilə bilər.

ATB bu istiqamətdə yerli ali təhsil müəssisələri ilə əməkdaşlığı davam etdirərək **gənc mütəxəssislərin hazırlanmasına** dəstək verir. Bu əməkdaşlıqlar həm təcrübə proqramlarının keyfiyyətinin yüksəldilməsinə, həm də əmək bazarına daha hazırlıqlı kadrların çıxarılmasına xidmət edir.



Şəkil 61. **İnsan kapitalının idarə olunması mərhələləri**

Təcrübə proqramı	İl	Müddət	Əhatə dairəsi
Korporativ Bankçılıq Təcrübəsi	2023	1-3 ay	Biznes Kreditlərinin Təhlili
Yay Təcrübə Proqramı	2024	3 ay	Bankın müxtəlif şöbələri
Karyera Addımları			Baş ofis və Rəqəmsal filiallar
Səsiniz Bankdan Gəlsin		1-3 ay	Çağrı Mərkəzi (Müştəri Əlaqələri)
Gəncə filialının satış üzrə təcrübə proqramı	2025	1 ay	KOB kreditləri
"Bankçılığa ilk addım - Kredit satışı" təcrübə proqramı	2025	1 ay	KOB müştəriləri
Naxçıvan filialında satış üzrə təcrübə proqramı	2025	1-4 ay	KOB kreditləri
Kiçik və Orta Biznes Kreditlərinin satışı üzrə təcrübəçi	2025	1-3 ay	KOB kreditləri Bakı və Sumqayıt filialları
"Təcrübə+" təcrübəni üstələyən fürsət	2025	1 ay	Bankın müxtəlif şöbələri
KOB ofisi və Rəqəmsal filialında KOB Kreditlərinin satışı üzrə təcrübəçi	2025	1 ay	KOB müştəriləri
Kiçik və Orta Biznes Kreditlərinin satışı üzrə təcrübəçi	2025	1-4 ay	Bakı, Sumqayıt, Naxçıvan və Şirvan filialları
Daxili Nəzarət üzrə təcrübəçi	2025	11 gün	Baş ofis və Rəqəmsal filiallar
Müştəri dəstəyi üzrə təcrübəçi	2025	1-8 ay	Baş ofis və Rəqəmsal filiallar

Cədvəl 4. **ATB tərəfindən keçirilmiş təcrübə proqramları**

İnsan Kapitalı Üzrə Strateji Təşəbbüslər


2025-ci ildə ATB insan kapitalının uzunmüddətli dayanıqlığını gücləndirmək məqsədilə bir sıra yeni təşəbbüslər həyata keçirmişdir.

atbNextGen Banking təşəbbüsü çərçivəsində ali təhsil müəssisələri ilə əməkdaşlıq genişləndirilmiş, tələbələrlə görüşlər təşkil edilmiş və gənc istedadların cəlbi məqsədilə HR brendinq alətləri tətbiq olunmuşdur. **ADAPT 360** proqramı yeni işə qəbul olunan əməkdaşların ilk üç ay ərzində adaptasiya prosesini sürətləndirməyə, ilkin bağlılığı gücləndirməyə və iş mühitinə inteqrasiyanı optimallaşdırmağa yönəlmişdir. Namizəd təcrübəsinin ölçülməsi üçün insan resursları üzrə sorğu (HR Rate) tətbiq edilmiş və nəticələr işə qəbul proseslərinin təkmilləşdirilməsində istifadə olunmuşdur.

Mükafatlandırma Siyasəti

Bankımızda əməkdaşların mükafatlandırılması insan resurslarının idarə olunmasında strateji əhəmiyyət daşıyır və onların motivasiyası, uzunmüddətli bağlılığı və yüksək performansının təşviq edilməsi baxımından mühüm alət hesab olunur.

Mükafatlandırma Siyasətinə əsasən, rəhbər vəzifəli şəxslərə (təxirə salınmış mükafatlar istisna olmaqla) veriləcək illik mükafatlar və onların həcmi Səhmdarların ümumi yığıncağında müəyyən olunur. Digər əməkdaş kateqoriyaları üzrə mükafatlandırma qərarları isə Müşahidə Şurası tərəfindən təsdiqlənir.



Şəkil 62. **Mükafatlandırma siyasətinin məqsədləri**

Adekvatlıq

Mükafatlandırma sistemi mövcud qanunvericiliyə, beynəlxalq təcrübəyə və Bankın strateji hədəflərinə uyğun şəkildə qurulur.

Ədalətlilik

İşçinin əməyinin obyektiv şəkildə, əvvəlcədən müəyyən edilmiş meyarlar əsasında qiymətləndirilməsi və ədalətli ödənişlə təmin olunması. Ödənişlərin müəyyənləşdirilməsində ayrı-seçkiliyə yol verilmir.

Balanslaşma

Mükafatlar fərdi və komanda nəticələrini stimullaşdırmaqla yanaşı, əsaslandırılmış və nəticəyönlü ödəniş balansını təmin edir.

Səmərəlilik

Mükafatlandırmaya yönələn resurslar Bank üçün real dəyər və nəticə gətirməlidir.

Uyğunluq

Ödənişlər və mükafatlar əmək bazarının mövcud səviyyəsinə uyğun şəkildə formalaşdırılır.

Şəffaflıq

Mükafatlandırma siyasəti ilə bağlı məlumatların işçilərə açıqlanması.

Şəkil 63. **Mükafatlandırma sisteminin əsas prinsipləri**

Maddi və qeyri-maddi mükafatlar:

- **Sabit əməkhaqqı (baza maaş)**
- **Bonuslar**
- **Səhmdarlıq proqramları**
- **Uzunmüddətli sosial təminatlar**
- **Təşəkkür məktubları və rəsmi minnətdarlıq**
- **Təltif sertifikatları və fəxri adlar**
- **Fərdi nailiyyətlərin tanınmasına yönəlmiş digər rəsmi və qeyri-rəsmi təşviq formaları**

Bu mükafatlar vəzifənin mürəkkəbliyi, əmək bazarındakı dəyəri, əməkdaşın təcrübəsi və tutduğu vəzifənin Bankın strateji məqsədlərinə töhfəsi nəzərə alınmaqla müəyyən edilir.

İşçilərin məmnuniyyəti və rifahı


ATB üçün **əməkdaşların məmnuniyyəti və rifahı insan resurslarının idarə olunmasında əsas prioritetlərdən biridir.** Bank bu sahədə iş mühitinin keyfiyyətinin, psixoloji rifahın və inkişaf imkanlarının davamlı olaraq qiymətləndirilməsini və təkmilləşdirilməsini hədəfləyir.

Əməkdaşların rifahının sistemli şəkildə dəstəklənməsi məqsədilə Bankda **2020-ci ildə təsdiq edilmiş "Sosial tədbirlərin həyata keçirilməsi Proseduru"nun tətbiqi 2025-ci ildə də davam etdirilmişdir.** Sənəd Azərbaycan Respublikasının Əmək Məcəlləsinə, ARMB-nin **"İnsan Resursları və Riayət Olunma Standartı"na** və Bankın daxili normativ sənədlərinə uyğun hazırlanmışdır.

Prosedur əməkdaşlara təqdim olunan mükafatlar, maddi yardımlar və icazələrlə bağlı qaydaları, növləri və tətbiq mexanizmlərini müəyyən edir və **stimullaşdırma, ədalətlilik və bərabər yanaşma** prinsiplərinə əsaslanır. Hesabat dövründə sənədin tələblərinə uyğun olaraq əməkdaş rifahının dəstəklənməsi istiqamətində tədbirlər davam etdirilmişdir.

2025-ci ildə ESG çərçivəsində bərabər imkanların təmin olunması istiqamətində mövcud siyasətlər yenilənmiş, inklüzivlik və etik davranış mövzularında maarifləndirici tədbirlər həyata keçirilmişdir.

Əməkdaşların institusional inkişaf proseslərinə cəlb olunmasını təşviq etmək məqsədilə **2025-ci ildə Daxili Nəzarət Departamenti tərəfindən "İdeyam var!" təşəbbüsü həyata keçirilmişdir.** Layihə çərçivəsində əməkdaşlar daxili proseslərdə mövcud çatışmazlıqların müəyyən edilməsində fəal iştirak etmiş, təqdim olunan təkliflər idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi üçün analitik şəkildə qiymətləndirilmişdir. Bu təşəbbüs əməkdaş bağlılığının **gücləndirilməsi və açıq korporativ mədəniyyətin təşviqi baxımından mühüm addım olmuşdur.**



Şəkil 64. **Sosial xarakterli maddi yardımlar**



Şəkil 65. **İşçilər üçün güzəştlər**

Bank, əməkdaşların rifahı, psixoloji sağlamlığı və uzunmüddətli motivasiyası üçün iş və şəxsi həyat balansının qorunmasının vacibliyini anlayır və bu məqsədlə çevik iş rejimi – o cümlədən həftənin müəyyən günlərində evdən (work from home) işləmək imkanını əməkdaşlara təqdim edir.

İnklüzivlik, Müxtəliflik və Bərabər İmkanlar


ATB müxtəlifliyin təşviqini, inklüziv mühitin yaradılmasını və bərabər imkanların təmin olunmasını korporativ dəyərlərinin ayrılmaz hissəsi kimi qəbul edir. Bankın bu sahədə fəaliyyəti müvafiq daxili sənədlərə, milli qanunvericiliyə və beynəlxalq çərçivələrə əsaslanır.

ATB müxtəliflik, inklüzivlik və bərabər imkanlar sahəsində aşağıdakı əsas prinsipləri rəhbər tutur. Bank bu prinsiplərin daxili proseslərə və gündəlik əməliyyatlara tətbiqinə sadiqliyini qoruyur.

- Mövcud qanunvericiliyə riayət və beynəlxalq standartlara hörmətlə yanaşma;
- Müxtəliflik və sosial inklüzivliyin təşviqi;
- Hər kəsə qarşı ədalətli və diskriminasiyasız yanaşma;
- Ayrı-seçkiliyin qarşısının alınması;
- İşə qəbul prosesində şəffaflıq və ədalətlilik;
- Müştərilərlə münasibətlərdə inklüziv, hörmətə əsaslanan və bərabər xidmət prinsipinin təmin olunması;
- İnklüzivlik və bərabərlik prinsiplərinin pozulmasında bilavasitə və ya dolayı iştirakdan çəkinmə;
- Gender bərabərliyinin dəstəklənməsi və qadınların rəhbərlikdə iştirakının təşviqi.

Hesabat dövrü ərzində əməkdaşlara qarşı ayrı-seçkilik halları qeydə alınmamışdır.

Müxtəliflik, inklüzivlik və bərabər imkanlar prinsiplərinin pozulması hallarında əməkdaşlar və digər maraqlı tərəflər İnsan Resursları departamentinə müraciət etməyə və bu xüsusi kommunikasiya kanallarından istifadə etməyə təşviq olunurlar.



Şəkil 66. **2025-ci ildə əməkdaşların gender bölgüsü**

2024-cü ildə Müşahidə Şurasının tərkibi 3 üzvdən ibarət olmuş, üzvlərin 2-si kişi (66,7%), 1-i isə qadın (33,3%) olmuşdur. 2025-ci ildə Şuranın tərkibi genişlənərək 5 üzvə çatmış və 2025-ci ilin sonuna üzvlərin hamısı (100%) kişi cinsindən olmuşdur.

Göstərici	2023		2024		2025	
Başlanğıc əmək haqqının ölkədəki minimal əmək haqqına görə nisbəti	kişi	qadın	kişi	qadın	kişi	qadın
	1.16	1.16	1.16	1.16	1	1

Cədvəl 5. **Bankda başlanğıc əmək haqqının ölkədəki minimal əmək haqqına görə nisbəti**

Göstərici	2023	2024	2025
Qadınların minimal əmək haqqının kişilərə nisbəti	100%	100%	100%

Cədvəl 6. **Bankda qadınların minimal əmək haqqının kişilərə nisbəti**

İnsan Hüquqları

Hesabat dövründə ATB-də insan hüquqlarına hörmətin institusional şəkildə gücləndirilməsi məqsədilə "İnsan Hüquqları Siyasəti" Bankın Müşahidə Şurasının 30 oktyabr 2025-ci il tarixli qərarı ilə təsdiq edilmişdir. Siyasət **Azərbaycan Respublikasının qanunvericiliyinə, BMT Qlobal Sazişi prinsiplərinə və digər beynəlxalq çərçivələrə uyğun olaraq hazırlanmış** və Bankın insan hüquqları üzrə öhdəliklərini sistemli şəkildə müəyyən etmişdir. Sənəd Bankın əməkdaşlar, müştərilər, tərəfdaşlar və təchizatçılarla münasibətlərində **ədalətlilik, şəffaflıq və qarşılıqlı hörmət prinsiplərinə sadiqliyini təsbit edir. ATB ayrı-seçkiliyin, məcburi və uşaq əməyinin, habelə zorakılığın bütün formalarının yolverilməzliyini** açıq şəkildə bəyan edir və **bərabər imkanların təşviqini** prioritet kimi müəyyənləşdirir. Siyasət çərçivəsində **iş mühitində müxtəliflik və inklüzivliyin dəstəklənməsi, əmək hüquqlarının qorunması və məlumatların məxfiliyinin təmin edilməsi** üzrə öhdəliklər təsbit edilmişdir.

İnsan kapitalının effektiv idarə olunmasının təmin edilməsi məqsədilə İnsan Resursları **Departamenti Daxili Nəzarət, Risk Menecmenti** və digər departamentlər ilə sıx əməkdaşlıq edir. 2025-ci ildə daxili nəzarət mühitinin gücləndirilməsi, xüsusilə **fraud və insident hallarının araşdırılması üzrə yeni prosedurun tətbiqi insan kapitalı ilə** bağlı potensial risklərin daha sistemli monitorinqinə imkan yaratmışdır.

İnsan kapitalı üzrə əsas risk və çağırışlar

2025-ci ildə insan kapitalının idarə olunması sahəsində əsas çağırışlar aşağıdakılar olmuşdur:

- ixtisaslı kadrların saxlanılması
- əmək bazarında rəqabətin artması
- rəqəmsal bacarıqlara tələbatın yüksəlməsi

Bank bu risklərin idarə olunmasını **istedadların idarə olunması yanaşmasının gücləndirilməsi, təlim və inkişaf proqramlarının genişləndirilməsi və işəgötürən brendinin möhkəmləndirilməsi** vasitəsilə təmin etməyi hədəfləyir.

7. ATB-nin Korporativ Sosial Məsuliyyəti

ATB müxtəlif istiqamətlərdə həyata keçirdiyi təşəbbüslər vasitəsilə cəmiyyətin **sosial və ekoloji** baxımdan dayanıqlı inkişafını dəstəkləyir. Bankın KSM fəaliyyəti **sosial rifahın artırılması və ətraf mühitin qorunması prinsiplərinin biznes strategiyasına inteqrasiyasına yönəlib.**

KSM Siyasətinin tətbiqi planları

ATB sosial məsuliyyət fəaliyyətlərini daha sistemli və məqsədyönlü şəkildə həyata keçirmək üçün yeni KSM Siyasəti hazırlayıb. Bu Siyasət Bankın mövcud KSM fəaliyyətinin əsas prinsiplərinin, layihələrin seçilməsi prosesinin, monitorinq və nəzarət mexanizmlərinin, öhdəliklərin bölgüsünün, eləcə də digər müvafiq məsələlərin formalaşdırılmış və şəffaf şəkildə təqdim olunmasını təmin edəcəkdir.




ATB, Korporativ Sosial Məsuliyyət siyasəti çərçivəsində milli həmrəylik və ictimai dayanıqlığın gücləndirilməsinə, sosial rifahın artırılmasına və inklüziv cəmiyyətin formalaşdırılmasına töhfə verir. Bank insan kapitalının inkişafı, təhsil və maliyyə savadlılığının təşviqi ilə yanaşı, əməkdaşlarının sosial rifahını və iş mühitini dəstəkləyir. Ətraf mühitin qorunması, yaşıl təşəbbüslər və regional inkişaf layihələri Bankın fəaliyyətində mühüm yer tutur. Gənclərin və qadınların iqtisadi imkanlarının artırılması, rəqəmsal bərabərliyin təmin edilməsi və ictimai iştirakçılığın təşviqi də əsas prioritetlərdəndir. Bank, mədəni irsin qorunmasına və sağlam həyat tərzinin təşviqinə dəstək verir. Eyni zamanda, fövqəladə hallarda humanitar yardım göstərilməsi də Bankın KSM prinsipləri sırasındadır.

Bank daxilində Korporativ Sosial Məsuliyyət (KSM) layihələrinin planlaşdırılması, qiymətləndirilməsi və icrası Etik və Sosial Məsələlər üzrə Komissiyanın ümumi nəzarəti altında, Hesablaşmalar, Komplayens, İnsan Resursları və Marketinq departamentləri də daxil olmaqla aidiyyəti struktur bölmələrin birgə əməkdaşlığı əsasında həyata keçirilir.

Layihələrin ilkin qiymətləndirilməsi Hesablaşmalar departamenti tərəfindən aparılır və bu mərhələdə Etik və Sosial Məsələlər üzrə Komissiya ilə birgə qərarvermə prosesi təmin edilir. Etik və Sosial Məsələlər üzrə Komissiya KSM təşəbbüslərinin strateji və operativ monitorinqini həyata keçirir, onların Bankın dəyərləri və prinsiplərinə uyğunluğunu qiymətləndirir və İdarə Heyətinə təqdim olunmaq üçün müvafiq tövsiyələr hazırlayır. Sonrakı mərhələlərdə layihələrin səmərəli və koordinasiyalı şəkildə icrası üçün bütün aidiyyəti bölmələr arasında əməkdaşlıq təşkil olunur. Sonda isə layihələrin yekun təsdiqi İdarə Heyətinin üzvü tərəfindən verilir. Bu yanaşma Bankın sosial öhdəliklərinin vahid, məqsədyönlü və sistemli şəkildə həyata keçirilməsinə imkan yaradır.

KSM layihələrinin qiymətləndirilməsi zamanı proses yalnız texniki meyarların yoxlanılması ilə məhdudlaşmır – layihələrin sosial dəyəri, cəmiyyətə təsiri və əməkdaşlar arasında qarşılıqlı maraq yaratmaq potensialı da nəzərə alınır. **Layihə təkliflərinin təqdimatından son təsdiqə qədər olan bu proses şəffaf və mərhələli şəkildə idarə olunur. ATB-də KSM layihələrinin seçim prosesinin mövcud olan mərhələləri aşağıdakı şəkildə əks olunub.**



Şəkil 67. **KSM layihələrinin seçim prosesi**

Həyata Keçirilmiş KSM Təşəbbüsləri

Bank əməkdaşlarına sosial maddi yardım

ATB, əməkdaşlarının ehtiyaclarını nəzərə alaraq sosial yönümlü maddi yardım ödənişləri həyata keçirmişdir. Bu təşəbbüs, bank əməkdaşlarının sosial rifahının yaxşılaşdırılmasına xidmət edir və rəsmi prosedurlar çərçivəsində şəffaf şəkildə icra olunub.

AFAD-a ianə

ATB Türkiyədə baş vermiş təbii fəlakət nəticəsində zərər çəkənlərə dəstək məqsədilə 50 000 manat ianə edib və vəsaiti Türkiyə Daxili İşlər Nazirliyi Təbii Fəlakət və Fövqəladə Hallar İdarəsinin (AFAD) hesabına köçürüb. Həmçinin, Türkiyə banklarına edilən yardım köçürmələri üçün müştərilərdən komissiya haqqı tutulmayıb.

"YAŞAT" Fonduna dəstək

ATB "YAŞAT" Fonduna dəstək göstərən maliyyə qurumlarından biridir. Bank, fondun məqsədlərinə uyğun olaraq, şəhid ailələri və qazilərin sosial rifahının yaxşılaşdırılmasına yönəlmiş təşəbbüsləri dəstəkləyir. ATB-nin bu sahədəki fəaliyyəti, fondun şəffaflıq və ictimai nəzarət prinsiplərinə uyğun olaraq həyata keçirilir.

ADA Universitetinə ianə

ATB, gənclərin təhsil imkanlarının genişləndirilməsi məqsədilə ADA Universitetinə ianə göstərmişdir. Bu təşəbbüs akademik inkişafı və təhsil sahəsində innovativ layihələrin dəstəklənməsini hədəfləyir. Bankın dəstəyi, təhsil sektorunda davamlı tərəqqi və gənclərin potensialının artırılması prinsiplərinə uyğun olaraq həyata keçirilir.

Şəhid ailələrinə dəstək

ATB şəhid hərbçilərin ailələrinə, o cümlədən şəhid olmuş əməkdaşının ailəsinə maddi və mənəvi dəstək göstərmişdir. Bu təşəbbüs, şəhid ailələrinin sosial rifahının yaxşılaşdırılması və onların hərtərəfli dəstəklənməsi məqsədini daşıyır.

Biləsuvar Mübariz Təhsil Kompleksi

Mübariz İbrahimov adına Biləsuvar Bağça-Məktəb-Lisey Kompleksində (BMLK) şəhid və qazi övladlarının təhsil haqlarının ödənilməsi həyata keçirilib.

Özünüməşğulluq Proqramı (ÖMP) çərçivəsində sahibkarlara yardım

ATB özünüməşğulluq və mikrosahibkarlığın təşviqi məqsədilə Dövlət Məşğulluq Agentliyi tərəfindən həyata keçirilən ÖMP layihəsi çərçivəsində seçilmiş sahibkarlara maddi və təlim dəstəyi göstərmişdir. Təşəbbüsün əsas məqsədi sosial rifahın artırılması və yerli iqtisadi fəallığın gücləndirilməsidir.

Əməkdaşlar üçün "Agile" təlimləri

Rəqəmsal Transformasiya Mərkəzi, Prosessinq Mərkəzi, Biznes Proseslərin İdarə Edilməsi Departamenti əməkdaşları, eləcə də müxtəlif struktur bölmələrinin rəhbərləri üçün "Agile 360" təlimi təşkil olunmuşdur.

Gənc mütəxəssislərin hazırlanmasına dəstək

Bankın İnsan Resursları Departamenti universitetlərlə qarşılıqlı əməkdaşlıq çərçivəsində tələbələrin peşəkar inkişafına dəstək məqsədilə müxtəlif karyera sərgilərində fəal iştirak etmiş, həmçinin onların Bankın müxtəlif struktur bölmələrində praktiki bilik və bacarıqlar əldə etmələrinə imkan yaratmışdır.

Beynəlxalq Ahıllar Günü

1992-ci ildə BMT Baş Məclisinin qəbul etdiyi qətnaməyə əsasən hər il 1 oktyabr dünyada, o cümlədən Azərbaycanda Beynəlxalq Ahıllar Günü kimi qeyd olunur. Bu münasibətlə ahıllarla görüş təşkil edilmiş, onların asudə vaxtının səmərəli təşkili və sağlam həyat tərzinin təşviqi məqsədilə idman sahələri üçün zəruri avadanlıqların təmin olunmasına dəstək göstərilmişdir. Layihə ahıllara diqqət və qayğının artırılmasına, onların cəmiyyətlə daha aktiv ünsiyyətinə töhfə vermək məqsədi daşıyır.

Ümumdünya Heyvanları Müdafiə Günü

Bankın əməkdaşları 4 oktyabr – Ümumdünya Heyvanları Müdafiə Günü münasibətilə IDEA Heyvanlara Qayğı Mərkəzinə səfər etmiş, mərkəzin fəaliyyəti ilə tanış olmuş və heyvanlara qayğı təşəbbüslərinə dəstək göstərmişlər.

Şəhid övladları üçün ekskursiya

"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi, Tərtər Rayon İcra Hakimiyyəti və Bankın təşəbbüsü ilə Tərtər rayonunda yaşayan azyaşlı şəhid övladlarının Bakı şəhərinə səfəri təşkil olunmuşdur. Səfər çərçivəsində uşaqlar paytaxtın görməli yerlərini ziyarət etmiş, müxtəlif əyləncə və maarifləndirici proqramlarda, o cümlədən master-klasslarda iştirak etmişlər. Layihə şəhid övladlarının sosial fəallığının və özünəinamının artırılmasına, həmçinin milli-mənəvi dəyərlərə bağlılığının gücləndirilməsinə töhfə vermək məqsədi daşıyır.

Cədvəl 7. **2023-2025-cü illər üzrə mühüm KSM təşəbbüslərimiz**[2]

[2] Ətraf mühitlə bağlı həyata keçirilən təşəbbüslər barədə ətraflı məlumat Hesabatın "Ətraf mühitin qorunması" bölməsində təqdim olunmuşdur.

Aşağıdakı cədvəldə Bank tərəfindən yaşayış şəraitinin yaxşılaşdırılması, əlçatan mənzil təminatının genişləndirilməsi və aqrar sahənin inkişafının dəstəklənməsi məqsədilə həyata keçirilən əsas layihələr və güzəştlər haqqında ümumi məlumat əks olunmuşdur:

Layihənin adı	Təsviri
MİDA (güzəştli ipoteka)	Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) tərəfindən imtiyazlı kateqoriyaya daxil olan vətəndaşların güzəştli ipoteka kreditləri vasitəsilə mənzillərlə təmin olunması.
Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu çərçivəsində güzəştli sosial ipoteka kreditləri	Müvafiq güzəşt kateqoriyalarına uyğun vətəndaşlara güzəştli sosial ipoteka kreditlərin təqdim edilməsi.
Fiziki məhdudiyyətli şəxslərə bank xidmət haqqı və komissiya tutulmadan kreditlərin verilməsi	Fiziki məhdudiyyətli şəxslərə bank xidmət haqları və komissiyalar tətbiq edilmədən kredit almaq imkanı təqdim edilir.
İşçilərə güzəştli kredit şərtləri	Bankın əməkdaşları kreditləri digər müştərilərə təklif olunan faiz dərəcəsindən 2% daha aşağı faizlə əldə edə bilərlər.
İşçilərin mənzil ehtiyaclarının qarşılanması üçün güzəştli ipoteka kreditləri	İşçilərə Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu vasitəsilə 7% faiz dərəcəsi ilə ipoteka kreditləri təqdim edilir.
AKİA vasitəsilə güzəştli kreditlər	Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA) vasitəsilə 7% faiz dərəcəsi ilə güzəştli aqrar kreditlərin təqdim edilməsi.

Cədvəl 8. **ATB tərəfindən dəstəklənən güzəştli kredit layihələri**

ATB gələcək dövrlərdə də Korporativ Sosial Məsuliyyət Siyasəti çərçivəsində həyata keçirdiyi mövcud layihələri davam etdirməklə yanaşı, ictimai rifahın artırılması və dayanıqlı inkişaf məqsədlərinə uyğun yeni təşəbbüsləri tətbiq edərək sosial təsir dairəsini genişləndirməyə davam edəcəkdir. Bu yanaşma Bankın cəmiyyət qarşısında götürdüyü öhdəliklərin uzunmüddətli və davamlı icrasını təmin edəcəkdir.



8. Ətraf Mühitin Qorunması


ATB **ekoloji dayanıqlılığı strateji inkişaf prioritetlərindən biri** kimi qəbul edir və fəaliyyətində **ətraf mühitin qorunmasına dair prinsiplərin tətbiqinə** xüsusi diqqət yetirir. Bank bu istiqamətdə **2025-ci ildə tərtib edilmiş ESG Strategiyası** çərçivəsində ekoloji məsuliyyətli idarəetmə yanaşmasını təşviq edir, **resurslardan səmərəli istifadənin artırılmasını** dəstəkləyir və əməliyyat fəaliyyətinin ətraf mühitə təsirinin azaldılmasını əsas prioritet istiqamətlərdən biri kimi müəyyən edir.



Bank daxili fəaliyyətlərində enerji səmərəliliyinin artırılması, tullantıların azaldılması və təkrar emal təşəbbüslərinin genişləndirilməsi vasitəsilə əməliyyat fəaliyyətinin ekoloji təsirinin azaldılmasını hədəfləyir. Bununla yanaşı, kredit və investisiya qərarlarında iqlim dəyişiklikləri ilə bağlı risk və imkanların nəzərə alınması Bankın məsuliyyətli və dayanıqlı maliyyələşdirmə yanaşmasının mühüm tərkib hissəsini təşkil edir.

ATB hesab edir ki, bank sektoru dayanıqlı iqtisadi inkişafın və ekoloji rifahın təşviqində mühüm rol oynayır. Bu baxımdan, Bank yaşıl maliyyələşmə imkanlarının genişləndirilməsi, ekoloji məsuliyyət prinsiplərinə sadiq tərəfdaşlarla əməkdaşlığın təşviqi və davamlı biznes yanaşmalarının tətbiqi vasitəsilə dayanıqlı iqtisadiyyatın inkişafına töhfə verməyi hədəfləyir.

Bank fəaliyyətinin ətraf mühitə təsirinin minimuma endirilməsi məqsədilə aşağıdakı istiqamətlər üzrə tədbirlər görülür:



Bankın ətraf mühit üzrə fəaliyyəti Hesablaşmalar Departamenti tərəfindən nəzarətdə saxlanılır. Departament, Bankın digər struktur bölmələri ilə mütəmadi olaraq qarşılıqlı əlaqə qurur. Hesablaşmalar Departamenti ətraf mühitlə bağlı mövzular üzrə Etik və Sosial Məsələlər üzrə Komissiyanın və İdarə Heyətinin müraciəti əsasında rəhbərliyə hesabat təqdim edir.

Enerji effektivliyi

Hesabat dövrü ərzində **ATB enerji səmərəliliyinin artırılmasını və resurslardan səmərəli istifadəni** əməliyyat fəaliyyətinin mühüm prioritetlərindən biri kimi nəzərə alaraq müvafiq tədbirlər həyata keçirmişdir. Bu çərçivədə Bankın **baş ofisi, filial şəbəkəsi və banka məxsus nəqliyyat vasitələri üzrə dizel, benzin, təbii qaz və elektrik enerjisinin istehlakı** təhlil edilmişdir.

Enerji resurslarının **optimallaşdırılması və istehlakın azaldılması** məqsədilə hesabat dövründə bütün enerji növləri üzrə istehlak göstəricilərinin hesablanması aparılmışdır. Bu yanaşma **birbaşa (Əhatə 1) və dolayı (Əhatə 2) istixana qazı emissiyalarının ölçülməsi** və Bankın əməliyyat fəaliyyətinin **ekoloji təsirinin daha dəqiq qiymətləndirilməsi** üçün əsas yaratmışdır.

2025-ci ildə Bank üzrə **ümumi yanacaq sərfiyyatı 45 888 litr** təşkil etmişdir ki, **2024-cü illə müqayisədə 2 873 litr və ya təxminən 6.7% artım** deməkdir. Sözügedən artım əsasən **Bankın əməliyyat fəaliyyətinin genişlənməsi, filial şəbəkəsinin inkişafı və əlavə xidməti avtomobillərin istifadəyə verilməsi** ilə əlaqədardır.

Yanacaq növləri üzrə istehlaka nəzər saldıqda, **dizel yanacağının sərfiyyatı 2025-ci ildə 18 070,61 litr olmuşdur ki, bu** da **2024-cü illə müqayisədə (15 770 litr) 2 300,61 litr və ya təxminən 14.6% artım** təşkil edir.

Benzin (AI-92) üzrə istehlak 2024-cü ildə qeydə alınmamış, **2025-ci ildə isə 1 506 litr** olmuşdur.

Benzin (AI-95) üzrə istehlak isə 2024-cü ildə 27 245 litr olduğu halda, **2025-ci ildə 26 311,63 litr təşkil etmiş və** əvvəlki illə müqayisədə **933,37 litr və ya təxminən 3.4% azalma** müşahidə olunmuşdur.

Göstərici	2023	2024	2025
Ümumi yanacaq sərfiyyatı	**47 085,51**	**43 015,00**	**45 888,24**
Dizel	15 211,00	15 770,00	18 070,61
Benzin (AI-92)	9 711,53	-	1 506,00
Benzin (AI-95)	22 162,98	27 245,00	26 311,63
Bir işçiyə düşən yanacaq sərfiyyatı həcmi	80,21	63,72	61,59

Cədvəl 9. **Növlər üzrə yanacaq sərfiyyatı, litr**

Ümumilikdə, **bir işçiyə düşən yanacaq sərfiyyatı göstəricisi** hesabat dövründə azalma tendensiyası nümayiş etdirmişdir. Bu göstərici **2024-cü ildə 63.72 litr** olduğu halda, **2025-ci ildə 61.59 litr** təşkil etmişdir. Beləliklə, əvvəlki illə müqayisədə **2.13 litr və ya təxminən 3.3% azalma** qeydə alınmışdır. Bu dinamika **yanacaq istehlakının optimallaşdırılması və resurslardan daha səmərəli istifadə istiqamətində həyata keçirilən tədbirlərin nəticəsi** kimi qiymətləndirilir.

Göstərici	2023	2024	2025
Təbii qaz, m^3	97 823,00	97 144,68	131 131,27
Bir işçiyə düşən təbii qaz sərfiyyatı həcmi	166,64	143,91	176,01

Cədvəl 10. **Təbii qaz sərfiyyatı, m^3**

2023-cü illə müqayisədə 2025-ci ildə bir işçiyə düşən təbii qaz sərfiyyatı təxminən 5.6% artaraq 176.01 m^3 təşkil etmişdir. Sərfiyyatda müşahidə olunan dəyişikliklər əsasən Bankın fəaliyyət həcminin genişlənməsi və yeni filialların istifadəyə verilməsi ilə əlaqədardır.

Göstərici	2023	2024	2025
Elektrik enerjisi, kVts	1 569 944	1 824 113	1 890 652
Bir işçiyə düşən elektrik enerjisi sərfiyyatı həcmi	2 675	2 702	2 538

Cədvəl 11. **Elektrik enerjisi sərfiyyatı, kVts**

Eyni dövrdə **bir işçiyə düşən elektrik enerjisi sərfiyyatı** 2023-cü ildə **2,675 kVts,** 2024-cü ildə **2,702 kVts,** 2025-ci ildə isə **2,538 kVts** olmuşdur. Beləliklə, **2023-cü illə müqayisədə 2025-ci ildə bu göstərici 137 kVts və ya təxminən 5.1% azalmışdır.**

İqlim dəyişikliyi və emissiyalar

ATB iqlim dəyişikliyinə qarşı mübarizədə məsuliyyətli yanaşmanı rəhbər tutaraq, istixana qazı (İEYQ) emissiyalarının ölçülməsi və nəzarət olunmasına xüsusi önəm verir. Bankın əsas məqsədi öz fəaliyyətindən qaynaqlanan karbon izini dəqiq şəkildə qiymətləndirmək, ətraf mühitə təsirini azaltmaq və bu prosesdə şəffaf hesabatlılığı təmin etməkdir.

ATB-nin istixana qazı (İEYQ) emissiyaları GHG Protokolunun tələblərinə uyğun olaraq hesablanmışdır. Əhatə 1 (birbaşa) və Əhatə 2 (dolayı) emissiyaları Bankın baş ofisini və bütün filial şəbəkəsini əhatə edir.

	Əhatə dairəsi	Mənbələr
Birbaşa (Əhatə 1)	Baş ofis filiallar	Dizel, benzin, təbii qaz
Dolayı (Əhatə 2)	Baş ofis filiallar	Elektrik enerji sərfiyyatı

Dolayı emissiyaların hesablanmasında regiona əsaslanan (location-based) yanaşma tətbiq edilmişdir. Bu yanaşma Bankın karbon izi barədə daha dəqiq və şəffaf məlumat təqdim etməsinə şərait yaratmışdır. Hesablamalar zamanı etibarlı beynəlxalq məlumat bazalarından götürülmüş emissiya əmsalları tətbiq edilmişdir.

Göstərici	2023	2024	2025
Birbaşa emissiyalar (Əhatə 1)	317,33	306,53	387,13
Dolayı emissiyalar (Əhatə 2)	752,68	874,54	897,63
Ümumi birbaşa və dolayı emissiyalar	1 070,01	1 181,06	1 284,75
Bir işçiyə düşən emissiyaların həcmi	1,82	1,75	1,72

Cədvəl 12. **Birbaşa və dolayı İEYQ emissiyalarının həcmi, tCO_2e**

2023–2025-ci illər ərzində Bank üzrə birbaşa və dolayı istixana qazı emissiyaları artım tendensiyası nümayiş etdirmişdir. Birbaşa emissiyalar (Əhatə 1) 2023-cü ildə 317.33 tCO_2e olduğu halda, 2024-cü ildə 306.53 tCO_2e, 2025-ci ildə isə 387.13 tCO_2e təşkil etmişdir.

Dolayı emissiyalar (Əhatə 2) isə 2023-cü ildə 752.68 tCO_2e, 2024-cü ildə 874.54 tCO_2e, 2025-ci ildə isə 897.63 tCO_2e olmuşdur. Nəticədə ümumi birbaşa və dolayı emissiyalar 2023-cü ildə 1,070.01 tCO_2e olduğu halda, 2025-ci ildə 1,284.75 tCO_2e-ə yüksələrək təxminən 20.1% artım göstərmişdir.

Eyni dövrdə bir işçiyə düşən emissiya həcmi azalma nümayiş etdirərək 2023-cü ildə 1.82 tCO_2e, 2024-cü ildə 1.75 tCO_2e, 2025-ci ildə isə 1.72 tCO_2e təşkil etmişdir. Bu tendensiya ümumi emissiyaların artmasına baxmayaraq, işçi sayının daha sürətli artdığını və əməliyyat fəaliyyətinin emissiya intensivliyinin nisbətən yaxşılaşdığını göstərir. ESG Strategiyasına uyğun olaraq emissiyaların azaldılması hədəfinin müəyyən edilməsi və bu istiqamətdə müvafiq tədbirlərin həyata keçirilməsi davam etdirilir.

Maliyyələşdirilmiş emissiyalar

Hesabat dövründə portfelimiz üzrə maliyyələşdirilən ümumi GHG emissiyaları Korporativ seqmentdə 40,749 tCO_2e-dən 31,734 tCO_2e-yə azalmışdır. Bu dinamika ilk növbədə kredit portfelinin ümumi həcmindəki dəyişikliklə əlaqədardır və institutumuzun risk-əsaslı kreditləşdirmə strategiyasının bir hissəsi kimi qiymətləndirilir.

Eyni zamanda, portfelin karbon intensivliyi göstəricisi (kqCO2e/AZN) hesabat dövründə 0.1426-dan 0.1458-ə yüksəlmişdir ki, bu da müştəri bazasının sektor tərkibindən asılı olaraq dəyişkənlik nümayiş etdirir. Bank bu göstəricini mütəmadi olaraq izləyir və portfelin gələcək artımı zamanı karbon intensivliyinin idarə olunması üçün ESG risk qiymətləndirmə çərçivəsini gücləndirməyi planlaşdırır.

Müştəri qrupu	Emissiya intensivliyi $kqCO_2e$ / AZN	Qeyri-müəyyənlik (±)	Emissiya (tCO_2e)
Emissiya intensivliyi (Korporativ)	0.1458	±10–15%	31 734
Emissiya intensivliyi (KOB və mikro)	0.04447	>±60%	1 552

Şəkil 68. **Maliyyələşdirilmiş emissiyaların intensivliyi və həcmləri**

Əhatə 3 emissiyalarının hesablanması

Bankın Əhatə 3 emissiyaları PCAF metodologiyası əsasında (Əhatə 3.15 kateqoriyası üzrə) hesablanmışdır. Hesablamalarda müştərilər tərəfindən təqdim edilən məlumatlardan və müvafiq emissiya faktorlarından istifadə edilmişdir. Məlumatların bütün hallarda müstəqil şəkildə yoxlanılması mümkün olmadığından, hesablamalarda müəyyən qeyri-müəyyənliklər mövcud ola bilər. Təqdim olunan göstəricilər mövcud məlumatlar əsasında ən yaxşı qiymətləndirməni əks etdirir. Bank gələcək dövrlərdə məlumatların keyfiyyətini və əhatə dairəsini təkmilləşdirməyi nəzərdə tutur.

Su səmərəliliyi

Suyun həyati əhəmiyyətli resurs olduğunu nəzərə alan ATB, baş ofis və filiallarında su istehlakının monitorinqinə başlamışdır. Qlobal miqyasda, eləcə də Azərbaycanda su qıtlığının artması fonunda bu təşəbbüs su resurslarının daha səmərəli idarə olunmasına və qənaət mexanizmlərinin tətbiqinə yönəlmişdir.

2023–2025-ci illər ərzində bir işçiyə düşən su istehlakı təxminən 16.1% azalmışdır ki, bu da resurslardan daha səmərəli istifadəni göstərir.

Göstərici	2023	2024	2025
İstehlak olunan suyun həcmi	12 426	14 179	13 232
Bir işçiyə düşən su istehlakı həcmi	21,17	21,00	17,76

Cədvəl 13. **Su istehlakı üzrə göstəricilər, m³**

Su ehtiyatlarının əhəmiyyəti və ətraf mühitin qorunması mövzusunda əməkdaşların məlumatlılığını artırmaq məqsədilə hesabat ilində filiallar arasında maarifləndirici müsabiqələr təşkil olunmuşdur. Bu təşəbbüs haqqında ətraflı məlumat hesabatın "Ətraf mühitin qorunması üzrə təşəbbüslər" bölməsində təqdim edilmişdir.

Tullantılar

ATB öz ofislərində tullantıların azaldılması və düzgün idarə olunması istiqamətində əsasən kağız, elektron tullantılar, şüşə və digər məişət tullantılarına fokuslanır. Son illərdə rəqəmsal həllər, mobil bankçılıq və onlayn xidmətlərin genişləndirilməsi nəticəsində həm əməkdaşlar, həm də müştərilər arasında kağız istifadəsi azalıb. Elektron sənəd dövriyyəsi və ödəniş sistemləri isə çap xərclərinin və ofis tullantılarının azalmasına töhfə verib.

Göstərici	2023	2024	2025
Tullantılar üzrə ödənilən ümumi məbləğ, AZN*	36 679,47	46 572,53	58 009,30
Tullantıların ümumi həcmi, m³	3 667,95	3 256,82	3 248,91

Cədvəl 14. **Tullantılar üzrə göstəricilər**

*2025-ci ildə xidmət tariflərinin artması nəticəsində tullantıların idarə olunması xərcləri yüksəlmişdir.



Ətraf mühitin qorunması üzrə təşəbbüslər

BMT Qlobal Sazişinə üzvlük

ATB 2024-cü ilin 4 noyabr tarixindən etibarən dayanıqlı inkişaf və sosial məsuliyyət sahəsində dünyanın ən böyük beynəlxalq təşəbbüslərindən biri olan Birləşmiş Millətlər Təşkilatının Qlobal Sazişinə (UN Global Compact) qoşulub.

Bank bu təşəbbüsə imza atmaqla insan hüquqları, əmək standartları, şəffaflıq və ətraf mühitin qorunması kimi sahələrdə beynəlxalq səviyyədə qəbul edilmiş 10 əsas prinsipə və Dayanıqlı İnkişaf üçün 2030 Gündəliyinə uyğun fəaliyyət göstərməyə sadiq olduğunu bir daha təsdiqləyir.

Qeyd edək ki, BMT Qlobal Sazişi hazırda 160-dan çox ölkədən 20 000-dən artıq təşkilatı birləşdirən mühüm platformadır. Sazişin əsas məqsədi üzv təşkilatların strategiya və əməli fəaliyyətlərini insan hüquqları, sosial məsuliyyət, ətraf mühitin qorunması və şəffaf idarəetmə prinsiplərinə uyğunlaşdırmaqdır.

ATB-nin bu təşəbbüsə qoşulması Bankın BMT Baş Assambleyası tərəfindən qəbul olunmuş 17 Dayanıqlı İnkişaf Məqsədinə və Qlobal Sazişin prinsiplərinə dəstəyinin nümunəsidir. Bank öz fəaliyyətində bu prinsipləri rəhbər tutaraq, sosial və ekoloji sahələrdə müsbət təsir yaradan təşəbbüsləri həyata keçirir və beynəlxalq təcrübələrə uyğunluğunu nümayiş etdirir.



"Bir Damcı Qənaət" müsabiqəsi

Bankın müxtəlif filialları arasında "Bir Damcı Qənaət" adlı təşəbbüs həyata keçirilmişdir. Bu təşəbbüsün əsas məqsədi əməkdaşları su ehtiyatlarının məhdudluğu, su qıtlığı və ümumilikdə ətraf mühitin qorunması mövzularında maarifləndirmək, onların ekoloji məsələlərə dair məlumatlılığını və məsuliyyət hissini artırmaq olmuşdur.



Ağacəkmə aksiyaları

Azərbaycan Banklar Assosiasiyası, Mərkəzi Bank, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və digər müvafiq dövlət qurumları ilə birgə, ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə 2023-cü ildən başlayaraq 10 il ərzində hər il 100 min ağac olmaqla, ümumilikdə 1 milyon ağacın əkilməsi təşəbbüsü həyata keçirilir. Bu təşəbbüs çərçivəsində Bank da aktiv iştirak edir və aidiyyəti tədbirlərin icrasında öz töhfəsini verir. Hesabat dövründə ABA-nın dəstəyi ilə bir neçə ağacəkmə aksiyasında iştirak edilmişdir.



Ətraf mühitin qorunması üzrə maarifləndirici posterlər

Ofislərimizdə yerləşdirilən maarifləndirici posterlər əməkdaşları suya qənaət, tullantıların azaldılması və karbon izinin minimuma endirilməsi kimi ekoloji məsuliyyətli davranışlara təşviq edir.



Dayanıqlı Depozit Təşəbbüsü

Hesabat dövründə Bank dayanıqlı maliyyənin təşviqi məqsədilə 10 milyon ABŞ dolları məbləğində dayanıqlı depozit təşəbbüsü həyata keçirmişdir. Sözügedən vəsait ekoloji və sosial cəhətdən məsuliyyətli layihələrin maliyyələşdirilməsinə yönəldilmişdir.



Tullantıların çeşidlənməsi

2025-ci ildə Baş ofis və filiallarda tullantıların çeşidləndirilməsi məqsədilə xüsusi qutuların quraşdırılması təmin edilmişdir.

Gələcək planlar

ATB “Yaşıl Biznes” təşəbbüsü ilə ekoloji dayanıqlılığı gücləndirməyi və ESG prinsiplərinə uyğun bizneslər dəstəkləməyi planlaşdırır. Bank ekoloji təmiz məhsulların istehsalını və yaşıl zonaların yaradılmasını təşviq edəcək, eləcə də ESG yönümlü müştəriləri üçün yeni yaşıl məhsullar təqdim etməyi hədəfləyir. Bu təşəbbüs haqqında ətraflı məlumat növbəti hesabatda təqdim olunacaq.

Əhatə dairəsi 1 və 2 emissiyaları intensivliyinin azaldılması.

Maliyyələşdirilmiş emissiyaların qiymətləndirilməsi üzrə əhatə səviyyəsi korporativ portfel üzrə 80%-ə çatdırılması, bununla yanaşı dayanıqlı kreditlərin ümumi portfeldə payının artırılması prioritet istiqamətlərdən biri kimi müəyyən edilmişdir

Qarşıdakı illərdə də hər il ağacəkmə aksiyalarında iştirakımızın davam etdirilməsi planlaşdırılır. ATB bu təşəbbüsə ardıcıl şəkildə töhfə verməyi və ekoloji tədbirlərdə fəal iştirakını davam etdirməyi özünə məqsəd qoyur.

Su səmərəliliyi tədbirlərinin həyata keçirilməsi (Su səmərəliliyi üzrə maarifləndirmə proqramının tətbiqi, istehlakın izlənməsi və azaldılması).

Emissiyaların azaldılması, enerji səmərəliliyi, tullantıların idarə edilməsi və su səmərəliliyi üzrə ISO 14001 təcrübələrinə uyğunlaşma hədəflənmişdir

Kağız istehlakının azaldılması üzrə tədbirlərin həyata keçirilməsi.

9. Təchizat Zəncirinin İdarə Olunması

ATB üçün təchizat zəncirinin etik, şəffaf və məsuliyyətli idarə olunması əhəmiyyət daşıyan istiqamətlərdən biridir. Bu istiqamətdə Bank beynəlxalq təcrübəyə əsaslanan, şəffaflıq, ədalətlilik və məsuliyyət prinsiplərinə uyğun olan yanaşmalara üstünlük verir.

Təchizat fəaliyyəti **İnzibati İşlər və Satınalmalar Departamenti** tərəfindən normativ qaydalar əsasında idarə olunur, planlaşdırma və qərarvermə prosesləri isə **Satınalma Komissiyası** vasitəsilə strukturlaşdırılmış şəkildə həyata keçirilir.

Satınalma prosesində saxtakarlığın, maraqların toqquşmasının, etik pozuntuların qarşısını almaq, təchizat zəncirinin davamlılığı və keyfiyyətinin təmin edilməsi məqsədilə bütün mərhələlərdə risk qiymətləndirməsi və monitorinq tədbirləri aparılır. Qiymətləndirmə və qərarların qəbul olunması Satınalma Komissiyası tərəfindən kollegial şəkildə həyata keçirilir və bütün mərhələlər üzrə protokollaşdırılır.

Bank həm yerli, həm də xarici təchizatçılarla münasibətlərdə bərabər imkanlar, şəffaf şərtlər və qarşılıqlı etimad prinsiplərini rəhbər tutur. Bank satınalma prosesində şəffaflığın təmin edilməsi məqsədilə açıq tender, kotirovka və digər normativ əsaslı üsullardan istifadə edir.

Təchizatçıların qiymətləndirilməsi

ATB satınalma proseslərində müvafiq qiymətləndirmə metodologiyasına əsaslanaraq, hər bir təklifi vahid meyarlar əsasında dəyərləndirir. Qiymətləndirmə prosesi ilkin yoxlanış, texniki və maliyyə qiymətləndirməsi, zərurət yarandıqda izahat sənədlərinin təhlili əsasında aparılır, qiymətləndirmə hesabatları ilə yekunlaşdırılır.

Tender elanları və müsabiqə əsasında seçilmiş təchizatçılar haqqında məlumat Bankın veb-saytında dərc olunur.

ATB təchizatçılarla uzunmüddətli və səmərəli əməkdaşlıq məqsədilə Etibarlı Təchizatçıların Siyahısını formalaşdırır və mütəmadi olaraq yeniləyir.

Uyğunsuzluq halları müəyyən edilmiş və performans göstəricisi qeyri-kafi olan təchizatçılar müvafiq sübutedici sənədlər və protokollar əsasında "Arzu olunmayan təchizatçılar" siyahısına daxil edilir və satınalma proseslərindən uzaqlaşdırılır. Qərəzsiz və əsaslandırılmış qərar qəbulunu təmin etmək məqsədilə, müvafiq siyahı hər maliyyə ilinin əvvəlində yenidən nəzərdən keçirilib, struktur bölmələrlə razılaşdırılır.

Təchizat zəncirində ESG prinsiplərinin inteqrasiyası

Bankın dayanıqlı inkişaf strategiyasına uyğun olaraq təchizat zəncirinin idarə olunmasında **ESG prinsiplərinin satınalma proseslərinə inteqrasiyası** nəzərdə tutulur.

Bank təchizatçılarla əməkdaşlıq zamanı iqtisadi və texniki meyarlarla yanaşı, onların fəaliyyətlərinin **ətraf mühitə təsiri, sosial məsuliyyət prinsiplərinə uyğunluğu və etik biznes davranışı standartlarına riayət olunması** kimi amillərin nəzərə alınmasını planlaşdırır. Bu yanaşma təchizat zəncirində ESG risklərinin erkən mərhələdə müəyyən edilməsinə və məsuliyyətli biznes tərəfdaşlarının seçilməsinə imkan yaradır.



Yerli təchizatçılara dəstək

ATB dayanıqlı inkişaf fəaliyyətinə uyğun olaraq yerli və məsuliyyətli təchizatçılar cəlb edilməsini dəstəkləyir. Cari hesabat dövründə yerli təchizatçıların əksəriyyət təşkil etməsi sahibkarlığın stimullaşdırılmasına və iqtisadi dəyər yaradılmasına təkan verir.

GRI Məzmun İndeksi

İstifadə bəyanatı: Azər-Türk Bank ASC bu GRI Məzmun İndeksində göstərilən məlumatları 01.01.2023–31.12.2025-ci il dövrü üçün GRI Standartlarına istinadla təqdim etmişdir.

İstifadə olunan GRI 1: GRI 1: Əsas 2021

GRI Standartı	Açıqlama	Status	İstinad / Qeyd
Ümumi açıqlamalar			
GRI 2: Ümumi açıqlamalar 2021	2-1 Təşkilati təfərrüatlar	✓	1. Hesabat haqqında 3. ATB haqqında
	2-2 Təşkilatın dayanıqlı inkişaf hesabatına daxil edilən qurumlar	✓	1. Hesabat haqqında
	2-3 Hesabat dövrü, tezliyi və əlaqə	✓	1. Hesabat haqqında
	2-4 Məlumatın yenidən təqdim edilməsi	✓	1. Hesabat haqqında
	2-5 Kənar əminlik bəyannaməsi	✗	Növbəti hesabat illəri üçün planlaşdırılır.
	2-6 Fəaliyyətlər, dəyər zənciri və digər işgüzar əlaqələr	✓	3. ATB haqqında 3.2. ATB-nin Biznes Modeli və Əsas Xidmət Sahələrimiz
	2-7 Əməkdaşlar	✓	6. İnsan Resurslarının İdarə Olunması
	2-8 Əməkdaş olmayan digər işçilər üzrə məlumat	✗	Bu göstərici Bank üçün əhəmiyyətli deyil.
	2-9 İdarəetmə strukturu və tərkibi	✓	5. Korporativ İdarəetməyə Yanaşmamız
	2-10 Ali idarəetmə orqanına namizədlik və seçim	✓	5. Korporativ İdarəetməyə Yanaşmamız
	2-11 Ali idarəetmə orqanının sədri	✓	5. Korporativ İdarəetməyə Yanaşmamız
	2-12 Təsirlərin idarə olunmasına nəzarətdə ali idarəetmə orqanının rolu	✓	4. Dayanıqlı İnkişafa Yanaşmamız 5. Korporativ İdarəetməyə Yanaşmamız
	2-13 Təsirlərin idarə edilməsi üçün səlahiyyətin ötürülməsi	✓	4. Dayanıqlı İnkişafa Yanaşmamız 5. Korporativ İdarəetməyə Yanaşmamız
	2-14 Dayanıqlı İnkişaf Hesabatında ali idarəetmə orqanının rolu	✓	1. Hesabat haqqında 4. Dayanıqlı İnkişafa Yanaşmamız 5. Korporativ İdarəetməyə Yanaşmamız
	2-15 Maraqların toqquşması	✓	5.2. Etik Davranış və Uyğunluq
	2-16 Vacib məsələlər haqqında ali idarəetmə orqanının məlumatlandırılması	✓	5. Korporativ İdarəetməyə Yanaşmamız 5.1. Azərbaycan Bank Sektorunda Risk Mühiti 5.2. Etik davranış və Uyğunluq
	2-17 Ali idarəetmə orqanının kollektiv biliyi	✓	4. Dayanıqlı İnkişafa Yanaşmamız 5. Korporativ İdarəetməyə Yanaşmamız
	2-18 Ali idarəetmə orqanının fəaliyyətinin qiymətləndirilməsi	✗	Məxfilik məhdudiyyəti
	2-19 Mükafatlandırma siyasətləri	✓	6. İnsan Resurslarının İdarə olunması
	2-20 Mükafatlandırma prosesinin müəyyən edilməsi	✓	6. İnsan Resurslarının İdarə olunması
	2-21 İllik ümumi kompensasiya nisbəti	✗	Məxfilik məhdudiyyəti
	2-22 Dayanıqlı inkişaf strategiyası haqqında bəyanat	✓	2. İdarə Heyətinin Sədrinin Müraciəti 4. Dayanıqlı İnkişafa Yanaşmamız
	2-23 Siyasətlər	✓	Hesabat ərzində müxtəlif fəaliyyət istiqamətlərini əhatə edən siyasətlər və onların icrasına dair geniş məlumat təqdim edilmişdir.
	2-24 Siyasət öhdəliklərinin inteqrasiyası		
	2-25 Mənfi təsirləri aradan qaldırmaq üçün proseslər	✓	3.4. Müştəri Əlaqələrinin İdarə Olunması 5.2. Etik Davranış və Uyğunluq 6. İnsan Resurslarının İdarə Olunması
	2-26 Məsləhət almaq və problemləri bildirmək üçün mexanizmlər	✓	3.4. Müştəri Əlaqələrinin İdarə Olunması 5.2. Etik Davranış və Uyğunluq 6. İnsan Resurslarının İdarə Olunması
	2-27 Qanun və qaydalara uyğunluq	✓	5. Korporativ İdarəetməyə Yanaşmamız 5.2. Etik Davranış və Uyğunluq
	2-28 Assosiasiyalara üzvlüklər	✓	3. ATB Haqqında 8. Ətraf Mühitin Qorunması
	2-29 Maraqlı tərəflərin cəlb edilməsinə yanaşma	✓	4.2. Maraqlı Tərəflərin Cəlb Olunması
	2-30 Kollektiv əmək müqavilələri	✗	Bankın fəaliyyəti üçün əhəmiyyətli deyil.
Əhəmiyyətli mövzular			
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-1 Əhəmiyyətli mövzuların müəyyənləşdirilməsi	✓	4.1. Əhəmiyyətli mövzular
	3-2 Əhəmiyyətli mövzuların siyahısı	✓	4.1. Əhəmiyyətli mövzular
	3-3 Əhəmiyyətli mövzuların idarə olunması	✓	4.1. Əhəmiyyətli mövzular
İqtisadi fəaliyyət			
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların idarə edilməsi	✓	4.1. Əhəmiyyətli mövzular
GRI 201: İqtisadi fəaliyyət 2016	201-1 Əldə edilmiş birbaşa iqtisadi dəyər və onun paylaşdırılması	✓	3. ATB haqqında Maliyyə Hesabatları
	201-2 İqlim dəyişikliyi ilə əlaqədar maliyyə nəticələri, risklər və imkanlar	✗	Növbəti hesabat illəri üçün planlaşdırılır
	201-3 Müəyyən edilmiş imtiyazlar planı üzrə öhdəliklər və digər pensiya planları	✗	Azərbaycan Respublikasının Əmək Məcəlləsi əsasında tənzimlənir
	201-4 Hökumətdən alınan maliyyə yardımı	✗	Məxfilik məhdudiyyəti
Bazarda mövcudluq			
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların idarə edilməsi	✓	4.1. Əhəmiyyətli mövzular
GRI 202: Bazarda mövcudluq 2016	202-1 Yerli minimal əmək haqqı ilə müqayisədə cinslər üzrə standart əmək haqqı	✓	6. İnsan Resurslarının İdarə Olunması
	202-2 Yerli əhalidən olan rəhbərliyin payı	✓	Bankın rəhbər heyəti tam şəkildə yerli kadrlarla təmsil olunmuşdur

GRI Standartı	Açıqlama	Status	İstinad / Qeyd
Dolayı iqtisadi təsirlər			
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların idarə edilməsi	✓	4.1. Əhəmiyyətli mövzular
GRI 203: Dolayı iqtisadi təsirlər 2016	203-1 İnfrastruktur sərmayələri və dəstəklənən xidmətlər	✓	3.2. ATB-nin Biznes Modeli və Əsas Xidmət Sahələrimiz 3.3. İnnovasiya və Rəqəmsal Transformasiya 6. İnsan Resurslarının İdarə Olunması 7. ATB-nin Korporativ Sosial Məsuliyyəti 9. Təchizat Zəncirinin İdarə Olunması
	203-2 Əhəmiyyətli dolayı iqtisadi təsirlər	✓	3.2. ATB-nin Biznes Modeli və Əsas Xidmət Sahələrimiz 3.3. İnnovasiya və Rəqəmsal Transformasiya 7. ATB-nin Korporativ Sosial Məsuliyyəti
Satınalma təcrübələri			
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların idarə edilməsi	✓	4.1. Əhəmiyyətli mövzular
GRI 204: Satınalma təcrübələri 2016	204-1 Yerli təchizatçılara xərclənən vəsaitlərin ümumi büdcəyə nisbəti	✓	9. Təchizat Zəncirinin İdarə Olunması
Antikorrupsiya			
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların idarə edilməsi	✓	4.1. Əhəmiyyətli mövzular
GRI 205: Anti-korrupsiya 2016	205-1 Korrupsiya riski üzrə qiymətləndirilmiş əməliyyatlar	✓	5.1. Azərbaycan Bank Sektorunda Risk Mühiti 5.2. Etik Davranış və Uyğunluq
	205-2 Anti-korrupsiya siyasəti və prosedurları üzrə keçirilmiş təlim və kommunikasiya	✓	5.2. Etik Davranış və Uyğunluq 6. İnsan Resurslarının İdarə olunması
	205-3 Qeydə alınmış korrupsiya halları və bu halların qarşısını almaq üçün həyata keçirilmiş tədbirlər	✓	Hesabat dövründə korrupsiya ilə bağlı hər hansı insident qeydə alınmamışdır

GRI Standartı	Açıqlama	Status	İstinad / Qeyd
Antirəqabət davranışı			
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların idarə edilməsi	✓	4.1. Əhəmiyyətli mövzular
GRI 206: Antirəqabət davranışı 2016	206-1 Sağlam olmayan rəqabət davranışları, etimadsızlıq və monopoliya təcrübələri üzrə hüquqi tədbirlər	✓	5.2. Etik Davranış və Uyğunluq
Vergi			
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların idarə edilməsi	✓	4.1. Əhəmiyyətli mövzular
GRI 207: Vergi 2019	207-1 Vergiyə yanaşma	✓	Maliyyə Hesabatları
	207-2 Vergi idarəçiliyi, nəzarət və risklərin idarə edilməsi	✓	
	207-3 Maraqlı tərəflərin cəlb edilməsi və vergi ilə bağlı narahatlıqların idarə edilməsi	✓	
	207-4 Ölkə üzrə hesabat	✓	
Materiallar			
GRI 301: Materiallar 2016	301-1 İstifadə olunan materiallar, həcm və ya çəki ilə	✗	Bankın fəaliyyəti üçün əhəmiyyətli deyil.
	301-2 Təkrar istifadə olunan materiallar	✗	
	301-3 Geri toplanmış məhsullar və qablaşdırma materialları	✗	
Enerji			
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların idarə edilməsi	✓	4.1. Əhəmiyyətli mövzular
GRI 302: Enerji 2016	302-1 Təşkilat üzrə enerji sərfiyyatı	✓	8. Ətraf Mühitin Qorunması
	302-2 Təşkilat xaricində enerji istehlakı	✗	Bankın fəaliyyəti üçün əhəmiyyətli deyil.
	302-3 Enerji intensivliyi	✓	8. Ətraf Mühitin Qorunması
	302-4 Enerji sərfiyyatının azaldılması	✓	8. Ətraf Mühitin Qorunması
	302-5 Məhsul və xidmətlərin enerjiyə olan tələbatının azaldılması	✓	3.3.1. Dayanıqlı Maliyyə 8. Ətraf Mühitin Qorunması

GRI Standartı	Açıqlama	Status	İstinad / Qeyd
Su və çirkablar			
GRI 303: Su və çirkablar 2018	303-1 Sudan ortaq resurs kimi birgə istifadə	✓	8. Ətraf Mühitin Qorunması
	303-2 Su axıdılması ilə əlaqədar təsirlərin idarə edilməsi	✗	Bankın fəaliyyəti üçün əhəmiyyətli deyil
	303-3 Su çəkilməsi	✗	Bankın fəaliyyəti üçün əhəmiyyətli deyil
	303-4 Su axıdılması	✗	Bankın fəaliyyəti üçün əhəmiyyətli deyil
	303-5 Su sərfiyyatı	✓	8. Ətraf Mühitin Qorunması
Biomüxtəliflik			
GRI 304: Biomüxtəliflik 2016	304-1 Qorunan ərazilər və yüksək biomüxtəliflik dəyəri olan ərazilərdə və ya qonşu məkanlarda mövcud olan əməliyyat sahələri	✗	Bankın fəaliyyəti üçün əhəmiyyətli deyil
	304-2 Əməliyyatların, məhsulların və xidmətlərin biomüxtəlifliyə ciddi təsirləri	✗	
	304-3 Qorunan və ya bərpa edilən yaşayış yerləri	✗	
	304-4 Əməliyyat sahələrində Beynəlxalq Təbiəti Qoruma İttifaqının Qırmızı Kitabına düşmüş növlərin mövcudluğu	✗	
Emissiyalar			
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların idarə edilməsi	✓	4.1. Əhəmiyyətli mövzular
GRI 305: Emissiyalar 2016	305-1 İstixana effekti yaradan qazların (İEYQ) birbaşa emissiyası (Əhatə dairəsi 1)	✓	8. Ətraf Mühitin Qorunması
	305-2 İstixana effekti yaradan qazların (İEYQ) dolayı emissiyası (Əhatə dairəsi 2)	✓	8. Ətraf Mühitin Qorunması
	305-3 Digər istixana effekti yaradan qazların (İEYQ) dolayı emissiyası (Əhatə dairəsi 3)	✓	8. Ətraf Mühitin Qorunması
	305-4 İEYQ emissiyalarının intensivlik əmsalı	✓	8. Ətraf Mühitin Qorunması
	305-5 İEYQ emissiyalarında azalmalar	✓	8. Ətraf Mühitin Qorunması
	305-6 Ozon qatını məhv edən emissiyalar	✗	Bankın fəaliyyəti üçün əhəmiyyətli deyil
	305-7 NOx, SOx və digər əhəmiyyətli emissiyalar	✗	

GRI Standartı	Açıqlama	Status	İstinad / Qeyd
Tullantılar			
GRI 306: Tullantılar 2020	306-1 Tullantıların yaranması və tullantılarla bağlı əhəmiyyətli təsirlər	✓	8. Ətraf Mühitin Qorunması
	306-2 Tullantılarla bağlı əhəmiyyətli təsirlərin idarə edilməsi	✓	8. Ətraf Mühitin Qorunması
	306-3 Yaranan tullantılar	✓	8. Ətraf Mühitin Qorunması
	306-4 Utilizasiyadan yayındırılmış tullantılar	✗	Bankın fəaliyyəti üçün əhəmiyyətli deyil.
	306-5 Utilizasiyaya yönəldilmiş tullantılar	✗	
Təchizatçıların ətraf mühit üzrə qiymətləndirilməsi			
GRI 3: Əhəmiyyətli mövzular 2021 **GRI 308: Təchizat-çıların ətraf mühit üzrə qiymətləndi-rilməsi 2016**	3-3 Əhəmiyyətli mövzuların idarə edilməsi	✓	4.1. Əhəmiyyətli mövzular
	308-1 Ekoloji meyarlar üzrə qiymətləndirilmiş yeni təchizatçılar	✓	9. Təchizat Zəncirinin İdarə Olunması
	308-2 Təchizat zəncirində mənfi ekoloji təsirlər və görülən tədbirlər	✗	Açıqlanması növbəti hesabat illəri üçün planlaşdırılır
Məşğulluq			
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların idarə edilməsi	✓	4.1. Əhəmiyyətli mövzular
GRI 401: Məşğulluq 2016	401-1 Yeni işə götürülən işçilər və işçi dövriyyəsi	✓	6. İnsan Resurslarının İdarə Olunması
	401-2 Müvəqqəti və yarımştat işçilərə təklif olunmayan, lakin tam ştat işçilərə təqdim olunan əlavə ödəmələr, güzəştlər və imtiyazlar	✓	6. İnsan Resurslarının İdarə Olunması
	401-3 Valideyn məzuniyyəti	✗	Məlumat açıqlanmayıb.
İşçi və rəhbər əlaqələri			
GRI 402: İşçi və rəh-bər əlaqələri 2016	402-1 Əməliyyat dəyişiklikləri ilə bağlı minimal bildiriş müddətləri	✓	Azərbaycan Respublikasının Əmək Məcəlləsi əsasında tənzimlənir

GRI Standartı	Açıqlama	Status	İstinad / Qeyd
Əməyin sağlamlığı və təhlükəsizliyi			
GRI 403: Əməyin sağlamlığı və təhlükəsizliyi 2018	403-1 Sağlamlıq və əməyin təhlükəsizliyi üzrə idarəetmə sistemi	✓	İşçi Sağlamlığı və Təhlükəsizliyi Siyasəti
	403-2 Təhlükənin müəyyən edilməsi, riskin qiymətləndirilməsi və insidentin araşdırılması	✗	Bankın fəaliyyəti üçün əhəmiyyətli deyil.
	403-3 Əməyin mühafizəsi xidmətləri	✗	
	403-4 İşçilərin əməyin mühafizəsi və təhlükəsizliyi ilə bağlı iştirakı, məsləhətləşməsi və ünsiyyəti	✗	
	403-5 İşçilərin əməyin mühafizəsi və təhlükəsizliyi üzrə təlimi	✗	Bankın fəaliyyəti üçün əhəmiyyətli deyil.
	403-6 İşçilərin sağlamlığının təşviqi	✓	6. İnsan Resurslarının İdarə Olunması
	403-7 İşgüzar əlaqələrlə birbaşa bağlı sağlamlıq və təhlükəsizliyə təsirlərin qarşısının alınması və yumşaldılması 403-8 Əməyin mühafizəsi və təhlükəsizliyi idarəetmə sistemi ilə əhatə olunan işçilər	✗	Mövcud deyil
	403-9 İşlə əlaqədar xəsarətlər	✓	Heç bir xəsarət olmayıb
	403-10 İşlə əlaqədar xəstəlik	✗	Bankın fəaliyyəti üçün əhəmiyyətli deyil
Təlim və təhsil			
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların idarə edilməsi	✓	4.1. Əhəmiyyətli mövzular
	404-1 Bir əməkdaşın payına düşən illik təlim saatları	✓	6. İnsan Resurslarının İdarə Olunması
	404-2 İşçi bacarıqlarının artırılması və keçid dəstəyi üzrə təlimlər	✓	5.1. Azərbaycan Bank Sektorunda Risk Mühiti 5.2. Etik Davranış və Uyğunluq 6. İnsan Resurslarının İdarə Olunması
	404-3 Müntəzəm fəaliyyət və karyera inkişafı üzrə nəzərdən keçirilmiş işçilərin faizi	✗	Mövcud deyil

GRI Standartı	Açıqlama	Status	İstinad / Qeyd
Müxtəliflik və bərabər imkanlar			
GRI 405: Müxtəliflik və bərabər imkanlar 2016	405-1 İdarəetmə orqanlarının və işçilərin müxtəlifliyi	✓	6. İnsan Resurslarının İdarə olunması
	405-2 Başlanğıc əmək haqqı və mükafatlandırma üzrə qadınların kişilərə olan nisbəti	✗	Məlumat açıqlanmayıb
Ayrı-seçkiliyin olmaması			
GRI 406: Ayrı-seçkiliyin olmaması 2016	406-1 Ayrı-seçkilik hadisələri və onların qarşısını almaq üçün görülmüş tədbirlər	✓	6. İnsan Resurslarının İdarə olunması
Birləşmə və kollektiv müqavilələr azadlığı			
GRI 407: Birləşmə və kollektiv müqavilələr azadlığı 2016	407-1 Fəaliyyət çərçivəsində birləşmə azadlığı və kollektiv müqavilələrin istifadəsi haqqını risk altına salan əməliyyatlar və təchizatçılar	✗	Bankın fəaliyyəti üçün əhəmiyyətli deyil
Uşaq əməyi			
GRI 408: Uşaq əməyi 2016	408-1 Uşaq əməyinin istismarı üzrə yüksək riskli əməliyyatlar və təchizatçılar	✓	9. Təchizat Zəncirinin İdarə Olunması
Məcburi əmək			
GRI 409: Məcburi əmək 2016	409-1 Məcburi əməyin istismarı üzrə yüksək riskli əməliyyatlar və təchizatçılar	✓	9. Təchizat Zəncirinin İdarə Olunması
Təhlükəsizlik təcrübələri			
GRI 410: Təhlükəsizlik təcrübələri 2016	410-1 Təhlükəsizlik işçilərinin insan haqları üzrə siyasət və prosedurlar barədə təlim keçməsi	✗	Məlumat açıqlanmayıb.
Yerli icmaların hüquqları			
GRI 411: Yerli icmaların hüquqları 2016	411-1 Yerli icmaların haqlarının pozulması insidentləri	✓	Hesabat dövründə haqların pozulması ilə bağlı hər hansı insident qeydə alınmamışdır

GRI Standartı	Açıqlama	Status	İstinad / Qeyd
Yerli cəmiyyət			
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların idarə edilməsi	✓	4.1. Əhəmiyyətli mövzular
GRI 413: Yerli cəmiyyətlər 2016	413-1 Yerli cəmiyyətlərin cəlb olunması, təsirlərin qiymətləndirilməsi və inkişaf proqramları olan əməliyyatlar	✓	7. ATB-nin Korporativ Sosial Məsuliyyəti
	413-2 Yerli cəmiyyətlərə mövcud və potensial əhəmiyyətli mənfi təsirləri olan əməliyyatlar	✓	7. ATB-nin Korporativ Sosial Məsuliyyəti
Təchizatçıların sosial qiymətləndirilməsi			
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların idarə edilməsi	✓	4.1. Əhəmiyyətli mövzular
GRI 414: Təchizatçıların sosial qiymətləndirilməsi 2016	414-1 Sosial meyarlar üzrə qiymətləndirilmiş yeni təchizatçılar	✓	9. Təchizat Zəncirinin İdarə Olunması
	414-2 Təchizat zəncirində mənfi sosial təsirlər və görülən tədbirlər	✓	9. Təchizat Zəncirinin İdarə Olunması
İctimai siyasət			
GRI 415: İctimai siyasət 2016	415-1 Siyasi xarakterli töhfələr	✗	Mövcud deyil
Müştəri sağlamlığı və təhlükəsizliyi			
GRI 416: Müştəri sağlamlığı və təhlükəsizliyi 2016	416-1 Məhsul və xidmət kateqoriyalarının sağlamlıq və təhlükəsizlik təsirləri üzrə qiymətləndirilməsi	✗	Bankın fəaliyyəti üçün əhəmiyyətli deyil
	416-2 Məhsul və xidmətlərin sağlamlıq və təhlükəsizlik tələblərinə cavab verməməsi halları	✗	Bankın fəaliyyəti üçün əhəmiyyətli deyil

GRI Standartı	Açıqlama	Status	İstinad / Qeyd
Marketinq və etiketləmə			
GRI 417: Marketinq və etiketləmə 2016	417-1 Məhsul və xidmətlər üzrə məlumatlandırma və etiketləmə tələbləri	✓	3.2. ATB-nin Biznes Modeli və Əsas Xidmət Sahələrimiz
	417-2 Məhsul və xidmətlər üzrə məlumatlandırma və etiketləmə tələbləri ilə uyğunsuzluq halları	✗	Mövcud deyil
	417-3 Marketinq kommunikasiyalarında uyğunsuzluq halları	✗	Mövcud deyil
Müştəri məxfiliyi			
GRI 418: Müştəri məxfiliyi 2016	418-1 Müştəri konfidensiallığının pozulması və müştəri məlumatlarının itirilməsinə dair əsaslandırılmış şikayətlər	✓	3.4. Müştəri Əlaqələrinin İdarə Edilməsi

Əlaqə məlumatları

ATB maraqlı tərəflərimizin rəy və tövsiyələrini yüksək qiymətləndirir. Hesabatımızın və fəaliyyətimizin təkmilləşdirilməsinə töhfə verə biləcək hər bir fikir bizim üçün önəmlidir.

Əlaqə üçün məsul şəxs:

Hüsniyyə İmaməliyeva

Ünvan: Bakı şəhəri, C. Məmmədquluzadə küçəsi 85; 192/193

Telefon: 945

E-poçt: husniyya.i@atb.az